MÜNDƏRİCAT



3 | İBRAHİM ƏLİYEV: AZƏRBAYCAN TORPAQLARININ ERMƏNİLƏR TƏRƏFİNDƏN ZƏBT EDİLMƏSİ TARİXİNDƏN

7 | ELŞƏN BAYRAMZADƏ MƏDƏNİYYƏTİN QLOBALLAŞMASI: PROBLEMLƏR, PERSPEKTİVLƏR

10 | ƏHMƏD QULİYEV: I ŞAH İSMAYILIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ İNGİLİSDİLLİ TARİXŞÜNASLIQDA

14 | AYSEL RAMAZANZADE: THE POLICY OF RUSSIA AND THE EU TOWARDS THE SOUTH CAUCASUS IN THE POST-SOVIET ERA

18 | BƏXTİYAR NƏBİYEV: NAXÇIVANIN VƏ DAĞLIQ QARABAĞIN STATUSUNUN TARİXİ MÜƏYYƏNLƏŞDİRİLMƏSİ MƏSƏLƏSİNİN GEOSİYASİ NƏTİCƏLƏRİ

24 | FUAD BABAYEV: ÇEÇENİSTAN MÜNAQİŞƏSİNİN HƏLLİ MODELİ

28 | ASƏF HACIYEV: QAX ƏHALİSİNİN DEMOQRAFİK VƏZİYYƏTİ (XX-XXI ƏSRLƏR)

33 | ИРАДА НУРИЕВА: ИСТОРИЧЕСКИЕ КОРНИ ПРОБЛЕМЫ НАГОРНОГО КАРАБАХА

37 | ƏSLİ KAZIMOVA: AĞIR SƏNAYE SAHƏLƏRİNİN İNKİŞAFININ ÖLKƏ İQTİSADİYYATININ STRUKTURUNUN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ STRATEJİ ƏHƏMİYYƏTİ

40 | GAFAR KARİMLİ: E-TİCARETİN TÜKETİCİ DAVRANIŞLARINA ETKİLERİ: TÜRKİYE'DEKİ SOSYAL MEDYA KULLANICILARI ÜZERİNDE BİR ARAŞTIRMA

46 | LƏMAN QOCAYEVA:
İRAN İSLAM RESPUBLİKASININ QAFQAZ SİYASƏTİ RUSİYA VƏ TÜRKİYƏ MÜNASİBƏTLƏRİ KOTEKSTİNDƏ

50 | HÜSEYN HƏSƏNOV:
MÜƏSSİSƏ FƏALİYYƏTİNİN İDARƏ OLUNMASINDA TƏŞKİLATİ KONFLİKT - İDARƏETMƏNİN ƏSASI KİMİ

54 | AZƏR BAYRAMOV: DÖVLƏT QULLUĞU SİSTEMİNDƏ PEŞƏKARLIĞIN ARTIRILMASINDA DÜNYA TƏCRÜBƏSİNİN ƏHƏMİYYƏTİ VƏ TƏTBİQİ PROBLEMLƏRİ

62 | NƏRMİNƏ QASIMOVA:
MULTİKULTURALİZM MÜASİR CƏMİYYƏTİN SOSİAL-MƏDƏNİ MODELİ KİMİ

65 | ГАМИДА САМЕДОВА:
ВНЕШНЕПОЛИТИЧЕСКИЕ РЕСУРСЫ И МЕХАНИЗМЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

67 | AKİF MƏMMƏDLİ: ORTA ƏSR ŞƏHƏRİMİZ QUM HAQQINDA NƏ BİLİRİK?

70 | КЯМИЛЯ ДЖАББАРОВА:
ПРОБЛЕМЫ И ПУТИ РЕШЕНИИ КИБЕРБЕЗОПАСНОСТИ В МИРЕ В УСЛОВИЯХ РОСТА КИБЕРПРЕСТУПЛЕНИЙ

73 | SƏYAVUŞ QASIMOV:
MİLLİ MARAQLARIN FORMALAŞMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ
(konseptual yanaşma)

58 | ZÜLFÜQAR FƏRZƏLİYEV:
İNSAN VƏ CƏMİYYƏT HƏYATINDA BİNAR QARŞIDURMALARIN ROLU

“GEOSTRATEGİYA” jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların
Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

GEO STRATEGİYA

Təsisçi:
“Kaspi” Geosiyasi Araşdırmalar Mərkəzi

Baş redaktor:
Əli Həsənov
Redaktor:
İbrahim Əliyev
Redaktor müavini:
İsmayıl Qasımov

Korrektor:
Leyla Binyatova

Dizayner:
İman Hüseynov

Redaksiya heyəti:

Əli Həsənov
Mübariz Qurbanlı
Səlahəddin Xəlilov
Rüstəm Məmmədov
Rasim Musabəyov
Çingiz İsmayılov
Musa Qasımlı
İbrahim Əliyev
Ərəstun Mehdiyev
Cəfər Cəfərov
Elman Nəsirov
Hikmət Məmmədov
Elçin Əhmədov

Ünvan:
Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.
Tel: (+994 12) 537 16 05
Faks: (+994 12) 537 16 05
E-poçt:
geostrategiya.az@mail.ru
strategiya.az@mail.ru

“Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunmuşdur.

Sifariş № 707

Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.

Tarix

İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN TORPAQLARININ ERMƏNİLƏR TƏRƏFİNDƏN ZƏBT EDİLMƏSİ TARİXİNDƏN



Ermənilərin Türkiyədən Cənubi Qafqaza köç etməsi

Армянскіе бѣженцы.
(Рис. худ. А. Петрова, собств. «Лѣтописи»).

XIX-XX əsrlərdə Şimali Azərbaycan torpaqlarının tutulması və oraya yad millətlərin, xüsusən ermənilərin köçürülməsi tarixinin araşdırılması böyük aktuallıq kəsb edir. Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra onun öz tarixinə, mədəniyyətinə, torpaqlarına sahib çıxması, itirilmiş ərazilərin qaytarılması məsələsinin qaldırılması qanunauyğun bir prosesdir. Bu mənada Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VI Qurultayında Ermənistan tərəfindən son yüzilliklər dövründə zəbt edilmiş torpaqlarının Azərbaycan xalqına məxsus olması faktını qeyd etməsi və Azərbaycan xalqının əvvəl-axır öz torpaqlarına qayıtmaq iradəsini ifadə etməsi fərqli reaksiyalara səbəb olmuşdur. (1) Ermənilər isə həmin faktdan hay-küs salmaq, Azərbaycanı günahlandırmaq istiqamətində qarayaxma kampaniyasına başlayıblar. Onların bu faktlara belə reaksiya verməsinin özü onların haqsızlığından və həqiqət qarşısında acizliklərindən xəbər verir.

Azərbaycan torpaqlarının ermənilər tərəfindən zəbt edilməsi uzun bir tarixə malikdir. Onlar ənənəvi olaraq həmişə özlərinə havadarlar tapmış, regionda yad qüvvələrin maraqlarına qulluq edərək, qonşularını satmış, bunun müqabilində isə özlərinə müxtəlif mükafatlar, xidmət müzdü almışlar. Tarixin bütün dərinliyinə diqqət yönəltdikdə onların xəyanətkar və satqın xarakterlərini və buna müvafiq olan əməllərini müşahidə etmək mümkündür. Öz qərəzli məqsədləri xatirinə istənilən xəyanətə qol qoymaq, tarixi saxtalaşdırmaq bu müllətin öndə gedənlərinin ən səciyyəvi cəhətidir. Regiona tamah salan hər bir yadellinin qulluğunda canbaşla durmaq onların peşəkar cəhəti kimi özünü daim büruzə vermişdir. Bu

əməllərin müqabilində isə aldıqları yüksək mənsəblər, yeni-yeni ərazilər, var-dövlət olmuşdur.

Regiona can atan yadellilər bu buyruq qullarını dərhal müşahidə etmiş, onların xidmətindən geniş istifadə etmişlər. Onlar hələ XVIII əsrin əvvəllərində Cənubi Qafqaza can atan Rusiya hökmdarı I Pyotrun da diqqətindən yayınmır. (2) Öz göstərişlərində ermənilərdən Rusiya hakimiyyətinin dayaqlarının yaradılması və möhkəmləndirilməsində ermənilərdən geniş istifadə etməyi tövsiyə etmişdi. Sonradan XVIII əsrin axırı-XIX əsrin əvvəllərində Cənubi Qafqazı işğal etmək arzusunu reallaşdıran Rusiya imperiyasının yeritdiyi siyasətdə erməni amili özünəməxsus yer tutur. Məhz həmin dövrdən başlayaraq bizim dövrümüzə qədər Sovet dövləti də daxil olmaqla erməni amilinin istifadəsində heç bir dəyişiklik baş verməmiş, onlardan dövlətin regionda yeritdiyi qərəzli siyasətdə istifadə olunmuşdur. Bütün bu köçürmələr tarixi mənbələrdə, xüsusən dövlət sənədlərində öz əksini tapmışdır və onların inkar edilməsi qeyri mümkündür. Buna baxmayaraq, bunun barəsində uzun tarix boyu tədqiqatlar aparılmış, çoxsaylı məqalələr, kitablar yazılmışdır. Lakin elmi sübutların ziddinə olaraq həmişə ermənilər əzabkeş bir xalq kimi qələmə verilərək onların əsassız iddiaları dəstəklənmiş, zaman-zaman Azərbaycan torpaqları hissə-hissə onlara verilmişdir. Bunun başlıca səbəbi isə əzabkeş erməni xalqına kömək etmək, onun haqqını təmin etmək deyil, böyük dövlətlərin, xüsusən də Rusiya imperiyasının və Sovet Rusiyasının maraqlarına xidmət edən mühitin yaradılması, göstərilən "xidmət" müqabilində ermənilərə güzəştlərin edilməsi, mükafatların verilməsi olmuşdur. Tarixi Azərbaycan torpaqlarının ermənilərə verilməsi, ermənilərin bu ərazilərin sahibi olması haqqında uydurulmuş əfsanə erməni xalqının haqqının təmin olunmasına deyil, mövcud imperiyanın müstəmləkə hakimiyyətinin təhlükəsizliyinin təmin edilməsinə, onun dayaqlarının möhkəmləndirilməsinə və ömrünün uzadılmasına xidmət etmişdir. Ermənilərin bu siyasətdən aldıqları isə xidmət muzdundan başqa bir şey deyildir.

Ermənilər həmişə türk torpaqlarına can atmışlar. Fürsət düşəndə isə bu arzularını həyata keçirməyə başlamışlar. Rusiya imperiyasının Cənubi Qafqaza ekspansiyası zamanı ermənilərin diqqət çəkməsi təsadüfi deyildi. Rusiyanın Cənubi Qafqazda möhkəmlənmək məqsədlərində erməni amilinə üstünlük verməsi onların kütləvi şəkildə buraya köçürülməsi və Azərbaycan torpaqlarında kök salması üçün əlverişli şərait yaratdı. XIX əsrin əvvəllərində Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı ilə ermənilərin fasiləsiz olaraq Cənubi Qafqaza köçürülməsi prosesi başlandı və burada onların sayının süni şəkildə artmasının əsası qoyuldu. (3)

Bu köçürmə prosesinin miqyasını və dağıdıcı nəticələrini daha əyani şəkildə təsəvvür etmək üçün iki yerə bölünmüş Azərbaycanda son yüzilliklərdə ermənilərin yerləşməsi baxımından müqayisəsi maraqlı mənzərə yaradır. (4, s.39-40; 5, s.59-61) Azərbaycanın hər iki hissəsində təbii coğrafi şəraitin elə bir ciddi fərqi yoxdur. Lakin erməni əhalisinin Şimali və Cənubi Azərbaycanda yayılma reallığı ciddi şəkildə fərqlənir. Onların regionda təbii məskunlaşması halında bu fərq o qədər də gözəçarpan olmamalı idi. Lakin Rusiya imperiyasının işğal etdiyi ərazidə məqsədyönlü şəkildə ermənilərin məskunlaşdırması qeyd olunan ciddi fərqlərin yaranmasına gətirib çıxarmışdır.

Statistikaya müraciət etmək kifayət edər ki, bu vəziyyəti əyani şəkildə canlandırmaq mümkün olsun. XIX əsrin əvvəllərində Rusiyanın Şimali Azərbaycanı işğal etməsinə qədər ermənilər əhalinin ümumi sayının kiçik bir faizini təşkil etmişdir. Yalnız məqsədyönlü şəkildə həyata keçirilən intensiv köçürmə siyasəti sayəsində onların sayı artmış, Azərbaycan əhalisi ilə müqayisə edilə biləcək həddə gəlib çıxmışdır. Rus müəllifləri özləri etiraf edirdilər ki, ermənilər Cənubi Qafqaza konkret məqsədlərlə köçürərək onlardan imperiya maraqları üçün istifadə etmişlər. (5, s.59-61; 6, s.267-268; 7, s.121-122; 8, s.3)

Rusiyanın dövlət xadimlərinin, müxtəlif tədqiqatlarının açıq-aşkar şəkildə bildirdikləri, çoxsaylı mənbə və statistik materiallarla təsdiq edilmiş həqiqətlər haqqında dəfələrlə yazılsa da, yalan ayaq tutub yeriyir. Yüzlərlə dəfə sübut olunmuş həqiqətiləri təkrar-təkrar sübut etmək lazım olur. Görünür bu həqiqətə qarşı uydurulmuş yalanlar dünya siyasətində hegemonluq edən qüvvələrə sərf edir. Erməni amilini Cənubi Qafqazda təşkil edənlər və ondan öz imperiya məqsədləri üçün istifadə edən hegemon dövlətlərin dəstəyi yüzilliklər boyu avantüralara söykənən erməni fitnəsinin yeni-yeni faciələr törəməsinə münbit şərait yaradır. Ermənilərin avantürası əslində son dövrlərdə dəstəklənən terror ocaqlarından yalnız daha mütəşəkkil, daha məkrli, demokratik dəyərlər və insan haqları pərdəsi altında təzahür etməsindədir. Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı yeritdiyi siyasət dövlət səviyyəsində aparılan terrorizmdən başqa bir şey deyildir. Ermənistan dövlətinin terrorçu mahiyyəti özünü həm də onda ifadə edir ki, onun təşkil edilməsi də, dövlət kimi formalaşdırılması da daxili qüvvəyə, daxili inkişaf qanunlarına, daxili iqtisadiyyata deyil kənardan olunan dəstəklərə söykənir. Onun özünün müstəqil dövlət kimi fəaliyyət göstərmək iqtidarı yoxdur. Onu da qeyd etmək lazımdır ki, ermənilərin siyasi elitasının, müstəqillik dövründə isə hakimiyyətdə olan qüvvələrin ictimai həyatın bütün sahələrində yeritdiyi siyasətin birinci qurbanı elə müllətçilik, düşmənçilik, özündən razılıq zəhəri ilə zəhərlənmiş erməni xalqıdır. Ermənistan xalqının ən böyük günahı onların milli maraqlarından çox-çox uzaq olan kənar qüvvələrin məqsədlərinə xidmət edən sifarişləri yerinə yetirmələri, böyük siyasətin ən çirkli və şərəfsiz işlərini görmələri, hakimiyyətdə olan və kənar qüvvələrin sifarişlərini icra etməklə özünə var-dövlət qazanan xəyanətkar dəstəsinin alətinə çevrilmələridir.

XIX əsrin əvvəlində Cənubi Qafqazın Rusiya imperiyasına birləşdirildiyi gündən əgər müsəlman əhalinin yaşadığı ərazilər işğalın obyekti idisə, bu ərazilərə köçürülmüş ermənilər işğalçı siyasətin həyata keçirilməsi üçün vasitə idilər. Onlar bu xəyanətkar missiyanı həmişə yüksək canfəşanlıqla həyata keçirmiş, onun hesabına yaşamış, var-dövlət sahibi olmuş, mülklər əldə etmiş, dövlət vəzifələri tutmuşlar. Əhali həm dövlət qurumları, həm kilsə tərəfindən millətçilik ruhunda, azərbaycanlı əhaliyə nifrət ruhuhda ideoloji təbliğatla əhatə olunur, vaxtaşırı etnik zəmində münaqişələrə cəlb olunurdular.

XX əsrin əvvəllərində erməni-azərbaycanlı qarşıdurması daha intensiv xarakter alır, vaxtaşırı silahlı toqquşmalara gətirib çıxarırdı. Bu qarşıdurmanın mahiyyətini ona yalnız bütöv yanaşmaq və bu tarixi ardıcıl izləmək yolu ilə müşahidə etmək mümkündür. Belə bir qanunauyğunluğu qeyd etmək istərdik. Gündəlik qaşıdurma, ziddiyyətlər fasiləsiz olaraq davam edirdi. Silahlı toqquşmaların baş verdiyi zaman isə onun daha qlobal problemlə bağlı olduğunu görməmək mümkün deyildir. 1905-ci ildə başlamış erməni-müsəlman qırğını Rusiyanı bürümüş inqilab dalğasının Cənubi Qafqaza, xüsusən Bakıya gəlməsinin qarşısını almaq üçün Rusiya hakimiyyəti tərəfindən hazırlanması və törədilməsi bütün dövlət sənədlərində, tarixi tədqiqatlarda sübut edilmişdir. (9)

Erməni avantürasının yeni mərhələsi yeni inqilab dalğasının

başladığı 1917-20-ci illəri əhatə edir. İmperiya hakimiyyəti özünə lazım olan məqamlarda erməni amilini işə salmış, Cənubi Qafqazın öz çərçivəsində saxlamaq üçün qırğınlar törətmişdir. Təsadüfi deyildir ki, 1918-ci ildə Azərbaycanın azadlıq iradəsini sındırmaq, bu ölkənin sərvətlərini, o cümlədən neftini əldən verməmək üçün törədilən mart soyqırımının icraçıları ermənilər idisə, onun sifarişçiləri bolşevik Rusiyası idi. (10, s.120-125; 11)

Dərindən diqqət yetirdikdə görmək olar ki, bu dövrdə törədilən qırğınlarda ermənilərin məqsədi o qədər də aydın deyildi və mücərrəd xarakter daşıyırdı. Məsələn, tarixin ən qanlı qırğınlarından biri olan 1918-ci il Mart soyqırımını törədən ermənilərin məqsədi nə idi. Onlar Bakını tutmaq, onun neftinə sahib olmaq, müsəlman əhalisindən tam təmizləmək istəyirdilər. Lakin bu məqsədlər qeyri-real idi. Bu soyqırımın əsl törədicilərinin məqsədləri və ona çatmaq yolları daha aşkar və real idi. Bolşeviklərsiz ehmənilər həmin hadisələrdə davamlı heç bir şeyə nail olmaq iqtidarında deyildilər. Onlar yalnız dağıda bilirdilər, qonşusuna xəyanət edərək arxadan zərbə vurmağı bacarırdılar. Konstruktiv quruculuq işi ilə məşğul olmaq, müstəqil siyasi hakimiyyət yaratmaq onlarlıq deyildi. Göründüyü kimi onların 1918-ci ilin yazında Cənubi Qafqaz regionunda müstəqil dövlətin yaranması məqamında oynadıqları xəyanətkar rolu görməmək mümkün deyil. Mart soyqırımı onların əli ilə həyata keçirildi. Düzdür, belə cinayətlərdə bütöv bir xalqı günahlandırmaq fikrində deyilik, lakin onların bu iyrənc sifarişləri yerinə yetirməyə razılıq verməsi, belə cinayətlərə etiraz etməməsi çox mətləblərdən xəbər verir. Belə bir icraçının müştəriləri də həmişə kifayət qədər idi. Təsadüfi deyildi ki, onların başlıca himayədarları Rusiya imperiyasının və onların davamçıları olan bolşeviklərinin başı özlərinə qarışıq olanda onlar dəstəksiz qalmadılar. Məhz kənar qüvvələrə göstərdikləri "xidmət" sayəsində Qərb ölkələrinin dəstəyi ilə Azərbaycan ərazilərində öz dövlətlərini yarada bildilər.

1918-20-ci illərdə müstəqillik məqamında Ermənistanın regional münasibətlər sahəsində tutduğu ziddiyyətli mövqe və oynadığı dağıdıcı rol hadisələrin gedişində öz neqativ nəticəsini verdi. Bu əməllərin sırasını tam vermək olar. Bütövlükdə isə qeyd etmək lazımdır ki, bütün müstəqillik dövründə onlar münaqişə törətmiş, ənənəvi olaraq regionda gedən təsir dairəsi uğrunda mübarizədə yad qüvvələrin və dövlətlərin marağına xidmət etmişlər. 1919-cu ilin iyununda Cənubi Qafqaz Denikin işğalı təhlükəsi ilə üşləşəndə Azərbaycan və Gürcüstanın birləşərək müqavimət göstərmək təkliflərini rədd edərək, Denikinlə gizli danışıqlara getmişdi.

Özü formal olaraq bolşeviklərə müxalif mövqedə duran və müstəqil dövlət kimi çıxış etsə də, XI Qırmızı Ordunun Azərbaycana hücumunu təmin etmək üçün Azərbaycanın müxtəlif yerlərində qiyamlar təşkil edərək, bu işğala "xidmət" göstərmişdilər. Bütün bu "xidmət"lərin müqabilində isə Azərbaycanın yeni-yeni ərazilərini əldə etmiş, böyük dövlət mənsəblərinə sahib olmuşlar.

Ermənistan Azərbaycandan bir qədər sonra – 1920-ci ilin noyabrında sovetləşsə də bu gecikmə formal xarakter daşıyırdı. Ermeniistan bir dövlət olaraq Rusiyadan kənarda mövcud olmaq iqtidarında deyildi. Onlar əvvəl-axır öz havadarlarının yanında yer tutmalı idilər ki, bu da tezliklə baş verdi. Dəyişən siyasi rejimlər ermənilərin regionda oynadıqları rolda, onların bu sahədə göstərdikləri xidmətin xarakterində heç nə dəyişmirdi. Onlar eyni canıyananılıq və sədaqətlə Rusiya imperiyasına, onun yerində yarana biləcək istənilən rejimə - Kolçaka, Denikinə, Bolşevikləre ənənəvi xidmətlərini göstərməyə hazır olduqlarını dəfələrlə sübut etmişdilər. Əvəzində isə onlara əvvəlcədən vəd verilənləri tam ala bilmədikdə,



Ermənilərin 1828-ci ildə İrandan Azərbaycan torpaqlarına köçürülmələrinin 150 illiyi münasibəti ilə qoyduqları abidə (Abidənin üzərində ermənicə "Marağa - 150" yazılmışdır). Ağdərə, 1978-ci il.

öz narazılıqlarını daim bildirir, tələb edirdilər.

Sovet dövləti proletar beynəlmiləlçiliyi, xalqlar dostluğu, xalqların öz müqqəddəratını təyin etmək hüququ şüarları ilə çıxış etmələrinə baxmayaraq, milli münasibətlər sahəsində imperiya Rusiyasının siyasətindən uzağa getməmişdi. Xüsusən müsəlman xalqlarına münasibətdə yeridilən siyasətdə köhnə siyasət dəyişməmişdi. Eyni zamanda bu xalqlara qarşı işlədilər vasitələr, amillər üstüörtülü şəkildə istifadə olunmaqda davam edirdi. Erməni amili əvvəlki kimi köhnə yerində, köhnə statusunda qalmaqda və fəaliyyət göstərməkdə davam edirdi. Sovet hakimiyyətinin ilk dövrlərində müsəlman respublikalarının hüququnun müxtəlif vasitələrlə kölgəyə salınması, onlarda fəaliyyət göstərən milli kadrların fəaliyyətinin məhdudlaşdırılması, respublikada vacib postlarda qeyri müsəlmanların yerləşdirilməsi bu qəbildən idi. Sovet hakimiyyəti illərində Azərbaycan xalqı əleyhinə törədilmiş bütün cinayətlərdə ermənilərdən istifadəni müşahidə etməmək mümkün deyildir. Sovet hakimiyyətinin qurulduğu gündən Azərbaycan xalqına qarşı həyata keçirilən repressiyalarda ermənilər geniş fəaliyyət göstərmişlər.

Sovet hakimiyyətinin mövcud olduğu dövrdə Azərbaycan ərazilər də , xüsusən Ermənistan SSR-də azərbaycanlılara məxsus torpaqlarda ermənilərin yerləşdirilməsi prosesi davam etdirilmişdir. SSRİ sərhədlərinin hamı üçün qapalı olduğu halda, ermənilərin xarici ölkələrdən kütləvi şəkildə SSRİ-yə köçürülməsi, onların Ermənistanın azərbaycanlılar yaşayan yaşayış məskənlərində məskunlaşdırılması prosesi fasiləsiz olaraq davam etdirilmişdir. 1948-52-ci illərdə qəbul olunmuş partiya və dövlət sənədlərində azərbaycanlıların Ermənistandan deportasiya edilməsinin arqumentlərindən biri xaricdən köçürülən ermənilərin yerləşdirilməsi üçün yerlərin boşaldılması göstərilir. (12)

Sovet dövlətinin xalqlar dostluğunun və proletar internasionalizminin təbliği, xalqların yeni tarixi birliyi olan "sovet xalqının" formalaşması, milli münasibətlər sahəsində problemlərin tam həll edilməsi kimi ideoloji təbliğatın pərdəsi arxasında ermənilərin mühüm rol oynadığı siyasətin yeridilməsini sübut edən göstəricilərdən biri də, qondarma "erməni soyqırımı" ideyasının dəstəklənməsi, ona xüsusi bir abidənin ucaldılması idi. Elə bu cür təbliğatın və qərəzli siyasətin əyani təzahürü kimi zaman-zaman Azərbaycanın bu və ya digət torpaqları ermənilərə bəxşiş edilməsini göstərmək olar.

Sovet dovlətinin dağılması anında SSRİ-nin müxtəlif yerlərində qəsdən münaqişə ocaqlarının yaradılması da uzun illər boyu aparılan siyasətin məntiqi davamı idi. Onların ən dəhşətlisi isə erməni amilinin mərkəzi rol oynadığı Dağlıq Qarabağ münaqişəsidir ki, o da bu gün də təkcə Azərbaycanın deyil, bütün regionun həyatında

Bakıda 1918-ci il mart soyqırımının qurbanları

başlıca maneə rolunu oynayır. Əməllərinə görə heç vaxt məsuliyyət daşımamış Ermənistan cinayətlərini davam etdirir. Nə vaxtsa ondan bu cinayətlərinin hesabının soruşulmayacağına arxayındır. Buna görə də münaqişənin həlli prosesində qeyri-konstruktiv mövqe tutaraq, həmişə olduğu kimi, bu qayda ilə istəklərinə nail olacağına ümid edir. Buna görə də Azərbaycanın ermənilər tərəfində tarix boyu zəbt etdiyi ərazilərin gündəmə gətirilməsini böyük qorxu və həyəcanla qarşılayır, bu faktdan Azərbaycana yeni böhtanlar atmaq üçün istifadə edir. Onlar İrəvanın, Zəngəzurun, Göyçə mahalının və digər ərazilərin Azərbaycanın tarixi torpaqları olduğunu gözəl bilir və dərk edirlər. Bu gün həmin faktların dövlət səviyyəsində qaldırılmasını özləri üçün təhlükə kimi qəbul edirlər. Çünki bunun həqiqət olduğunu bilirlər. Həmin torpaqlarda ədalətin öz yerini tutması zamanın məsələsidir.

Azərbaycan xalqının obyektiv və subyektiv səbəblər üzündən itirdiyi torpaqlarına sahib durması labüddür. Qeyd olunduğu kimi, həmin torpaqların Azərbaycana məxsus olması açıq, şübhə edilməsi mümkün olmayan bir faktdır. Ermənilər isə həmin əraziləri havadarlarının hesabına əldə etdikdən sonra onlar haqqında əfsanələr, həqiqətdən uzaq yalanlar uydurmaq yolu ilə orada öz hökmranlıqlarını əbədiləşdirmək istəyirlər. Həmin faktların qaldırılması, Azərbaycanın o torpaqlardan imtina etmədiyini eşidəndə isə bu reallığı qorxu və tələşlə qəbul edirlər.

Müstəqil Azərbaycan dövləti işğal olunmuş ərazilərinə münasibətdə möhkəm mövqeyi və qəti iradə nümayiş etdirərək ermənilərin işğalçı simasını dünyaya sübut edir. Artıq dünyanın əksər dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları tərəfindən Azərbaycan torpaqlarının xeyli hissəsinin ermənilər tərəfindən zəbt etməsi faktını qəbul edirlər. Lakin onların çoxunun Qarabağ probleminə qərəzli yanaşması, ədalətin bərqərar olunması yolunda ardıcıl olmamaları üzündən işğal reallığı davam edir. Azərbaycan dövləti öz mövqeyində qətidir və öz torpaqlarını bütün vasitələrlə azad etməyə hazırdır.

ƏDƏBİYYAT

1. https://azertag.az/xeber/Bakida_Yeni_Azerbaycan_Partiyasinin_VI_qurultayi_kechirilib_YENILANIB_3-1135123
2. http://novosti.az/history/4319.html
3. http://www.hist.msu.ru/ER/Etext/FOREIGN/turkman.htm
4. Григорьев В. «Статистическое описание Нахичеванской провинции». Санкт-Петербург: СПб, 1833
5. Шавров Н. Новая угроза русскому делу в Закавказье. СПб, 1911
6. Грибоедов А. С. Записка о переселении армян из Персии в наши области. // Грибоедов А. С. Полное собрание сочинений: [В 3 т.]. — Пг.: Изд. Разряда изящной словесности Акад. наук, 1911—1917. — Т. 3. — 1917
7. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы, «Элм», 1990
8. Кавказский календарь Российской империи 1897 г., LXIII - Елизаветпольская губерния. СПб, 1904, с.3.
9. "Xalq qəzeti", 31.03.2009
10. Адыгезалов Г. Из истории расселения армян на Кавказе "Литературный Азербайджан".-2015.-№ 4
11. İskəndərov A.1918-ci il Mart qırğınının tarixşünaslığı. Bakı, 1997
12. http://1905.az/1948-1953-cu-illər-deportasiyasi/

Açar sözlər: *Köçürmə siyasəti; İrəvan; Zəngəzur; milli siyasət, Rusiya imperiyası*

Ключевые слова: *Переселенческая политика, Ереван, Зангезур, национальная политика, Российская империя*

Keywords: *Resettlement policy, Yerevan, Zangezur, national policy, Russian empire*

РЕЗЮМЕ

Из истории захвата азербайджанских земел армянами

В статье просматривается процесс переселения армян на территорию Северного Азербайджана в течении последних столетий, анализируется его динамика, цели, причины, последствия. Отмечается, что осуществляемая имперской Россией и ее наследником - советской властью политика с целью укрепления основ империи и держать под контролем мусульманское населениев Южном Кавказе проводилась беспрерывно в течении всего этого времени.Логическим продолжением этой политики стало провоцируемый Нагорно-Карабахский конфликт, направленный против Азербайджана. Поэтому постановка сегодня независимой Азербайджанской Республикой вопросане только оккупированных в ходе последнего конфликта земель, но и территорий. захваченных в прежные годы является закономерным.

SUMMARY

From the history of the seizure of Azerbaijani lands by Armenians

The article reviews the process of resettlement of Armenians to the territory of Northern Azerbaijan during the last centuries, analyzes its dynamics, goals, causes, consequences. It is noted that the policy pursued by the imperial Russia and its successor - the Soviet government with the aim of strengthening thefoundations of the empire and keeping the Muslim population under control in the South Caucasus was carried out continuously throughout this time. The logical continuation of this policy was the provoked Nagorno-Karabakh conflict, directed against Azerbaijan. Therefore, today the establishment of the issue of not only lands occupied during the last conflict, but also territories seized in former years by the independent AzerbaijanRepublic, is natural.

Fəlsəfə

MƏDƏNİYYƏTİN QLOBALLAŞMASI: PROBLEMLƏR, PERSPEKTİVLƏR

ELŞƏN BAYRAMZADƏ
Fəlsəfə üzrə fəlsəfə doktoru

Müasir dövrdə ictimai həyatın müxtəlif sferalarını əhatə edən problemlərin həlli, o cümlədən ictimai inkişaf strategiyalarının hazırlanması qloballaşma fenomenini nəzərə almadan mümkün deyil. Ümumdünya tarixinin qanunauyğun inkişaf prosesində meydana çıxmış qloballaşma dövlət və xalqların inteqrasiyasının keyfiyyətcə yeni mərhələsi kimi çıxış edir. Qloballaşma millət dövlətlərin inkişafına birbaşa təsir göstərir, lakin bu təsir tədqiatçılar tərəfindən heç də birmənalı dəyərləndirilmir. Yazılmış məqalədə əsas məqsəd qloballşama prosesinin daha çox təsir göstərdiyi mədəni sferada baş verən fundamental transformasiyalara diqqət yetirmək, onun milli mədəniyyətlərə təsirini araşdırmaqdır. Bunun üçün ilk növbədə bütövlükdə qloballaşma prosesinin mahiyyətinə qısa şəkildə aydınlıq gətirilməsi zəruridir.

Qloballşama prosesinin mahiyyətinə müxtəlif baxışlar mövcuddur. Bəzi tədqiqatçılar onu millət-dövlətlər üçün ziyanlı proses kimi dəyərləndirirsə, digərləri hər bir dövlətin qloballaşma prosesinə qoşulmasının zəruriliyini vurğulayırlar.

Qeyd edək ki, qloballaşma prosesi ictimai həyatın bütün sferalarını əhatə etdiyi üçün fərqli sferalarını, yaxud formalarını ayırır, siyasi, iqtisadi, sosial, hərbi, mədəni və s. qloballşamanı fərqləndirirlər. Vahid prosesin müxtəlif aspektləri kimi çıxış edən qloballaşma formaları içərisində mədəni qloballaşma, yaxud mədəniyyətin qloballaşması xüsusi maraq doğurur. Onun mahiyyəti, lokal mədəniyyətlər üçün faydalı, yoxsa ziyanlı olmasını müəyyənləşdirmək məqsədilə qloballaşma prosesə fərqli tədqiatçıların yanaşmasına diqqət yetirək.

Rus alimi A.İ.Utkinə görə: "Qloballaşma milli iqtisadiyyatların kapitalın sürətli yerdəyişməsinə, dünyanın yeni informasion açıqlığına, texnoloji inqilaba, inkişaf etmiş sənaye dövlətlərinin əmtəə və kapital yerdəyişmələrinin liberallaşmasına, kommunikasion yaxınlaşmaya, planetar elmi inqilaba əsaslanaraq vahid ümumdünyəvi sistemdə qovuşmasıdır". (1, s.181) Digər rus alimi A.S.Panarin isə qloballaşmanın tərifini belə formulə etmişdir: "Qloballaşma- xalqların bir-birindən ənənəvi proteksionist baryerlər və sərhədlərlə ayrılmadığı vahid, vəhdətdə olan dünyanın yaranması prosesidir". (2, s.183)

C.Soros qloballaşma fenomeninə çoxsaylı məqalə və kitab həsr etmişdir. O, qloballaşmaya tərif verərkən qeyd edir ki,: "Mən qloballaşmanın dar tərifini qəbul etmişəm: qloballaşma dedikdə kapitalın azad yerdəyişməsini və milli iqtisadiyyatların qlobal maliyyə bazarları və transmilli korporasiyalardan asılılığını başa düşürəm". (3, s.5)

Qloballaşmaya verilmiş tərifərin elmi və nəzəri əhəmiyyətinə xələl gətirmədən bəzi məqamlara diqqət yetirək. Bu tərifər faktiki olaraq çoxcəhətli və ictimai həyatın bütün sferalarını əhatə edən qloballaşma prosesini onun yalnız bir aspektinə müncər edir. Məhz bu baxımdan qloballaşma prosesinə daha əhatəli tərif verməyə ehtiyac yaranır. Qeyd edək ki, cəmiyyətin daxilində sosial əlaqə və qarşılıqlı münasibətlərin məcmusunu fransız sosioloq E.Dürkheym "cəmiyyətin sosial sıxlığı" kateqoriyası ilə işarələmişdir. (4, s.333) Əgər biz bəşəriyyətə bütöv cəmiyyət kimi yanaşsaq, onda qloballaşmanı ən ümumi şəkildə belə təyin edə bilərik: Qloballaşma – subyektləri millət-dövlətlər (və yaxud onların digər tarixi formaları) olan qlobal (planetar) cəmiyyətin sosial sıxlığının tədricən artması prosesidir.

Verilmiş tərif qloballaşma prosesinin iki mühüm səciyyəvi xüsusiyyətini də özündə ehtiva edir. Onlardan birincisi budur ki, tərifdə qloballaşmanın tarixi sərhədlərini cızmaqla, onun heç də yeni hadisə olmadığını göstərilməsidir. Belə ki, bəzi tədqiqatçılar qloballaşmanı yeni hadisə, xüsusilə informasiya-kommunikasiya

texnologiyalarının yaranması və sürətli inkişafı ilə əlaqələndirirlər. Lakin, tərifdən də göründüyü kimi cəmiyyətlər arasında müxtəlif münasibətlər formaca fərqlənsə də qədim tarixə malikdir. İkinci amil isə prosesin obyektiv səciyyə daşımasıdır. Yəni qloballaşma bəzi qlobal güclərin (hegemon dövlətlər, tarnsmilli şirkətlər və s.) öz mənafeləri üçün həyata keçidikləri layihə yox, obyektiv-tarixi prosesdir. Başqa sözlə desək, dünya qloballaşdırılmır, qloballaşır. Çünki, cəmiyyətlər arasındakı münasibətlər subyektiv yox, obyektiv səciyyə daşıyır.

Deyilənləri ümumiləşdirməklə obyektiv tarixi proses olan qloballaşmanın əsas cizgilərinə aid fikirləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) ölkə və xalqların insan fəaliyyətinin müxtəlif sferalarında qarşılıqlı əlaqə və qarşılıqlı asılılıqlarının artması; bunun nəticəsində insanların planetar birliyi, bütöv dünyanın formalaşması baş verir;

2) ümumdünya maliyyə-iqtisadi məkanının, qlobal miqyaslı bazarın yaranması, milli iqtisadiyyatların ümumi qaydalara malik qlobal sistemdə qovuşması;

3)dövlətin funksiyasının dəyişməsi, milli sərhədlərin "silinməsi", fövqəldövlət təşkilatların və trans-milli birləşmələrin fəaliyyət sferalarının genişlənməsi;

4) dünyanın universallaşması, avroatlantik sivilizasiyada toplanmış liberal- demokratik və sosiomədəni dəyərlərin geniş yayılması.

Qloballaşmanın mədəniyyətə birbaşa təsirinin ilk əlamətləri özünü "Böyük coğrafi kəşflər dövründə mədəni əlaqə və kommunikasiyaların bəşəriyyət tarixində ilk dəfə mahiyyətcə planetar meydan əldə etdiyi zamanlarda göstərib. Məhz bu zamandan etibarən maddi və mənəvi dəyərlərin unifikasiyası olmasa da, qlobal miqyasda əxz edilməsi və yayılması başlamışdır". (5, s.213) Lakin bununla yanaşı "… mədəni qloballaşma qeyri- adi qədim tarixə malikdir". (6, s.391) Çünki, qloballaşma prosesi bütün təzahür formalarında bu və ya digər dərəcədə mədəni komponentlərə malik olmuşdur.

Bütövlükdə qloballaşma prosesinə yanaşmalarda olduğu kimi, mədəni qloballaşmaya yanaşmaları da iki istiqamətə ayırmaq mümkündür: optimistlər, yəni mədəni qloballaşmanı faydalı və zəruri proses kimi qiymətləndirənlər, pessimistlər, yəni prosesi milli mədəniyyətlər üçün təhlükə hesab edənlər. Ümumiyyətlə, ilk növbədə onu qeyd edək ki, qloballaşmanın müasir mərhələsi sosiomədəni məkanın həddindən artıq informasiya-kommunikativ zənginliyi ilə xarakterizə edilir. Bu amil fasiləsiz proses olan mədəni qloballaşmanın baza xarakteristikalarından biri kimi çıxış edir. Mədəni qloballaşmanın dəyərləndirilməsi onun mənfi nəticələrinin anlaşılmasından və milli birliklərə təsirindən asılıdır. Tədqiqatçılar mədəni qloballaşmanın mümkün nəticələri haqqında fərqli fikirlər söyləyirlər. Bu fikirlər aşağıdakılardır.

1) dünya Amerika kütləvi mədəniyyəti və yaxud Qərb istehlakçı mədəniyyətinin himayəsi altında homogenləşməyə (bircinsləşmə) doğru hərəkət edir;

2) mədəni fərqlərin artımı dünyanın nəhəng sivilizasiyalarının geopolitik sərhədlərində münaqişələrə aparır;

3) mədəniyyətlərin və xalqların qarışması nəticəsində mədəni hibridlər və qlobal mədəni şəbəkələr meydana çıxır. (6, s.386)

Mədəni qloballaşmaya optimist yanaşma, onu işıqlı gələcək naminə insanları birləşdirəcək ümumbəşəri humanist dəyərlərin könüllü və obyektiv təsdiqi prosesi kimi şərhi ilə bağlıdır. Məsələn, rus tədqiqatçısı A.İ.Qolişevin fikrincə: "mədəni qloballaşma dövlətlər, millətlər və etnosların mürəkkəb, universal, çoxobrazlı və çoxqatlı sosiomədəni inteqrasiya prosesi olub Yer üzərində varlıq imkanını müəyyənləşdirən könüllü humanist vəhdətin formalaşmasıdır" (7, s.74). Mədəniyyətlərin qloballaşmasını mümkün hesab edən müəllif qeyd edir ki, hər bir xalqın məsəniyyətində "ən ümumi, ümuminsani kimi qavranılan oxşar dəyər və predmetlər, davranışın ümumi qəbul edilmiş norma və qaydaları əksini tapır".(7, s.75)

Mədəniyyətin qloballaşmasını nəinki mümkün, hətta faydalı sayan tədqiqatçılardan biri də ingilis tədqiqatçısı Malkolm Uotersdir. Tədqiqatçı belə hesab edir ki, qloballaşmaya daha çox məruz qalmış sferalardan biri də mədəni məkandır. Çünki, mədəniyyət obraz və simvollar məkanı olub iqtisadiyyat və siyasət kimi ərazi bağlılığı olan sferalardan daha tez yayılır. M.Uoters bu prinsipdən çıxış edərək qloballaşma prosesini faktiki olaraq mədəniyyətlərin qloballaşmasına müncər edir və ona belə tərif verir: "qloballaşma sosiallığın, simvolik mübadilələrin ekspansiyası ilə şərtlənən ərazisizləşdirməyə aparan təmayüllərin məcmusudur". (8, s.29) Heç şübhəsiz ki, M.Uoters qloballaşmanın ideoloqu kimi çıxış edir və dünyanın gələcəyini qlobalist mövqedən şərhinə çalışır. O, mahiyyətcə gələcəkdə vahid, ümumbəşəri mədəniyyətin formalaşacağını mümkün sayır. Tədqiqatçı iddia edir ki, ümumdünya mədəniyyəti təbii yolla və könüllülük əsasında formalaşacaq. Lakin, bunula belə o qeyd edir ki, yeni formalaşacaq mədəniyyət qərb dəyərlərinin və milli mədəniyyətlərin deqradasiyası əsasında formalaşacaq.

Mədəni qloballaşmanı mümkün və zəruri sayan tədqiqatçıların fikrincə bu proses bir sıra müsbət keyfiyyətlərə malikdir. Xüsusilə Devid Held və d. birgə yazdığı "Qlobal transformasiyalar: Siyasət, iqtisadiyyat, mədəniyyət" adlı fundamental əsərdə qeyd edirlər ki, "müasir mədəni qloballaşma bir sıra nailiyyətlərlə, o cümlədən mədəniyyət elementlərinin sərhədləri aşması və onlardan istifadənin maya dəyərinin azaldılması üçün böyük imkanlar yaradan misilsiz miqyaslı yeni qlobal infrastrukturla, mədəni mübadilə və bütün növ kommunikasiyaların intensivlik, həcm və sürətinin artması; Qərb kütləvi mədəniyyətinin yayılması, mədəniyyət məhsullarının istehsalı və paylanması üçün infrastrukturlar və təşkilatların yaradılmasında çoxmillətli mədəniyyət sənayesinin üstünlüyü; qlobal mədəni qarşılıqlı təsirin coğrafiyasında dönüşlə assosiasiya olunur". (6, s.402-403)

Problemə belə yanaşmaya görə mədəniyyətlərin qloballaşması nəinki gerçək, hətta insan inkişafının davamlı olması üçün zəruri prosesdir. Yalnız mədəniyyətlərin bir-birinə nüfuz etməsi, onların ümumbəşəri dəyərlər əsasında sintezi bəşər sivilizasiyasının sonrakı inkişafına stimul yarada bilər. Lakin bununla belə, dominat

mədəniyyət qismində, daha çox mütərəqqi hesab olunan Qərb məəniyyəti göstərilir. Mədəni sferaya keçirilmiş Qərb modernizmi bu mövqeni müdafiə edən əsas arqumentə çevrilir.

Onu da qeyd edək ki, bu mövqe heç bütün tədqiqatçılar tərəfindən dəstəkləınmir. Onların fikrincə bu gün inkişaf edən mədəni qloballaşma, əslində Qərbin qeyri-qərbə yaydığı modernizasiya prosesinin davamıdır. Nəticədə, bütövlükdə mədəniyyət deyildikdə Qərb mədəniyyəti, xüsusilə kütləvi mədəniyyət başa düşülür. Buna paralel olaraq ənənəvi milli mədəniyyətlər arxaikləşir və unudulur. Rus tədqiqatçısıV.S.Styopin bu haqda yazır: "İndustrial epoxada gerçəkləşmiş modernizasiya proseslərində texnogen mədəniyyətin, ənənəvi mədəniyyətlə müqayisədə daha yüksək inkişaf mərhələsinin sinvolu kimi qəbul edilən tərəqqi idealı ilə eyniləşdirmişdir. Bu mövqe hələ ki, müasir qloballaşma prosesində dominant mövqe tutmaqdadır". (9, s.262) Beləliklə, V.S.Styopinin təklif etdiyi təfsirdə mədəniyyətlərin qloballaşması mədəniyyətdə elə bir dəyişiklikdir ki, bu dəyişikliklər sosial-iqtisadi sferanın qloballaşmasının təsiri altında baş verir və milli-mənəvi mədəniyyətin deformasiyası, ümumplanetar texniki sivilizasiyanın formalaşmasında təzahür edir.

Zəruri olaraq qeyd edək ki, istər mədəni qloballaşma tərəfdarları, istərsə də əleyhdarları bir fikirdə yekdildirlər ki, bu proses qaçılmaz, labüddür. Bu isə öz növbəsində dünyada baş verən sosial-iqtisadi dəyişikliklər və bir regiondan digərinə böyük insan axınları ilə izah olunur. Miqrasiya axınları özü ilə mədəniyyətlərin də köç etməsini şərtləndirir. Fransız iqtisadçısı Jak Attalinin fikrincə, şərti olaraq köçərilik doktrinası həm insanların həyat tərzini, həm də mədəniyyətin vəziyyətini müəyyənləşdirir. Köçəri insan (dünya vətəndaşı) heç bir mədəni identikliyə, nə də heç bir ərazi bağlılığına malik deyil. Belə insanın dəyərləri hansısa millət-dövlət kontekstinə bağlılığı olmayan ümumbəşəri dəyərlərdir. (10, s.35)

Yuxarıda verilmiş təhlildən görünür ki, tədqiqatçılar arasında mədəni qloballaşmaya münasibət birmənalı deyil. Təbii ki, bunun subyektiv səbəbləri ilə yanaşı obyektiv səbəbləri də var. Bu ilk növbədə qloballaşma prosesinin ziddiyyətli xarakteri ilə əlaqədardır. Onun müsbət cəhətləri ilə yanaşı mənfi cəhətlərinin də olması özünü mədəni qloballaşma prosesində də göstərir. Belə olduqda, qloballaşmanın, xüsusi halda mədəni qloballaşmanın neqativ nəticələrindən, yaxud amerikalı iqtisadçı C.Stiqlizin təbirincə desək, gətirdiyi "narahatlıqlardan" necə sığortalanmaq olar sualı vacib olduğu qədər, ona birmənalı cavab vermək də çətindir. Tam əhatəliliyə iddia etmədən, suala qısmən də olsa cavab verməyə çalışacağıq.

Hər bir cəmiyyət konkret situasiyadan asılı olaraq qloballaşma nəticəsində meydana çıxmış mütəqəqqi və humanist yenilikləri qəbul etməyə, bəzən onlara uyğunlaşmağa, zəruri olduğu təqdirdə neqativ nəticələrdən qorumağa hazır olmalıdır. Qloballaşma nəticəsində yaranmış "qlobal mədəniyyətin" nə tam şəkildə qəbul edilməsi, nə də bütövlükdə inkarı düzgün olmazdı. Bu münasibətdə cəmiyyət çevik və praqmatik olmalıdır. Xüsusilə cəmiyyətin yaradıcı və intellektual elitası qloballaşmanın dinamikası və təmayüllərinə adekvat reaksiya verməli, onları düzgün dərk edərək mümkün nəticələr çıxarmalıdır.

Qloballaşma dövründə milli-mənəvi dəyərlərin üstünlük problemi daha da aktuallaşır. Məhz bu dəyərlərin təbliği, təlim və təhsil prosesində gənclərin milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyəsi kütləvi və qlobal mədəniyyətin neqativ təsirlərinə qarşı dayana bilər.

Qloballaşma heç bir halda insanlar və mədəniyyətlər arasında fərqi tam şəkildə aradan qaldıra, onları tamamilə məhv edə bilməz. Hər bir insanda yaradıcılıq imkanı və qabiliyyəti mövcud olacaq. Deməli insanda daim yeniləşmə imkanı qalır. Bu isə öz növbəsində insanlara öz unikallıq və identikliyini qorumaq imkanı verir. Məhz bu səbəbdən qətiyyətlə demək olar ki, "qloballaşma prosesi insanları "kütləyə" çevirir" müddəası həqiqəti əks etdirmir. Ona görə də, hər bir millət qloballaşma çağırışlarına hazır olmalı, onun verdiyi və inkişaf üçün zəruri olan imkanlardan yararlanmaqla yanaşı, onun neqativ nəticələrindən qorunmaq üçün işlək mexanizmlər hazırlamalıdır. Burada tam şəkildə təcridçilik mövqeyi tutmaq da düzgün olmazdı. Çünki, heç bir mədəniyyət özünə qapalı formada inkişaf edə bilməz. Belə bir inkişaf üçün o, daim yenilənməli, özündə ümumbəşəri dəyərləi daşıyan qlobal mədəniyyət artefaktları ilə zənginləşməlidir.

ƏDƏBİYYAT

1. Уткин А.И. Глобализация / Глобалистика: Энциклопедия. М.: Радуга, 2003, с.181

2. Панарин А.С. Глобализация/ Глобалистика: Энциклопедия. М.: Радуга, 2003, с.183

3. Сорос Дж. О глобализации. М.: Эксмо, 2004, 224 с.

4. Белл Д. Социальные рамки информационного общества / Новая технократическая волна на западе. М.: Прогресс, 1986, с.330-342

5. Чумаков А.Н. Метафизика глобализации. Культурно-цивилизационный контекст. М.: Реабилитация, 2006, 516 с.

6. Хелд Д., и др. Глобальные трансфор¬мации: Политика, экономика, культура. М.: Праксис, 2004, 576 с.

7. Голышев А.И. 2014. Глобализация: культурологический подход. – Вестник Псковского государственного университета. Сер. Социально-гуманитарные науки. № 6. С. 70-81.

8. Waters M. Globalization, London: Routledge. 1995, 268 p.

9. Степин В. С. 2011. Цивилизация и культура. СПб: СПб ГУП. 2011, 407 с.

10. Аттали Ж. 1993. На пороге нового тысячелетия. М.: Международные отношения, 1993, 70 с.

Açar sözlər: *qloballaşma, mədəniyyət, modernizm, dəyər.*
Key words: *globalization, culture, modernism, value.*
Ключевые слова: *глобализация, культура, модернизм, ценность.*

д.ф.п.ф Эльшан Байрамзаде

Глобализация культуры: проблемы, перспективы

РЕЗЮМЕ

В статье рассматривается влияние глобализации на культурную сферу. Прежде всего, раскрывается сущность процесса глобализации и обосновывается как обьективно-исторический процесс. Изучается влияние процесса глобализации на национальные культуры, выясняются негативные и позитивные аспекты. В то же время определяются способы устранения негативных последствий глобализации для национальных культур.

Phd. Elshen Bayramzadeh

Globalization of culture: problems, perspectives.

SUMMARY

The article examines the impact of globalization on the cultural sphere. First of all, the essence of the globalization process is revealed and justified as an objective historical process. The influence of the globalization process on national cultures is studied, negative and positive aspects are revealed. At the same time, ways of eliminating the negative consequences of globalization for national cultures are being determined.

Tarix

ƏHMƏD QULİYEV
Tarix üzrə fəlsəfə doktoru

I ŞAH İSMAYILIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ İNGİLİSDİLLİ TARİXŞÜNASLIQDA

Milli dövlətçiliyimizin təntənəsi sayılan Səfəvilər dövlətinin tarixi Vətən tarixşünaslığında geniş şəkildə tədqiq olunsa da, bu dövlətin tarixinin bir sıra məsələlərinin, o cümlədən I Şah İsmayılın hakimiyyəti dövründə Səfəvilər dövlətinin xarici siyasətinin əcnəbi, xüsusilə ingilisdilli tarixşünaslıqda öyrənilmə səviyyəsi lazımi şəkildə araşdırılmamışdır.

Ümumiyyətlə, I Şah İsmayılın hakimiyyəti dövründə Səfəvilər dövlətinin tarixinin müxtəlif məsələləri Vətən tarixşünaslığında O.Ə.Əfəndiyev[1; 2], Y.M. Mahmudov[3], Ş.F.Fərzəliyev[4], S.Aşurbəyli[5], Ş.K.Məmmədova[6], S.A.Məmmədov[7], Z.H.Bayramov[8], X.S.Qasımov[9], T.H.Nəcəfli[10] R.Ə.Ağayev[11], N.S.Musalı[12], T.R.Cəfiyev[13], D.M.Əzimli[14], M.Z.Ağalarov [15], M.A.Seyfəddini[16] və digərlərinin əsərlərində araşdırılmışdır.

Görkəmli səfəvişünas O.Ə.Əfəndiyev Azərbaycan Səfəvilər dövlətinin meydana gəlməsinə və bu dövlətin XVI əsr tarixinə həsr etdiyi iki monoqrafiyasında[1; 2] Y.M. Mahmudov Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələrini təqdiq edərkən XVI yüzilliyin əvvəllərində Səfəvilər dövlətinin Avropa ölkələri ilə diplomatik münasibətlərinin tədqiqinə xüsusi fəsil ayırmışdır[3].

Ş.F.Fərzəlibəyli "Azərbaycan və Osmanlı İmperiyası" (XV-XVI əsrlər) adlı əsərində I Şah İsmayılın hakimiyyəti dövründə Səfəvilər dövlətinin Osmanlı İmperiyası ilə münasibətlərini geniş şəkildə tədqiq etmişdir[4].

R.Ə.Ağayev "Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri(XV-XVI əsrlər) adlı monoqrafiyasında[11] I Şah İsmayılın hakimiyyəti dövründə Səfəvi-Şeybani qarşılıqlı münasibətlərinin tədqiqinə geniş yer ayırmışdır.

N.S.Musalının I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında) adlı monoqrafiyası[12] Səfəvilər dövlərtinin yaranması və I Şah İsmayılın hakimiyyəti dövrünün araşdırılması üzrə dəyərli tədqiqat əsəridir.

I Şah İsmayılın hakimiyyəti dövründə Səfəvilər dövlətinin xarici siyasətinin tarixşünaslığı da Vətən tarixşünaslığında tədqiqat obyektinə çevrilməyə başlamışdır. T.H.Nəcəfli "Şah İsmayılın Sultan II Bəyazidlə qarşılıqlı münasibətlərinin müasir Türkiyə tarixşünaslığında əksi" adlı məqaləsində Səfəvi-Osmanlı qarşılıqlı əlaqələrinin müasir Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsini araşdırmışdır[10].

Ümumiyyətlə, ingilisdilli tarixşünaslıqda Səfəvilər dövlətinin tarixi Kanada tarixçisi Rocer Seyvori tərəfindən kompleks şəkildə araşdırılmışdır. Seyvori yazdığı "İran Səfəvilərin hakimiyyəti altında" adlı əsərində [17] və bir sıra məqalələrində [18; 19; 20] XVI əsrin I rübündə Səfəvilər dövlətinin xarici siyasət məsələlərinin də tədqiqinə yer ayırmış, bu araşdırmaların nəticəsində elmi dövriyyəyə yeni faktlar gətirmişdir.

I Şah İsmayılın hakimiyyəti dövründə Səfəvilər dövlətinin xarici siyasəti ilə bağlı V.Minorskinin də araşdırmalarını xüsusilə qeyd etmək lazımdır. Onun Mərkəzi Asiya Kral Cəmiyyətinin jurnalında dərc olunmuş "Yaxın Şərq 13, 15 və 17-ci əsrlərdə Qərb siyasətində" [21] məqaləsini buna misal göstərmək olar.

A.H.Morton "Şah İsmayılın ilk illəri Əfzəl əl-Təvarix və digər əsərlərdə" adlı məqaləsində bizi maraqlandıran mövzu ilə bağlı məsələlərə toxunmuşdur[22].

Endryü Nyumanın 2006-cı ildə nəşr olunmuş "Səfəvi İranı" adlı əsərində mövzumuzun araşdırılması baxımından maraqlı mülahizələrə rast gəlinir[23].

Ümumiləşdirilmiş əsərlər içərisində, "İranın Kembric tarixi"nin 6-cı cildində Səfəvilər dövlətinin tarixinin müxtəlif məsələlərinə dair araşdırmalar yer almışdır. Həmin cildin H.R.Röemer tərəfindən yazılmış "Səfəvi dövrü" adlı fəsli[24] və L.Lokartın müəllifi olduğu "1350-1736-cı illərdə İranın Avropa ölkələri ilə əlaqələri" [25] adlı fəsli Səfəvilər dövlətinin tarixinin müxtəlif məsələləri ilə bərabər,

xarici siyasəti də tədqiq olunmuşdur.

Səfəvilər dövlətinin yaranması ilə təxminən eyni vaxtda Orta Asiyada Şeybanilər dövlətinin yüksəlişi müşahidə olunurdu. 1500-1504-cü illərdə Orta Asiyanı ələ keçirmiş Şeybani xan Xorasan Teymurilərini təhdid etməyə başladı [12, 182]. Şeybanilərə qarşı müttəfiq axtarmaq zərurəti hiss edən Xorasanın Teymuri hökmdarı Sultan Hüseyn Bayqara Səfəvilər dövlətinə üz tutmalı oldu.

H.R.Röemer göstərir ki, Bayqaranın ölümündən sonra (911/1506) Xorasanda hərc-mərclik yarandı. Taxt-taca varislik üstündə Bayqaranın iki oğlu arasında yaranmış mübarizə nəticəsində 1507-ci ildə Herat Şeybanilər tərəfindən ələ keçirildi[24, 217]. Bu hadisədən sonra Şah İsmayıla sığınan Bayqaranın oğlu və varisi Bədiüzzamanın xahişi ilə Şah İsmayıl şərqdə əməliyyatlara başladı[24, 217]. 1510-cu ildə Şah İsmayılın Mərv yaxınlığındakı döyüşdə özbək hökmdarı Məhəmməd Şeybani xanı məğlub etməsi nəticəsində Xorasan vilayəti və Ceyhun çayına qədər uzanan torpaqlar qızılbaşların tabeçiliyi altına keçdi [2, 55].

Seyvori qeyd edir ki, 21 dekabr 1510-cu ildə Şah İsmayıl Sultan Bayqaranın keçmiş paytaxtı Herata daxil oldu və onun ruhuna hörmət əlaməti olaraq fatihə oxudu. [19, 79; 26,160].

R.Ağayev qeyd edir ki, Mərv döyüşündə Şeybaniləri məğlub edən Şah İsmayıl Teymurilərin son nümayəndələrindən olan Zahirəddin Baburun şəxsində Şeybanilərə qarşı yeni müttəfiq əldə etdi[11, 105].

H.R.Röemer qeyd edir ki, Məhəmməd Şeybani xanın məğlubiyyəti şeybanilərin səfəvilər üzərinə olan təhlükəsini aradan qaldırmadı. Mərv döyüşündən 2 il sonra çoxsaylı şeybani ordusu Xorasandakı səfəvi qoşunları üzərinə hücum etdi[24, 217].

Nəcm-i Saninin başçılığı ilə Xorasana göndərilən səfəvi qoşunu 12 noyabr 1512-ci ildə baş vermiş həlledici döyüşdə məğlubiyyətə uğradı[24, 217]. Beləliklə, 1513-cü ilin əvvəlində Xorasan yenidən özbəklərin əlinə keçdi. H.R.Röemer qeyd edir ki, 1513-cü ilin baharında Xorasana gələn Şah İsmayıl heç bir müqavimətə rast gəlmədən Xorasanı özbəklərdən geri aldı[24, 217].

Səfəvilər dövlətinin xarici siyasətinin mühüm məsələsi qərb qonşusu qüdrətli Osmanlı imperiyası ilə münasibətlərin qurulması idi. Kiçik Asiya şiələrinin Osmanlı sultanı və vilayət hakimləri tərəfindən təqib edilməsi Şah İsmayılın diqqətindən yayınmadı. O, şiəiliyin daha da genişləndirilməsi üçün hətta Kiçik Asiya şiələrinin İran və Azərbaycana köçürülməsinə cəhd etdi. Lakin bu xüsusda onun II Bayazidə yazdığı h. 908 (m. 1502/03)-ci il tarixli məktubuna sultan tərəfindən heç bir cavab verilmədi. [4, 65].

Səfəvilərlə Osmanlılar arasında münasibətlər Şah İsmayılın 913/1507-ci ildə Osmanlıların təsir dairəsində olan Zülqədəroğlu Əlaüddövləyə qarşı hərbi yürüşü səbəbilə pisləşdi[24, 220]. Səfəvi-Osmanlı münasibətlərini gərginləşdirən digər qüvvələr də mövcud idi. Sultan Bəyazidin oğlu, Trabzon valisi Səlim Səfəvilərə qarşı sərt siyasətin tərəfdarı idi[12, 233]. Anadolu şiələrinin Osmanlı hakimləri tərəfindən sıxışdırılması onların tez-tez üsyan etmələrinə səbəb olurdu. 1511-ci ildə Antalya və onun ətraflarında başlanmış böyük üsyana təkəli Qarabıyıkoğlu başçılıq edirdi. Bu üsyan mənbələrdə Şahqulu Baba Təkəli üsyanı kimi məşhurdur[3, 147].

C.Valş göstərir ki, Anadolu şiələrinin üsyanları onların Osmanlı imperiyası hərbi aristokratiyası şəraitində tuta bilmələri qeyri-mümkün olan mənsəblərə sahib olduqları və qızılbaş ordusunda fəal rol oynadıqları Səfəvi ərazilərinə olan köçləri xarakterində idi [27, 207].

M.Kunt göstərir ki, "1510-cu ilin sonuna doğru Osmanlı hökuməti Anadolunu itirmək təhlükəsi içərisində idi"[28, 195]. Belə bir vəziyyətdə sərkərdələrinin təzyiqi ilə Sultan Bəyazid oğlu Səlimin xeyrinə taxt-tacdan əl çəkdi və 7 Səfər 918/24 aprel 1512-ci ildə Səlim hakimiyyətə gəldi[24, 222].

H.R.Röemer qeyd edir ki, qardaşları üzərində hakimiyyət uğrunda mübarizədən qalib çıxan Səlim Anadolu qızılbaşlarına divan tutulması haqqında göstəriş verdi[24, 222]. Anadolu qızılbaşları ilə Səfəvilər arasında əlaqələri kəsmək və imperiyasının şərqində öz hakimiyyətini möhkəmlətmək məqsədilə, 1514-cü il martın 20-də Sultan Səlim Səfəvi dövlətinə qarşı səfərə çıxdı. 23 avqust 1514-cü ildə Çaldıran düzündə baş vermiş döyüş nəticəsində səfəvilər məğlubiyyətə uğradıldı[23, 21; 24, 224]

Maykl C. MakKaffri qeyd edir ki, "osmanlılar üçün bu yürüşün mühüm nəticələri müəyyən müddətə səfəvilərin Anadoludakı rolunun zəiflədilməsi, Diyarbəkrin ələ keçirilməsi və Zülqədəroğulları hakimliyinin Osmanlı imperiyasının ərazisinə qatılması idi"[29, 658].

Səfəvilər dövlətinin meydana gəlməsi və güclənməsi digər qonşuları olan Misir Məmlüklərini də narahat edirdi. İslam dünyasında birinciliyi saxlamaq üçün Misir sultanları eyni dərəcədə həm Osmanlı İmperiyasının, həm də Səfəvilər dövlətinin qüvvətlənməsini istəmirdilər. Buna görə də, Məmlük sultanı Əşrəf Qansu Quri Səfəvi – Osmanlı münasibətlərində müşahidəçi mövqe tutdu[3,154]. Venesiya səyyahı C.Anciolellonun verdiyi məlumatlara görə, Çaldıran vuruşmasından sonra, 1514-cü ilin dekabrında Səfəvilərlə Məmlüklər arasında Osmanlılara qarşı hərbi ittifaq yaradılsa da, tezliklə Qansu Qurinin müttəfiqlik şərtərinə etinasızlığı ucbatından bu koalisiya pozuldu[30, 121-122].

V.V.Klifford isə qeyd edir ki, ilkin strateji danışıqlara baxmayaraq, Məmlük-Səfəvi diplomatiyası son nəticədə hər iki dövlətin üstünlük əldə etmək uğrunda cəhdləri səbəbindən uğursuzluğa uğradı[31, 274]. 1516-cı ilin avqustun 24-də - Çaldıran vuruşmasından düz iki il sonra Hələbin şimalında baş vermiş Mərcdabik ("Dabik düzü") vuruşmasında Misir sultanı Əşrəf Qansu Qurinin ordusu darmadağın edildi [32, 308; 3, 156]. 1517-ci ilin aprelində Qahirənin alınması ilə Məmlük sultanlığının ərazisi Osmanlı imperiyasına qatıldı.

I Şah İsmayıl Cənubi Qafqaz ölkələrində, xüsusilə də Gürcüstanda öz mövqelərini möhkəmləndirmək üçün ciddi tədbirlər gördü. Gürcüstan XVI əsrin əvvəlində bir-birilə düşmənçilik edən bir sıra müstəqil çarlıqlara parçalanmışdı. [2, 64]. Gürcülər Səfəvilərə bac-xərac ödəsələr də, imkan yarandıqda tabesizlik nümayiş etdirirdilər. 1516-21 – ci llərdə Div Sultan Rumlunun başçılıq etdiyi qızılbaşların yürüşləri nəticəsində Gürcüstanın ərazisinin əksəriyyəti Səfəvilər dövlətinə tabe edildi.

Səfəvi dövlətinin meydana gəlməsi Qərbi Avropa dövlətləri içərisində daha tez Papalıq və Venetsiyanın diqqətini cəlb edirdi. 1502-1503-cü illərdə Venetsiya senatında Kipli Nikolo Priulinin, Konstantino Laskarinin və Moriati di Erzerum adlı elçilərin səfəvilər barədə hesabatları dinlənildi [3, 142]. Əvvəlki dövlərdə olduğu kimi, Şah İsmayılın Çaldıran döyüşü ərəfəsində də Venesiya Respublikasını Osmanlı imperiyasına qarşı qaldırmaq planı baş tutmadı. Şərq siyasətinə gəldikdə isə, Venesiya Respublikası bu zaman Səfəvi dövlətinin əli ilə Osmanlı imperiyasının zəiflədilməsinə çalışırdı[3, 148].

Şah İsmayıl Çaldıran döyüşü ərəfəsində Osmanlı imperiyasına qarşı Portuqaliya ilə də hərbi ittifaq bağlamağa və İran körfəzi vasitəsilə bu dövlətdən odlu silahlar, artilleriya mütəxəssisləri almağa cəhd göstərdi. 1507-ci ilin oktyabrında Alfonsu d' Albukerkenin başçılıq etdiyi Portuqaliya donanması Hörmüzə hücum etdi.

A.T.Vilson qeyd edir ki, H.913 (1507)-cü ildə, Hörmüzün Portuqaliya tərəfindən işğal olunmasından sonra bağlanılan sülh



müqaviləsinə görə, Hörmüz padşahı Portuqaliya kralına 5 min sekvin məbləğində təzminat və həmçinin hər il 15 min sekvin məbləğində xərac ödəməli idi [33, 116]. Bu zaman illik xəracı almaq üçün I Şah İsmayıl tərəfindən göndərilmiş elçi gəlmişdi. L.Lokart qeyd edir ki, Portuqaliya kontr-admiralı Albukerke Şah İsmayıla cavab olaraq onun elçisinin yanına bir qədər top mərmisi, tüfəng və barıt göndərdi [25, 380].

Portuqaliyalılar Hörmüzdə 1508-ci ilədək qala bildilər. Hörmüzlülərin üsyanı təhlükəsi ilə üzləşən Albukerke oranı tərk etdi. Lakin Portuqaliya admiralı Səfəvi dövlətinin çətin vəziyyətindən İran körfəzində möhkəmlənmək üçün istifadə etdi. Şah İsmayılla danışıqlar aparmaq üçün göndərilmiş Portuqaliya səfirləri Rui Qomez (1509) və Miquel Ferreyranın (1513) səfərləri heç bir real nəticə vermədi.

Portuqaliya admiralı Səfəvilərin Çaldırandakı məğlubiyyətindən istifadə edərək, 1515-ci ilin fevralında qüvvətli hərbi-dəniz qüvvələrinin başında yenidən Hörmüzə hücum etdi. Bu dəfə Hörmüz qəti olaraq Portuqaliya müstəmləkə imperiyasının tərkibinə qatıldı [23, 21]. Hörmüzün alınmasından sonra orada Sah İsmayılın elçisi ilə aparılan danışıqlar nəticəsində hər iki dövlət arasında müqavilə imzalandı.

A.T.Vilson qeyd edir ki, həmin müqaviləyə görə, Səfəvilər Hörmüzün əmirini Portuqaliya taxt-tacının vassalı kimi tanıdılar, bunun əvəzində portuqaliyalılar səfəvilərə Bəhreyn adalarını Ərəb sülaləsi olan Cəbridlərdən almağa kömək etməli, Osmanlılara qarşı ittifaqa girməli və Səfəvi hökumətinə Məkrandakı Bəluçi tayfasının üsyanını yatırmağa yardım etməli idilər[33, 121; 25, 381].

Y.M.Mahmudov qeyd edir ki, Çaldıran döyüşündən sonra Səfəvi dövlətinin Portuqaliya ilə yaxınlaşması, müvafiq olaraq, Səfəvi-Venesiya münasibətlərinin zəifləməsinə səbəb oldu. Venesiya Respublikası XVI əsrin əvvəllərindən başlayaraq həmin əsrin 30-cu illərinin sonuna qədər Osmanlı imperiyasına qarşı hər hansı hərbi-siyasi qruplaşmada iştirak etmədi[3, 163].

Seyvori qeyd edir ki, Çaldıran döyüşündən sonra Şah İsmayıl iki cəbhədə Osmanlı İmperiyasına qarşı müharibəyə başlamaq üçün Qərbi Avropa dövlətləri ilə müttəfiqlik qurmaqda daha maraqlı idi[20, 186]. O, bu dövrdə Rodos səlibçi dövləti ilə də əlaqələri genişləndirdi. O, 1515-ci il, oktyabrın 1-i tarixli məktubunda Rodos İoannçılar ordeninin başçısını onu qərbdən Osmanlı İmperiyasına qarşı müharibəyə başlamağa çağırdı[3, 163].

H.921-22/M.1516-cı ildə Şah İsmayıl Macarıstanın kralı II Luisin elçisi, maroni keşişi olan Frater Peteri qəbul etdi[20, 187]. Bu zaman Almaniya kralı V Karlın elçisi də Səfəvi sarayına gəlmişdi. 1523-cü ilin avqustunda Şah İsmayıl Almaniya kralı V Karla məktub göndərdi[3, 165]. L.Lokart qeyd edir ki, latın dilində yazlımış bu məktubda Şah İsmayıl Avropa dövlətlərinin öz güclərini osmanlılara qarşı mübarizə məqsədilə birləşdirmək əvəzinə öz aralarında münaqişə etmələrindən təəccübləndiyini bildirmişdi[25, 382; 1, 140-142].

Lakin Şah İsmayılın gözlədiyinin əksinə olaraq, Almaniya imperatoru ona tezliklə, həm də konkret cavab vermədi. Çünki bu zaman Almaniya imperiyası ilə Fransa arasında İtaliyanı ələ keçirmək uğrunda uzun sürən müharibələr (1494-1559) davam etməkdə idi. L.Lokart qeyd edir ki, V Karl yalnız 1525-ci ilin avqustun 25-də Şah İsmayılın məktubuna cavab yazdı. Məktubda Almaniya imperiyasının da Osmanlı İmperiyasına qarşı birgə mübarizəyə qoşulacağı qeyd olunurdu[1, 142].

Beləliklə, öz sələfi Ağaqoyunlular kimi, I Şah İsmayılın hakimiyyəti dövründə Səfəvilər dövlətinin xarici siyasətinin əsas məsələsi Osmanlı İmperiyasının qüdrətinin zəiflədilməsi təşkil edirdi. Bu məqsədlə, səfəvilərin Qərbi Avropa dövlətləri ilə Osmanlı İmperiyasına qarşı vahid cəbhədə birləşmək cəhdləri baş tutmadı.

ƏDƏBİYYAT

1. Эфендиев О.А. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Баку: Изд-во АН Азерб. ССР, 1961.

2. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı,"Şərq-Qərb",2007.

3. Mahmudov Y.M. Azərbaycan diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV – XVII yüzilliklər). Bakı: Azərbaycan diplomatiyası, 1996.

4. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı, 1995.

5. Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı: Azərnəşr, 1997..

6. Məmmədova Ş.K. «Xülasət ət-təvarix» Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: Elm, 1991.

7. Məmmədov S.A. Azərbaycan XV – XVIII əsrin birinci yarısında. Bakı, 1981.

8. Bayramlı Z.H. Azərbaycan Səfəvilər dövlətinin quruluşu və idarə sistemi. Bakı: ADPU nəşriyyatı, 2006.

9. Qasımov X.S. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, Aspoliqraf, 2008.

10. Nəcəfli T.H. "Şah İsmayılın Sultan II Bəyazidlə qarşılıqlı münasibətlərinin müasir Türkiyə tarixşünaslığında əksi" //AMEA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası) Bakı, 2007, № 8, s. 33-53.

11. Ağayev R.Ə. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər). Bakı, Kür, 2004.

12. Musalı N.S. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı: "Elm və təhsil", 2011.

13. Cəfiyev T.R. Azərbaycan feodal dövlətləri XV-XVI əsrin I rübündə (Xoca Sədəddin Əfəndinin "Tacüt-təvarix" əsəri əsasında). Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: Mars-print, 2007.

14. Əzimli D.M. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı – XVII əsrin I yarısı). Tarix üzrə fəlsəfə doktoru almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: AMEA TİKM, 2010

15. Ağalarov M.Z. XVI əsrdə Azərbaycan Səfəvilər dövlətinin beynəlxalq münasibətlər sistemində yeri və rolu // "Renessans" (rüblük elmi-kütləvi jurnal), № 3-4, Bakı, 2008, s.115-118.

16. Сейфеддини М.А., Байрамов Р.Ф. Денежное обращение и монетное дело в Азербайджане XVI-XIX век / Нумизматика Азербайджана в 5 т. т.V. Баку: Элм, 2000,

17. Savory R.M. Iran under the Safavids. Cambridge: Cambridge University Press, 1980.

18. Savory R.M. The principal offices of the Safawid State during the reign of Ismail I (907-30/1501-24) // BSOAS, 1960, vol. XXIII, p.91-105

19. Savory R.M. The consolidation of Safawid power in Persia // Der Islam, 1965, band 41, p.71-94

20. Savory R.M. "İsmail I ". Encylopaedia of Islam.Vol.10, ed. by E. Van Donzel, B. Lewis, and Ch. Pellat. Leiden, Brill, 1997. pp. 186-187.

21. V. Minorsky. "The Middle East in Western politics in the 13th, 15 th and 17th centuries",JRCAS XXVII (1940), 427-61.

22. Morton, A., 'The Early Years of Shah Ismail in the Afzal al-Tavarikh and Elsewhere', in Melville, ed., Safavid Persia, 27–51. Melville, C., ed., Safavid Persia, The History and Politics of an Islamic Society, London/New York, 1996.

23. A.J.Newman. Safavid Iran. Rebirth of a Persian Empire.London-New York 2006.

24. Roemer, Hans R."The Safavid Period", The Cambridge History of Iran, Vol.6, ed. Peter Jackson and Laurence Lockhart, 2006.

25. Laurence Lockhart. "European contacts with Persia, 1350-1736" The Cambridge History of Iran, Vol.6, ed. Peter Jackson and Laurence Lockhart, 2006.

26. Percy Sykes, A History of Persia, Vol-II, London: Routledge & Kegan Paul, 1969.

27. Walsh J.R. The historiography of Ottoman-Safavid relations in the sixteenth and seventeenth centuries / Historians of the Middle East. Edit. by Bernard Lewis and P.M. Holt. London, Oxford University Press, 1962, p.197-211

28. Kunt Metin. Ottomans and Safavids. Chapter Ten. States, Statescraft, and Societies, 1500-1800. pp. 191-206. A Companion to the History of the Middle East. Edited by Youssef M. Choueiri Blackwell Publishing Ltd , Oxford, 2005.

29. Michael J. McCaffrey, "Čālderān", Encyclopaedia Iranica (EIr), V, p. 656-658.

30. Discourse of Messer Giovan Battista Ramusio on the writings of Giovan Mario Angiolello, etc. / A narrative of Italian travels in Persia, in the fifteenth and sixteenth centuries. vol.49. Translated and edited by Charles Grey. Hakluyt Society, London: 1873, p. 67-138.

31. W.W.Clifford. "Some Observations on the Course of Mamluk-Safavi Relations (1502-1516/908-922)": I&II, Der Islam 70 no.2 (1994):272-74.

32. Wan Kamal Mujani. The Expenses of Mamluk Army during the Burji Period Advances in Natural and Applied Sciences, 6(3): 303-309, 2012.

33. Wilson A. The Persian Gulf. An historical sketch from the earliest times to the beginning of the 20th century. Oxford: Clarendon, 1928.

Açar sözlər: *Səfəvilər, Osmanlı imperiyası, tarixşünaslıq, I Şah İsmayıl, I Sultan Səlim.*

Ключевые слова:*Сефевиды, Османская империя, историография, Шах Исмаил I, Султан Селим I.*

Key Words: *Safavids, Ottoman Empire, historiography, Shah Ismail I, Sultan Selim I.*

Ahmad Guliyev

The foreign relations of Azerbaijani Safavid state during the reign of Shah Ismail I in English-speaking historiography

SUMMARY

There are still remain interesting and important problems connected with the history of Safavid state. This article aims to evaluate the level of study of the foreign relations of Azerbaijani Safavid state during the reign of Shah Ismail in English-speaking historiagraphy.

Still there appeared valuable contribution by English speaking historians to the Safavid history. Before all, V.Minorsky's groundbreaking works must be mentioned. Among his many other works on Safavid history, his translation of Tadhkirat al - muluk, as well as several articles on Safavid history should be emphasized. R Savory's monograph on the history of Safavid state deservs special attention. In his study, Savory studied the Safavid history based on primary sources of that period and he was able to shed light on some obscure parts of Safavid period.

Ахмед Кулиев

Внешняя политика государства Сефевидов в периоде правления Шаха Исмаила I в англоязычной историографии

РЕЗЮМЕ

В данной статье анализируются степень исследований внешнего политики государства Сефевидов в периоде правления Шаха Исмаила I в англоязычной историографии. Прежде всего, следует назвать исследовательские работы Владимира Минорского, автора перевода «Тазкират ал мулук» и и ряд статей об истории Сефевидов. Большой интерес для нас представляет фундаментальная монография Р. Сейвори, в которой автор на основе первоисточников исследуется история государства Сефевидов.

International Relations

THE POLICY OF RUSSIA AND THE EU TOWARDS THE SOUTH CAUCASUS IN THE POST-SOVIET ERA

AYSEL RAMAZANZADE
Istanbul Aydin University, Turkey
Political Sciences and International Relations,
Social Sciences Institute

Introduction

Firstly, in order to research EU and Russia political approaches on South Caucasus area, it should be analyzed political situation during USSR period; this period coincided with former president Gorbachev, who had been ruled the USSR from 1985. He followed different policy way during his presidency to control the region that brought the end of the Soviet. Gorbachev selected the strategy of the nearing to the West to do Soviets more democratic, but he didn't know that was the end of communist system. (Hasanov, 1998:194-198)

So this attempt resulted lots of cooperation and agreements between EU and Russia.

The order of the world had begun to change with some big factor such as collapse of Berlin wall, Warsaw treaty and fall of communism. It was created new term a 'globalization' that gives the states more independence without and border between them. EU began to strongly support this action according to its purpose of organization. (Iskenderov, 2009:1)

EU was far from the Eastern countries more than the West due to some reasons, however continued to support all of uprising movement to get democracy. Maybe this situation came to its business. Because of the factor of Russia, EU did not take advantage of energy sources of SC. Against EU's action Russia applied the TACIS (Technical Assistance to Commonwealth of Independent States) program to support and assist the independent state during democrat ions process.

In the post-Soviet era, in the 19th century South Caucasian's three states (Armenia, Azerbaijan and Georgia) already gained the independency and this situation created a rival background to start competition between the European Union (EU) and the Russian Federation (RF) (Lurea, 2014/2015:1). These powerful players in the policy arena did not look with favor on against political competition in the South Caucasia region. If we contrast both the Russia and the EU, Russia is an internal actor in the South Caucasian location according to EU's power and also has been authority within South Caucasian three states, is convenient to get more competence and reach to real its purposes. The collision of competition among both power actors in the territory increase rapidly year by year and both actors want to maintain the rivalry whereon the South Caucasus.

If we look at the geopolitical location of the South Caucasus, it is

located in an important critical region, which combines the West with the East and binding the federation of the Russia with the Middle East area. Therefore in the region had been a conflict place for outer actors such as RF and EU during the history of all times.

After 1991 South Caucasus's importance began to enhance for other powerful states and organizations. From time to time EU and RF's authorities could be changeable over the region but most of the time the RF has been a first power for the South Caucasus region's countries. For instance during the Soviet period, RF was eventual management organ that all of powers are collected to rule the people living in the region. (Cornell, 2001:1)

These states had been under the RF's rule for years, Azerbaijan, Georgia and Armenia were an integral a component of the Russia only 1918 and 1921 year we're not including to this. That time these states were independent states but it did not long. So during in the 1918-1921 years had less intercourses EU or Western states with the area of the Caucasus because of the domination of soviet Russia in the district. (Şafak, 2015:8)

With the collapse of the Soviet Union, Azerbaijan, Georgia and Armenia, which gained independence in the Caucasus, have become effective actors in the new period. In the Caucasus, where regional powers and large non-regional states are particularly interested in rich energy resources, it is desirable to try different policy alternatives from power balance politics to regional cooperation, both to consolidate their independence and to protect their interests. However, states in the South Caucasus according to ethnic-based problems and their power balance policies, against threating the territorial integrity of the countries, have not been able to cooperate for effective and regional integration. Azerbaijan and Georgia faced a serious threat against to their territorial integrity, which negatively affected their internal political stability. (Kasım, 2015:52-53)

Russia and the South Caucasus

Russia has always been engaged to the region through centuries. At the end of the cold war, Russia became economically weak, lost both ideological context and its political system and separated into 15 different independent states. It lost its influence even on neighboring countries and domestic stability of Russia became under danger.

Russian policy in the South Caucasus is often criticized for the lack of clear goals, consistency, unpredictability and inflexibility. However, the analysis of this policy over the past twenty years since the collapse of the Soviet Union shows that most of these accusations are in fact lacking sufficient grounds. Despite the seeming inconsistency, Russia's policy was clearly focused on preserving its role as a leading power in the region. At the same time, the main tasks were to counter the threats to the Russian Federation's security coming from the South and to make sure Russia's dominance on the routes of energy transit from Central Asia and the Middle East to Europe. But these tasks carry out in different periods had built in different ways, depending on the rapidly changing realities of the South Caucasus. Russian foreign policy implements in this region, it seems that specific principles have developed. (Rıabov, 2005)

In order to establish an influence in the region, Russia was applied strategy of the "divide et empera" (divide and rule) and now still using this strategy towards the nations, who had been under the Soviet Union? Russia had done some activity in the region to keep its impact and to provide mediation and peace to ensure the importance of the role. But, the power structure of the countries of the region, which Russia can now carry out in the Caucasus, and to make some changes in power distribution. (Gaddis, 1992:21-38)

Since the collapse of the Soviet Union, threats to ethnic conflicts and territorial integrity of regional countries have emerged as the most important factors of instability. It has increased. On the other hand, it is necessary to re-establish the former dominion in the region to interfere with other non-regional forces, Russia as an important actor who influences and thus determines regional security showed itself.

Facing economic, political and social problems after the declaration of independence, Armenia has tried to further develop its relations with Russia. Russia has supported Armenia economically, politically and militarily, which defended its interests in the Caucasus. Georgia and Azerbaijan have tried to integrate into the international political and economic system, giving Russia the struggle to get rid of the military and political influence. Armenia, on the other hand, defended the interests of RF.

Meanwhile, some governments, heads of state and research centers in the South stability pact projects in the hope that the Caucasus will provide lasting peace and stability they suggested. But the factors that prevent such proposals from succeeding are still is not available. Relations between Russia, Georgia, Azerbaijan and Armenia determining the balance of power and interests and the non-regional forces towards the South Caucasus long-term stability in the Southern Caucasus as long as the Russia's ambitions continue, it will be quite difficult.

The EU and South Caucasus

İn terms of energy efficiency the region attracted EU's attention which is very important issue for all of the developing states. Therefore it is caused some discusses and interest on the South Caucasus area due to variety of the energy resources. İn the region petroleum and gas reserves keep in the collaboration mood and closer with other important EU's member states. That's why SC had exposed significant changes in the past years coming decade the region will experience major changes coming because of large oil and gas opportunities that is a big tool for the SC's states to increase their economic level and place among the other regions powerful states like Turkey, Iran. İt is too substantial factor for to be dominant actor inside of influential region's states. (Ibrahimov, 2008:76-77)

Of course it is certain that EU has many causes to get the control over the South Caucasus region.

Caucasus is located in the suitable geographic place, where has very important status, according to the geographical status the region is situated on the cross roads, this control the East-West carrying trade ways. These advantages are made the Caucasus is very major area.

Moreover, in this region's states, in advance being powerless and undecided, are just able of supply safety thanks to cooperation together with EU partners in the common thoughts against terrorism, trafficking in human being, gun etc. ın order to keep peace on the world. (Şahbazov, 2015:187)

The Caucasus become same boundaries with effective territorial potential states, for instances Russia and Iran, who are in the central point of the transnational interest. Turkey's existence, who is member of NATO and a nominee to EU participation, has some significance for EU (Kasım 2015, p. 52). We can say The South Caucasus lays a strategic bridge betwixt the ethos and human development and supporter of enlightenment onwards to the East and West, carries little importance for EU, than as an energy maker or military center.

(Gaddis, 1991:102-122)

Thus, in the circumstances, the definition of the EU connections on the states of South Caucasus continues on the other side of the unbiased defined in the ENP planned official papers as lengthening "the stability, security and well-being of all concerned". (European Neighborhood Policy Strategy Paper, 12.5.2004)

In investigate of this kind of a way, has a requirement to analysis the previous and the present links of the EU with the three state of the South Caucasus and their impact on the growing process inside of the states.

SC's state Georgia and Azerbaijan are enthusiastic to combine with the West. Georgia's former leader and Prime Minister Zurab Zhvanianihai said in his interview that, Georgia as a state would like to join the EU, there are various occasion to come into the EU (Demirag, 2004:104). Also, expressed his thoughts with these words "Georgia still has time to get membership from EU", Azerbaijan and Georgia cannot make the demands of agreement with the West Karabakh issues of the Karabakh and South Ossetia without reaching results, separately.

Russia-EU Relations in the Post-Soviet Era

The end of the Cold War and the dissolution of the Soviet Union in 1992, in other words the 'old world order' (bipolar system formed by two separate super powers with capitalist and communist views such as the US and the USSR), which had supported by two sides of the East-West thoughts, was replaced by 'New World Order'. (Kozirev, 2000:7)

With the disintegration of the USSR, disarmament and military, the influence of the EU on the European states had diminished and the NATO created alliance against the Soviet threat and Middle Eastern regions as threatening areas.

The relationship between EU and RF carries great importance not only for the two sides, but also for all countries. Particularly Central and Eastern Europe countries' negative attitudes towards RF have created major problems in promoting bilateral relations. This leads to many regional countries' conflicts in the Ukraine, Moldova, Belarus, and South Caucasus. The elimination of these problems will benefit the EU and the RF as well as the regional countries. (Suny, 1991:85)

It is necessary to evaluate these bilateral relations according to the neoliberal point of view of international relations. The relation between European Union and Russian Federation has enormous importance from both the political and economic points. Especially from a political approach, some necessary concepts between RF and EU are exist such as the economical and the environmental, issues of freedom, security and justice, external security including crisis management and preventing the spread of weapons, cooperation in areas research and education, are basis of this partnership.

Twenty eight years ago, in 1990, South Caucasus states- Georgia, Armenia and Azerbaijan reached sovereignty departed from the Soviet Union. While this process is being continued, chaos environment emerged among the states in the area. Since post-soviet era, region has faced with the struggles or conflicts of interest.

The area of economy is one of the major areas where cooperation continuously between EU and RF's relations. Energy issue has necessity among economical trades. EU's members states are the most important partner of RF providing and the increasing natural gas and petroleum needs.

In the European Union there are few countries that have such serious internal contradiction as Russia. The European Union and Russian Federation differ so much in the main provisions of the law and in the principles of international politics that their relations almost inevitably seem problematic. The EU's policy towards the Russian Federation should be based on a sober understanding of its own interests and credible assessment of the priorities of Russia's domestic and foreign policy, taking into account the long-term prospects for cooperation and interaction on the basis of common interests. (İbrahimov, 2008:76-77)

In politics, long-term interests are easier to formulate than implementing it. The interests of the European Union and Russia in the sphere of security and energy are of great political importance,

however does not necessarily lead to a harmonious development of relations. Russia and the European Union largely depend on each other and cooperate in the long term. But the current policy of cooperation leads to an asymmetry in relations, which creates anxiety and discomfort, not security and harmony. It follows from the fundamentally different nature of Russia and the European Union as subjects of world politics, as well as their fundamentally different positions on energy, security and human rights issues. Robert Kagan believes that "Russia and the EU are geographical neighbors. However, they live geopolitically in different centuries". (Kagan, 2008)

The European Union is trying to overcome this gulf. However, if his original strategy of the 1990s, called "transformation through integration", was quite successful, today it has reached its limits. The European Union and the Russian Federation have changed significantly since the time when Brussels developed its strategy towards Russia. (Demirağ, 2004-2005:95)

The EU should focus on effectively combating conflicts and overcoming uncertainty, rather than demanding consensus. Be formed the difference between the expansive strategy of the European Union and Russia's approach – "now we do not necessarily have to be better" ("we do not have to like everybody"). We argue that Russia's strategy may be less ambitious, less comprehensive, less politically "institutionalized", but more productive. (Marchetti, 2015)

The EU's strategy towards Russia, as well as the current position of the Russian Federation towards Europe, is mainly based on the historical context, indicating both continuity and sudden changes in the relationship between Europe and Russia. We did not seek to give a full account of the current state of relations between Russia and the European Union.

Conclusion

Demise of Soviet Union created new opportunities and challenges in South Caucasus. As the world entered a new era, new international order has been formed, energy became more important issue at the global level and new balance of power formed at the place of former Soviet Union. In this environment, geopolitical importance of South Caucasus countries increased sharply, especially Azerbaijan on the energy context.

Currently, EU relationship with South Caucasus countries is very complex. Namely, relations with Georgia are on progress. Recently, EU removed visa requirements from Georgian citizens which have been a next part of improvement of bilateral relationship. As can be seen, Georgia sacrificed its territorial integrity to be closer to EU. Regarding, Armenian relations with EU, as can be seen from above-mentioned facts, Armenia is becoming is most loyal partner of Russia and increases it's economic, political and security dependency from Russia.

REFERENCES

1. Cornell, S 2001, "Small Nations and Great Powers: A Study of Ethno political Conflict in the Caucasus, London, Routledge Curzon Caucasus World, pp. 1-2.

2. Demirağ, Y 2004-2005, "EU policy towards South Caucasus and Turkey Perceptions", pp. 92-95

3. European Neighborhood Policy Strategy Paper, Brussels, 12.5.2004, 373 final

4. Gaddis, J, L 1991,"Towards the post-Cold war world" Foreign Affairs /70,2, pp. 102-122

5. Gaddis, J, L 1992, "The Cold War, the Long Peace, and the Future", Michael J. Hogan, the End of the Cold War: Its Meaning and Implications (Cambridge: Cambridge University Press): 21-38.

6. Hasanov, A 1998, "Azerbaycan'ın Xarici Siyaseti: Avropa Dövletleri ve ABŞ (1991–1996)". Baku: Baku Dovlet Nesriyyati

7. İskenderov, A 2009, " EU Polıcy Towards The South Caucasus", Yüksek lisans tezi,p.1

8. Ibrahimov, R 2008, "Avrupa Birliği Güney Kafkasya Devletleri İlişkileri", Ankara, pp. 76-77, pp. 105-110

9. Kasım, K 2015, "Güney Kafkasya Cumhuriyyetlerinin Dış Politikası" ,Yeni Türkiye dergisi /75, pp. 52-53

10. Kozirev, A 2000, "The senselessness of the multipolar world", Moskovskiy Novosti, p. 7

11. Laurea, D, T 2014/ 2015, "The Russia Federation and South Caucasus: attempts to control an increasingly strategic region", p.1

12. Marchetti, A 2015, "Widening without Enlarging the ENP and SC, European stability İnitiative"

13. Riabov, A 2005, "Russıan polıcy ın the south caucasusa", Visiting Fellow The Carnegie Moscow Center http://carnegie.ru/experts/?fa=372

14. Şafak, A 2015, "Kurt 2015" pp. 8-15, Küsena yayınları.

15. Şahbazov, R 2015, "Yeni küresel sistemde Avrupa Birliği ve Güney Kafkasya" Eko Avrasya Yayınları, Ankara, p.187

16. Suny, R, G 1991, "The Revenge of the Past Nationalism, Revolution and the Collapse of the Soviet Union", Stanford, Stanford University Press, p. 85

Açar sözlər: *Rusiya,Avropa Birliyi, Cənubi Qafqaz,Sovet sonrası dönəm*

Ключевые слова: *Россия, Европейский Союз, Южный Кавказ, постсоветский период*

Key words: *Russia Federation, European Union, South Caucasus, post-soviet period*

XÜLASƏ

Post-Sovet dönəmində Rusiya və Avropa Birliyinin Cənubi Qafqaz siyasəti

Aysel Ramazanzade

Annotasiya. Cənubi Qafqaz Avropa Birliyi və Rusiya üçün mühüm rol oynayır. Cənubi Qafqazda rəqabətin səbəbləri çoxdur. Bu səbəblər yer, coğrafi mövqe, enerji məsələsi, sosial status və sairədir. Bu məqalənin əsas məqsədi «Niyə Avropa Birliyi və Rusiya region üzərində rəqabət aparır» sualını cavablandırmaqdır. Aparmış olduğum tədqiqatdakeçmiş və indiki vaxt çərçivəsinde ədəbiyyat və arxiv araşdırmalarını ederek bu suala cavab tapmağa çalışmışam. Rusiya Federasiyasının və Avropa Birliyinin Cənubi Qafqaz siyasətini ortaya çıxarmaq üçün: Türk, İngilis və Rus mənbələri istifadə edilmişdir.

РЕЗЮМЕ

Политика России и ЕС на Южном Кавказе в Постсоветской эре

Айсель Рамазанзаде

Аннотация. Южный Кавказ играет важную роль для ЕС и России. Существует множество причин для конкуренции на Южном Кавказе. Этими причинами являются местоположения, географического положения, проблемы энергетики, интереса, социального статуса и так далее. Основная цель этой статьи - найти ответ навопрос «Почему ЕС и Российская Федерация конкурируют за регион»? Тема исследования охватывает прошлое и настоящее время, обзор литературы и архивные исследования в постсоветский период. Чтобы выявить политику Южного Кавказа в России и ЕС, использовались турецкие, английские и российские источники.

Tarix

BƏXTİYAR NƏBİYEV
Tarix üzrə fəlsəfə doktoru

NAXÇIVANIN VƏ DAĞLIQ QARABAĞIN STATUSUNUN TARİXİ MÜƏYYƏNLƏŞDİRİLMƏSİ MƏSƏLƏSİNİN GEOSİYASİ NƏTİCƏLƏRİ

NAXÇIVANIN VƏ DAGLIQ QARABAGIN STATUS MƏSƏLƏSİNİN GEOSİYASİ DƏYƏRLƏNDİRİLMƏSİNİN ELMİ ZƏRURİLİYİ

- Naxçıvan Muxtar Respublikası, Azərbaycanın ayrılmaz hissəsi olmaqla, XX əsrdə inkişaf yolu keçərək Azərbaycan xalqının milli azadlıq və dövlət müstəqilliyi uğrunda mübarizəsində fəal və mühüm rol oynamışdır. Naxçıvan, böyük geosiyasi və strateji əhəmiyyətə malik bir bölgə kimi, tarixi inkişafın bütün mərhələlərdə qonşu və böyük dövlətlərin maraq dairəsində idi. XX əsrin əvvəllərində baş verən ictimai-siyasi proseslər, xüsusilə də Rusiya imperiyasının dağılması, Cənubi Qafqazda müstəqil dövlətlərin formalaşması, Birinci Dünya müharibəsinin nəticələri Azərbaycanın taleyində dərin iz qoymuş və onun tərkib hissəsi olan Naxçıvan ərazisi də bütün bu deyilənlərən təsirlənmişdir. Bir sıra xüsusiyyətlərə görə, Naxçıvan Cənubi Qafqazdakı ictimai-siyasi dəyişikliklərin əsas mərkəzlərindən birinə çevrildi. Naxçıvanda Sovet hakimiyyəti qurulduqdan sonra Ermənistan Naxçıvanın Azərbaycanın tərkib hissəsi olmasına qarşı çıxdı. Ancaq 28 dekabr 1920-ci ildə Ermənistanın İnqilab Komitəsi Naxçıvanı müstəqil Sovet respublikası kimi tanımağa məcbur oldu. Əslində, regionun Azərbaycanın bir hissəsi deyil, müstəqil respublika kimi tanınması Ermənistanın gələcək planlarına xidmət edən bir addım idi. Naxçıvan əhalisinin inadkar mübarizəsi və Türkiyənin hərbi-siyasi, diplomatik səyləri, milli mövqeyimizə dəstək, bu ərazinin Azərbaycandan çıxarılması ilə bağlı ermənilərin bütün planlarını məhv etdi. Naxçıvanı ələ keçirməyə müvəffəq olmayan Ermənistan təəssüf ki, Sovet hakimiyyətinin köməyi ilə digər Azərbaycan torpaqlarını - Zəngəzuru özünə birləşdirdi. Nəticədə, Naxçıvan Respublikası ərazisi Azərbaycan ərazisindən birbaşa quru əlaqədən məhrum olaraq anklav vəziyyətinə düşdü. Ümumiyyətlə, Naxçıvanın muxtariyyəti tarixdə unikal bir hadisədir. Digər muxtar qurumlardan fərqli olaraq, Naxçıvanın muxtariyyəti milli deyil, ərazi müxtariyyətidir. Naxçıvan muxtariyyəti yalnız Azərbaycan və Naxçıvanın milli qanunvericiliyində müəyyənləşdirilməmişdir. Naxçıvanın muxtar statusu həmçinin beynəlxalq müqavilələrlə təsdiqlənir (Moskva müqaviləsi, Qars müqaviləsi). Bu müqavilələrə əsasən, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Naxçıvan bu statusu ilə beynəlxalq hüquqi zəmanət aldı. Naxçıvanın muxtar statusu alması bir neçə mərhələdən keçib: 16 mart 1921-dən 16 iyun 1923-cü ilə qədər bölgə Naxçıvan Sovet Sosialist Respublikası adlanırdı, sonra isə bir müddət Naxçıvan diyarı, 9 fevral 1924-cü ildən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Naxçıvan MSSR) adlandırıldı. 1990-cı il noyabrın 17-də Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında respublikanın adından "Sovet Sosialisti" sözləri silinib, Naxçıvan Muxtar Respublikası kimi rəsmiləşdi. 1991-1993-cü illərdə Azərbaycanda baş verən anarxiya, xaos və qanunsuzluq dövründə yalnız Ümummilli lider Heydər Əliyevin titanik səyləri sayəsində Naxçıvanın hüquqi statusunu qorumaq, həm də beynəlxalq səviyyədə möhkəmləndirmək mümkün oldu. 1995-1999-cu illər Naxçıvan muxtariyyətinin hüquqi gücləndirilməsi baxımından əhəmiyyət kəsb etmişdir. 1995-ci il noyabrın 12-də Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasının Konstitusiyası (Azərbaycan Respublikası) Naxçıvan Muxtar Respublikasının statusunu müəyyən etmişdir. Konstitusiyanın XVIII bölməsi tamamilə Naxçıvan Muxtar Respublikasına həsr olunub. Konstitusiyanın 134-cü maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikasının ərazisində Konstitusiya, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərarları məcburidir. Naxçıvan Muxtar Respublikasının Məclisi tərəfindən qəbul edilən Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olmamalıdır. Qeyd etmək lazımdır ki, öz muxtariyyət tarixində heç vaxt Naxçıvan bu qədər yüksək statusa malik deyildi.

Azərbaycan Respublikası Konstitusiyasına əsasən, Naxçıvan muxtar dövlətin bütün hüquqlarına malikdir. Proseslərin belə cərəyan etməsi yenə Ermənistanı qane etmir. Ermənistan zaman-zaman Naxçıvan torpaqlarına əsassız ərazi iddialarını dilə gətirir. Bu baxımdan Naxçıvanın statusunun geosiyasi əhəmiyyəti daim elmi araşdırmalarda əks edilməlidir. Dövlətimizin xarici siyasətini elmi olaraq dəstəkləmək milli elmimiz qarşısında dayanan əsas vəzifələrdən biridir.

- 1980-ci illərin sonlarında kommunist düşərgəsi dağıldı və "soyuq müharibə" dövrünün beynəlxalq sistemi tarixə çevrildi. Cənubi Qafqazda Sosialist Respublikalar İttifaqının dağılması ilə yeni bir geosiyasi reallıq formalaşmağa başlayır. Geosiyasi münasibətlərdə bir çox xarici aktorların aləti olan, SSRİ-nin mirası kimi təcavüzkar erməni separatizmi soyqırım, terror, deportasiya yolu ilə həyata keçirilən ərazi iddiaları, torpaqların ələ keçirilməsi ilə özünü ifadə etdi. Erməni separatizmi, anti-türk, anti-azərbaycanlı yönümlü insanlığa qarşı nifrət ifadə edən bir reallıqdır. Təcavüzkar erməni separatizm ideologiyası "Böyük Ermənistan" ideyasına əsaslanır. Ermənilər, dənizdən dənizə uzanan böyük bir dövlət əfsanəsi uydurarak, dünyanın ən qədim xalqlarından biri olduğunu sübut etməyə çalışırlar və buna görə də ermənilər qonşu torpaqlarına iddia etmək üçün "qanuni" hüquqa malik olduqlarını ifadə edirlər. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zonasında genişmiqyaslı hərbi əməliyyatlar 1991-ci ilin sonundan başlayaraq, bir sıra Azərbaycan ərazilərinin müvəqqəti işğalı ilə nəticələnmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsi tarixində baş verən dəhşətli hadisələrdən biri Xocalı faciəsidir. Bütün bu vasitələrlə ermənilər Dağlıq Qarabağı faktiki olaraq ilhaq etmək istəyirlər. Ancaq bunu hüquqi cəhətdən etməyə müvəffəq olmurlar. Bunun səbəblərindən biri də Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olaraq qəbul edilməsini şərtləndirən hüquqi sənədlərdir. Bunların arasında DQMV-nin yaranması məsələsi də vardır. Doğrudur, DQMV-nin yaranması heç də azərbaycanlıların haqqlarına tam riayət edilməsi deyildi, amma bununla belə bölgə üzərində Azərbaycanın suverenliyinin təsdiqi idi. Bütün bunlar məsələnin elmi gündəmdə saxlanılmasını zəruri edir. 2016-cı ilin Apel döyüşləri ilə Azərbaycan bir daha sübut etdi ki, hər zaman bu tarixi-hüquqi reallığı bərpa etmək iqtidarındadır.

NAXÇIVANIN VƏ DAĞLIQ QARABAĞIN STATUS MƏSƏLƏSİNƏ TARİXİ XRONİKAL BAXIŞ

Naxçıvan ermənilərin iddia etdikləri və eləcə də olduqca dəhşətli qətliamlar törətdiyi Azərbaycan bölgələri sırasındadır. Azərbaycan Demokratik Respublikasının parlamentinə, hökumətinə Zəngəzur, Naxçıvan, Ordubad və digər yerlərdən daxil olan yüzlərlə məktub, şikayət, teleqramlar ermənilərin türk-müsəlman əhalisinə qarşı zorakılıqlarından xəbər verirdi. 4 yanvar 1919-cu ildə T.Makinsky İrəvan əyalətinin müsəlman əhalisi adından bir məktub yazmışdı ki,1917-ci ilin dekabrından 1918-ci ilin iyununa qədər İrəvan əyalətində erməni hərbi birləşmələri 200-dən çox müsəlman kəndini dağıtmış və yandırmışdır. Əhali dağılmış, bəziləri dağlara qaçmış, aclıq və soyuqdan ölmüşdür. Sürməli və qismən İrəvan, Eçmiədzin və Şərur rayonlarının bir hissəsini ələ keçirmiş erməni hərbi birləşmələri Naxçıvana doğru üz tutmuşlar.Bu ərazilərə isə Türkiyədən qaçan ermənilər köçürmüşlər.

20 iyun 1918-ci ildə Andranik Ozanyan Naxçıvan sərhədlərinə gələrək Culfa istiqamətində 8 min əsgər, 4 ədəd top, 6 ədəd pulemyotla İranla əlaqələnən körpünü tutur. Culfa şəhərindəki körpünü yandıraraq, 20-25 iyun 1918-ci ildə onun dəstəsi Culfanın Yaycı kəndini darmadağın edir. Ordubadda iki min türk (azərbaycanlı) öldürür. Andranik 14 iyul 1918-ci il tarixində Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyana teleqramında Naxçıvan Uyezdini Sovet Rusiyasının tərkibi elan edir və ondan kömək istəyir. (16). 1918-ci ilin yayında Naxçıvanın azərbaycanlı əhalisini ermənilərdən qorumaq və ermənilərin Naxçıvanı ələ keçirməsinə imkan verməmək üçün Kazım Qarabəkir Paşa rəhbərliyi altında Türk qoşunları bölgəyə daxil olur. İyulun sonu və avqustun əvvəlində, Abrağanus yaxınlığında və Naxçıvan stansiyasının yaxınlığında döyüşlərdə Türk qüvvələrinin məğlub etdiyi Andranikin quldur dəstələri qaçaraq Ordubad rayonunun Bist və Nəsirvaz kəndlərindən, Zəngəzur istiqamətinə keçirlər. İngilislər Naxçıvan və Şərur bölgələrində suveren hüquqlarının bərpası üçün Azərbaycan Respublikasının hökumətinin fəaliyyətini həyata keçirmək cəhdlərini dəstəkləmirdilər və müxtəlif bəhanələrlə maneələr törədirdilər. 12 aprel 1919-cu ildə F. Xoyskinin məktubuna cavabında Britaniya Komandanlığının Baş Qərargahı bu ərazilərin Britaniya Qubernatorunun nəzarəti altında olduğunu bildirir. Qaçqınların öz yerlərinə qaytarılması işinin Britaniya Komandanlığının rəhbərliyi altında aparılacağı bildirilirdi. Qaçqınların tam şəkildə yerləşməsindən sonra Naxçıvan və digər bölgələrə rəhbərlik Ermənistan hökumətinə təhvil veriləcəkdir.

15 aprel 1919-cu ildən Naxçıvan vilayətinin müsəlman əhalisi arasında bölgənin Ermənistana müvəqqəti verilməsi barədə məlumat yayılmağa başlayır. Azərbaycan Respublikasının 1918-ci il aprelin 20-də İrəvanda Azərbaycan dövlətinin nümayəndəsi M.Tekinski yazırdı ki, bütün İslam dünyası, bir milyonluq müsəlmanın yarım milyonluq ermənilərə tabe edilməsinə qarşı Sülh Konfransı qarşısında etiraz etməlidir (18, s.56). Yaz aylarında ingilislərin bölgədən çıxarılması barədə məlumatlar gerçəkləşdi. "Azərbaycan" qəzeti bildirirdi ki, ingilislər Qafqazda avqustun 15-dək qalacaqlar. Onların Azərbaycanı, o cümlədən Naxçıvanı tərk edəcəkləri bildirilirdi. Ermənilər mümkün qədər zamandan istifadə etməyə çalışdılar. Ancaq yerli əhali bir zamanlar bir sıra əhəmiyyətli hazırlıq tədbirləri görərək, bölgədəki daşnakların rəhbərliyinə son qoydu. Bütün bu işlər 19-25 iyul tarixlərində regiondakı erməni hakimiyyət orqanlarının son günlərində ciddi qarşıdurmalara səbəb olur və erməni hərbi birləşmələrinin çıxarılması ilə başa çatır. İrəvan-Culfa dəmir yolunun bütün istiqamətində döyüşlər davam edir. Şahtaxtı stansiyasında erməni qarnizonu məhv edilir. Naxçıvan və Şərur tərəfindən qaçan ermənilər, Qəmərlidə qüvvələrini birləşdirərək Vediyə hücum edirlər. Lakin hətta burada, 4 min nəfərdən çox adam, çoxlu silah və döyüş sursatı itirildikdən sonra qaçırlar. Naxçıvan və qonşu bölgələrin əhalisi bu ərazidə Ermənistan rəhbərliyinə qarşı mübarizəyə qalxdı, bölgələnin əhalisi arzularını bəyan etdi və Azərbaycana qoşulmaq üçün əlindən gələni etdi (5).

Sovet hakimiyyətinin ilk günlərindən Naxçıvan məsələsi yenidən gündəmə gəldi. 1920-ci il noyabrın 29-da Ermənistanda

bolşevik hakimiyyəti yaradıldı. Bu münasibətlə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafeyinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Azərbaycan Hərbi İnqilab Komitəsinin bəyanatı Naxçıvan və Zəngəzur müsəlman əhalisinin güclü narazılığına səbəb oldu. Ermənilərin alçaq niyyətlərinə təcrübədə bələd olan Naxçıvan əhalisi bu diyarın Azərbaycandan qoparılmasına qarşı etiraza qalxdı. Bu bəyanat Türkiyə nümayəndələrinin də etirazı ilə qarşılandı. Ermənistan Respublikası Naxçıvan əhalisinin iradəsi qarşısında dura bilməyib diplomatik fənd işlətdi və Naxçıvanı 1920-ci il 28 dekabr bəyanatı ilə müstəqil Sovet respublikası kimi tanıdığını bildirdi. Rusiya tərəfi də müəyyən siyasi səbəblərdən, Naxçıvanın müsəlman əhalisinin iradəsi ilə hesablaşaraq Türkiyə tərəfinin təkliflərini, Azərbaycan bolşevik rəhbərlərinin bir sıra üzvlərinin mövqeyini nəzərə alaraq Naxçıvanın öz müqəddəratını həll etmək hüququnu tanımaq məcburiyyətində qaldı. Naxçıvanla bağlı məsələləri də əhatə edən Moskva müqaviləsi 16 maddə və 2 əlavədən ibarət idi. Moskva müqaviləsinin üçüncü maddəsinə əsasən, Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verildi. Moskva danışıqlarında Azərbaycanın RSFSR-dəki səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin də əməyi və xidməti olub.

Qars konfransı isə 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək keçirildi. Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda müqavilə imzaladı. Müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdu. Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdi. Beləliklə, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və tabeçiliyi məsələsini beynəlxalq müqavilələrlə tam şəkildə həll etdi. Qars müqaviləsi müddətsiz imzalanmış və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Ermənistan Respublikası 1920-ci il dekabrın 28-də Naxçıvanın müstəqilliyini tanımış, Qars müqaviləsi ilə ona Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsinə imza atmış, lakin bu gün də belə, Naxçıvan iddialarından əl çəkməmişdir.

Azərbaycanın Rusiya tərəfindən 1920-ci ildə işğal edilməsindən sonra Dağlıq Qarabağ bölgəsi hələ də Ermənistanın ərazi iddialarının mərkəzində idi. N. Nərimanov Qarabağın dağlıq hissəsində ölkəsinin suveren hüquqlarının təmin edilməsinə böyük önəm verirdi. Mərkəzə ünvanladığı çoxsaylı teleqramlarda Azərbaycan rəhbərliyinin Qarabağ məsələsində mövqeyi birmənalı idi. Burada qeyd edilirdi ki, Dağlıq Qarabağ təbii ki, Azərbaycan ərazisinin sərhədləri daxilində olmalıdır (17, s.102). Ancaq həmişə olduğu kimi burada da Sovet Rusiyasının mövqeyi Azərbaycan xalqının maraqları ilə ziddiyyət təşkil edirdi. Çünki Rusiya üçün azərbaycanlılar daimi təhlükə mənbəyi, ermənilər isə Cənubi Qafqazda siyasi məqsədlərin reallaşdırılması aləti idi. Onlardan Cənubi Qafqazın digər xalqlarının milli-azadlıq hərəkatlarına qarşı istifadə edilmişdir. 1920-ci ildə Sovet Rusiyası Qarabağ, Zəngəzur və Naxçıvanı Azərbaycan ilə Ermənistan arasında mübahisəli ərazilər kimi qəbul edir. Azərbaycanın arxasında RSFSR bu ərazilərin taleyi haqqında Ermənistanla danışıqlar aparır. Bu danışıqların nəticəsində Sovet Rusiyası ilə Ermənistan arasında 10 avqust və 28 oktyabr 1920-ci il tarixlərində danışıqlar aparılır. Rusiyanın bu himayədarlığı nəticəsində1920-ci ildə Azərbaycanın Zəngəzur bölgəsinə sahib olan ermənilər 1921-ci ildə Dağlıq Qarabağı da Ermənistana birləşdirmək istədilər.

Ümumiyyətlə, Dağlıq Qarabağ ilə bağlı olaraq məkrli planların həyata keçirilməsi üçün ermənilər əslində pərdə axrasında daim böyük dövlətlərlə əməkdaşlıq edirdilər. Azərbaycanda işğalçılıq siyasətini həyata keçirən bolşeviklər keçmiş Rusiya imperiyasını bərpa etmək məqsədilə 1920-ci il aprelin 28-də Bakıda Azərbaycan Sovet Sosialist Respublikasının yarandığını elan etdilər. Aprel işğalından sonra Azərbaycan öz dövlət müstəqilliyini itirdi. Bolşeviklərin XI Qırmızı Ordu hissələri qısa bir müddətdə Azərbaycanın əksər ərazilərini öz nəzarəti altına aldılar. 1919-cu ilin sonu 1920-ci ilin əvvəllərində Dağlıq Qarabağda vəziyyət son dərəcə gərgin idi. Çünki, XI Qırmızı Ordunun hücumu ərəfəsində Azərbaycan Milli Ordusunu cəbhə xəttindən uzaqlaşdırmaq məqsədilə Rusiyanın sifarişi ilə Dağlıq Qarabağda ermənilərin qiyamı baş vermiş, Ermənistanın əsassız ərazi iddiaları və hərbi təcavüzü miqyaslı xarakter almışdı. 1920-ci ilin martında A.İ.Mikoyan Moskvada bir qrup Ermənistan nümayəndəsini qəbul etdi. A.İ.Mikoyan bildirdi ki, əgər Sovet qoşunları Bakıya daxil ola bilərsə, onda Ermənistan dövləti də öz məqsədinə çatacaqdır. Bakının asan yolla ələ keçirilməsi üçün burada yerləşən Milli Ordunun çıxarılması tələb olunurdu. Ona görə də Dağlıq Qarabağda erməni müdaxiləsi yenidən başlandı. 1920-ci il 22 martda nizami erməni ordusu Şuşaya daxil olub amansız qırğınlar törətdilər. Həmin gün minlərlə dinc əhali daşnaklar tərəfindən öldürüldü. Həmin gün təkcə Şuşa şəhərində 1700 bina yandırılmışdı. Şərəf və ləyaqətin tapdalanması, qadına, qocaya, uşağa aman verilmədən qırılması adi hala çevrilmişdi. Dağlıq Qarabağda baş verən bu qırğının qarşısını almaq üçün Azərbaycan Milli Ordu hissələri 1920-ci il aprelin 26-da Dağlıq Qarabağa daxil oldu. Təcavüzkar erməni quldur dəstələri müvəqqəti olaraq ərazidən uzaqlaşdı. Lakin Şimal sərhədlərimizdəki yaranmış boşluqdan istifadə edən XI Ordu hissələri Azərbaycan sərhədlərini keçdi. Beləliklə, 1920-ci il aprel işğalı ərəfəsində Dağlıq Qarabağda erməni daşnaklarının məkirli ərazi iddiaları kütləvi

xarakter aldı və onların yerli dinc müsəlmanlara qarşı təcavüzü, zorakılığı, qarəti daha da genişləndi (13, s.10-11).

Bu arada qeyd edib haşiyəyə çıxmaq istərdim ki, müstəqilliyini itirən Azərbaycan Xalq Cümhuriyyətinin təməl prinsipləri milli dövlətçiliyin əsaslarını müəyyən edirdi. Arxiv sənədlərində göstərildiyi kimi milli dövlətçiliyimizin təmelləri ümumi ərazi üzərində tarixi, milli, dil və mədəniyyət birliyinin yaranması idi (1). Belə bir dövlətin mövcudluğu onun neftini ələ keçirmək istəyən Rusiyaya, həmçinin milli ərazilərini qəsb etmək istəyən Ermənistana sərf etmirdi. Milli mətbuatımız bu haqda öz həyəcan təbilini çalmaqda idi. «Azərbaycan» qəzetinin 1920-ci il 2 aprel tarixli nömrəsində dərc olunmuş "Ermənistan birləşir…» başlıqlı məqalədə deyilirdi: «…Qars, İrəvan, Naxçıvan, Zəngəzur və Qarabağ başqalarının sümükləri üzərində «birləşmiş Ermənistan» yaratmaq iddiasına düşən daşnakların mübarizə proqramında yalnız ayrıca məntəqələri təşkil edir. Bu məntəqələr çoxdan Ermənistan xəritəsinə daxil edilib və indi onun rəhbərləri öz niyyətlərini yalnız həyata keçirirlər. Kim bilavasitə İrəvan hadisələrini yaşayıb, kim günün günorta çağı müsəlmanlara qarşı çəkinmədən ova çıxan ermənilər görüb, kim ki, nə vaxtsa çiçəklənən qəzanın yerlə yeksan edildiyini görübsə, əlbəttə onlar bilirlər ki, erməni hökuməti heç vaxt Qars, Naxçıvan, Zəngəzur və Qarabağı sakit buraxmayacaqlar. Əvvəlcə İrəvan, Eçmiədzin, Sürməli, Novobayazid qəzalarını müsəlmanlardan təmizləmək lazım idi. Sözün əsl mənasında bu icra olundu. Bu gün Ermənistanın hakimiyyəti altında olan bu döyüş meydanında bir nəfər də olsun müsəlman yoxdur, onların daşınan və daşınmaz əmlaklarının hamısı «Hayastanın» toxunulmaz fonduna daxil edilmişdir. Bu qəzalar Ermənistanın qruplaşmalı olduğu mərkəz olmalıdır» (3). Bundan bir il öncə isə ermənilərin daha bir həyasızlığı eyni qəzetdə işıqlandırılır. Axtarış zamanı müəyyən edilir ki, Ermənistanın Azərbaycandakı Bakı diplmotik missiyasında silah-sursat tədarükü həyata keçirilir (4).

Ancaq Azərbaycan SSR qurulduqdan sonra da N.Nərimanovun birbaşa başçılığı ilə Dağlıq Qarabağda milli hakimiyyətin bərqərar edilməsi istiqamətində işlər görülürdü. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarları Soveti (XKS) yaradıldıqda fövqəladə komissarlar da təyin olunmuşdu. A.N. Karakozov (1890-1938) DQ üzrə fövqəladə komissar təyin olunmuşdu. Azərbaycan Sovet hökuməti 1920-ci il 30 apreldə Ermənistana hökumət notasında Zəngəzur və Qarabağın qoşunlardan təmizlənməsini tələb edirdi. May ayında Qarabağda Sovet hakimiyyətinin qurulması elan olundu. Bu dövrdə Sovet Rusiyası Qafqazın sovetləşdirilməsi planını həyata keçirməkdə davam edir, sovet dövlətlərinin yeni sərhədlərinin müəyyənləşdirilməsi prinsiplərini irəli sürməklə mövcud və gələcək dövlətlərin bu sahədəki fəaliyyətini nəzarət altına almağa cəhd göstərirdi. RK (b) P MK Siyasi Bürosu Qafqaz Cəbhəsi Hərbi-inqilabi Şurasına 7 iyul tarixli təlimatında bu məsələyə toxunmuşdu. Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə (1920, 29 noyabr) xarici sərhədlərlə birgə, sərhədlər daxilində də bölgülərin aparılması kəskinləşdi. Azərbaycan İnqilab Komitəsinin Ermənistan Sovet Respublikasına 30 noyabr teleqramı və 1 dekabr bəyannaməsində də Qarabağ və onun dağlıq hissəsindən bəhs olunurdu. Bu sənədlərin erməni tarixşünaslığında təhrif

edilməsi tutarlı şəkildə sübut edilmişdir. Bəyannamədə Dağlıq Qarabağın əməkçi kəndlilərinə tam öz müqəddəratını təyinetmə hüququ verildiyi elan edilirdi. Ermənistan İnqilab Komitəsi isə 28 dekabr bəyannaməsində Naxçıvana iddiadan əl çəkildiyini bildirirdi, lakin Qarabağı əldən vermək istəmirdi. Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi məsələsində DQ yenidən gündəmə gəldi. Qafqaz Bürosu 3 iyun 1921-ci ildə Dağlıq Qarabağın Ermənistana məxsus olduğunun Ermənistan hökumət bəyannaməsində göstərilməsi barədə qərar qəbul etdi. Ermənistan XKS isə 12 iyunda bunu dekretləşdirdi. İşlərin belə gedişi Azərbaycanı təmin edə bilməzdi. AK (b)P MK Siyasi Bürosu və Təşkilat Bürosunun AK (b)P MK katibi Q. Kaminskinin sədrliyilə keçirilən 27 iyun iclasında Tiflisdə komissiyanın işi ilə əlaqədar Azərbaycanın Ermənistanla sərhədi haqqında məsələ müzakirə edildi. Bu iclasda 5 maddədən ibarət qərar qəbul olundu. İlk dəfə burada DQ-yə bəyan edilən öz müqəddəratını təyin etməyə Azərbaycanın baxışı ifadə olundu. 3. "Məsələnin yeganə həlli erməni və müsəlman kütləsinin Sovet quruculuğu işinə geniş cəlb edilməsi (yol. Nərimanovun Bəyannaməsindən aydın olduğu kimi) ola bilər". Problemin həlli haqqında Siyasi Büro və Təşkilat Bürosunun fikrinin Tiflisə çatdırılması Nərimanova həvalə edildi (12, s.25).

Bu arada qeyd edək ki, Ermənistanda sovet hakimiyyətinin qurulmasından sonra Dağlıq Qarabağdakı ermənləşdirmə

prosesinin növbəti dalğası başladı. 1920-ci ilin yay və payız aylarında Ermənistanda iqtisadi və siyasi böhran son dərəcə kəskinləşdi. Ölkədə kütləvi aclıq baş qaldırmışdır. Aclığın törətdiyi ağır fəlakətlər üzündən Ermənistandan Azərbaycana əhalinin kütləvi axını baş verdi. 1920-ci ilin iyun-noyabr aylarından Ermənistandan Azərbaycana 350 ailə, 1921-ci ildə 500 ailə köçüb gəlmişdir. Bu ailələrin böyük bir hissəsi Dağlıq Qarabağda məskən saldı. Sonrakı illərdə Dağlıq Qarabağın müxtəlif bölgələrinə gələn yeni ailələrin böyük əksəriyyəti milliyyətcə erməni olmuşdu. Beləliklə, çar Rusiyası dövründə olduğu kimi, Sovet imperiyası dövründə də Dağlıq Qarabağ bölgələri barədə görülən ilk tədbirlərdən biri də bu yerlərdə erməni ailələrinin çoxluğunu təmin etməkdən ibarət olmuşdur. Dağlıq Qarabağa erməni ailələrinin kütləvi axınına nail olmaq üçün dövlət səviyyəsində beynəlmiləlçilik bayrağı altında tədbirlər görülürdü. Dağlıq Qarabağda məskunlaşmış və yenıcə gələn ailələr üçün torpaq sahələri verilirdi. 1921-ci ildə olan məlumata görə təkcə Xankəndində məskunlaşan əhaliyə 7229 desyatin, Xocavənddə 6378 desyatin, Hadrut bölgəsində 5950 desyatin, Şuşada isə 1114 desyatin torpaq sahələri ayrılmışdı (2).

Ermənilər Sovet hökumətinin qələbəsindən sonra da Qarabağın 2 yerə bölünməsi məsələsini ortaya atdılar. Dağlıq Qarabağ haqqında məsələ 1921-ci il iyulun 27-də AK(b)P MK-nin Siyasi və təşkilat bürosunun nəzərindən keçirildi. Həmin büro Sovet Ermənistanı nümayəndəsi A.Bekzadyanın təklifi ilə razılaşmadı və qeyd edildi ki, erməni və azərbaycanlı əhalisi olan ərazilərin ayrılıb Ermənistana və Azərbaycana verilməsi təklifi inzibati və iqtisadi əlverişlilik nöqteyi-nəzərindən qəbul edilə bilməz. Bununla iki Sovet respublikası arasında ixtilaf meydana çıxdı. Bu məsələdə əmələ gəlmiş düyünü nəzərə alaraq RK(b)P MK-nin Qafqaz bürosunun plenumu həmin məsələni müzakirə etməli oldu. Plenum 1921-ci il iyulun 4 və 5-ində keçirilmişdi. Burada İ.Stalin, RK(b)P Qafqaz bürosunun üzvləri - Orconikidze, Maxaradze, Myasnikov, Nərimanov, Kirov və başqaları iştirak etdilər. İyulun 4- də axşam iclasında Kirov-Myasnikov qrupunun təklifi ilə Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi haqqında əsassız qərar qəbul edildi. Lakin səsvermədə Stalin iştirak etmirdi. N.Nərimanov bu qərarla razılaşmayaraq bildirdi ki, Qarabağ məsələsi Azərbaycan üçün böyük əhəmiyyətli bir məsələ olduğundan qəti qərar qəbul etmək üçün məsələ RK(b)P MK-ya keçirilsin. Nərimanovun ciddi təkidi ilə iyulun 5-də plenumun səhər iclasında Qarabağ məsələsinə yenidən baxıldı. Qərara alındı ki, azərbaycanlılar və ermənilər arasında milli barışığın zəruriliyini, Qarabağın yuxarı və aşağı hissəsi arasında iqtisadi əlaqələri nəzərə alaraq onun daim Azərbaycanla bağlı olduğu üçün Azərbaycan SSR-in tərkibində saxlanılsın. Azərbaycan KP MK-nin Siyasi və təşkilat bürosunun 26 sentyabr 1921-ci il tarixli iclasında həmin məsələyə baxıldı və Qafqaz bürosundan xahiş edildi ki, Dağlıq Qarabağın (DQ) Muxtar vahidə ayrılması haqqında öz qərarına yenidən baxsın. 1922-ci il oktyabrın 27-də RK(b)P Zaqafqaziya ölkə komitəsi Rəyasət heyətinin iclası oldu. Qərar alındı ki, RK(b)P MK Qafqaz bürosunun Qarabağa muxtariyyət verilməsi haqqında 5 iyul 1921-ci il tarixli qərarı Azərbaycan K(b)P MK-si tərəfindən həyata keçirilsin. 1923-cü il iyulun axırlarında RK(b)P Zaqafqaziya ölkə komitəsinin plenumunda DQ məsələsi yenidən müzakirə edildi və DQ Muxtar vilayətə (DQMV) ayrılması haqqında qərar qəbul etdi.

Dağlıq Qarabağa muxtar vilayət statusunun verilməsi heç də ermənilərin ərazi iddialarına son qoymadı. Tam əksinə münaqişənin yeni bir şəkildə ortaya çıxması üçün zəmin hazırladı. Ermənistan Dağlıq Qarabağı hüquqi və siyasi olaraq hakimiyyəti altına ala bilməsə də 1948-53-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından deportasiyasına nail ola bildi. 1947-ci il dekabrın 23-də bu məkrli niyyət özünü rəsmi surətdə göstərir. İ.V.Stalin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı imzalayır. O zaman erməni millətçiləri bu məkrli niyyəti yaxşıca pərdələməyə çalışmışdılar: guya bu addım - azərbaycanlıların köçürülməsi respublikanın iqtisadiyyatını gücləndirmək, problemlərini həll etmək üçün atılırdı. Azərbaycanlıların köçürülməsi məsələsində iki amil önə çəkilirdi. Bunlardan biri xaricdən öz "vətən"inə dönən ermənilər yerləşdirmək, digəri isə guya Azərbaycanın pambıqçılıq rayonlarında işçi qüvvəsinin çatışmaması idi. Əslində isə bunlar erməni hiyləsi ilə uydurulmuş arqumentlər idi. Məsələnin daha dərin kökləri vardı. "Kadr arxasında" Dağlıq Qarabağ faktoru dayanırdı. Xatırladaq ki, hələ 1945-ci ilin noyabrında Ermənistan K(b)P MK-nın birinci katibi Q.Harutunyan Stalinə məktub yazaraq Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsini xahiş etmişdi. Həmin məktub isə cavab üçün Azərbaycana göndərilmişdi. 1949-1953-cü illərdə Dağlıq Qarabağın ərazisinə bir nəfər də azərbaycanlı köçkün buraxılmamışdı. Hələ üstəlik, DQMV-nin özündən 132 azərbaycanlı ailəsi Xanlar (Göygöl) rayonuna köçürülmüşdü (5).

1960-70-ci illərdə Dağlıq Qarabağda və eləcə də Azərbaycanın digər bölgələrində erməni separatçılığının qarşısının alınması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Heydər Əliyev hələ 1950-1960-cı illərdə ermənilərin Dağlıq Qarabağ məsələsini qaldırmaq cəhdinin qarşısını alıb. O dövrdə ulu öndər Heydər Əliyev Azərbaycan SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbərliyində, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işlədiyi zaman ermənilərin bu planının qarşısını almışdı: "Hətta həmin dövrdə Ermənistan SSR Kommunist Partiyasının Mərkəzi Komitəsinin 1-ci katibi olan Karen Dəmirçiyan açıq şəkildə bəyan edirdi ki, nə qədər ki, Heydər Əliyev vəzifədədir, o zamana qədər də ermənilər Dağlıq Qarabağla bağlı nəyəsə nail ola bilməyəcəklər" (11).

Ancaq Ümummilli Lider Heydər Əliyevə qarşı mərkəzi hakimiyyət tərəfindən represiyaların başlanması ilə Dağlıq Qarabağ məsələsi yenidən qalxır və məlum separatçılıq və təcavüzün nəticəsində respublikanın 20 faiz ərazisi işğal edilir. Bir milyondan çox qaçqın ölkənin sosial yükünü artırdı. 1988-ci il fevral hadisələrindən sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin separatçı-terrorçu qruplaşmaları və Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağın ələ keçirilməsi uğrunda hərbi əməliyyatlara başladılar. Azərbaycana qarşı ədalətsiz müharibə aparıldığını, onun ərazi bütövlüyünün pozulduğunu və torpaqlarının ermənilər tərəfindən işğal olunduğunu Birləşmiş Millətlər Təşkilatı (BMT) təsdiq etdi. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında 4 qətnamə (822, 853, 874, 884 saylı) qəbul etdi. Lakin erməni işğalçıları bu

qətnamələri yerinə yetirmədilər. Ermənistan işğalçılarına qarşı mübarizədə Azərbaycanın hərbi-iqtisadi və insan qüvvələrinin səfərbər edilməsinə böyük ehtiyac var idi. Bu məqsədlə Heydər Əliyev noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət etdi, ciddi hərbi-təşkilati tədbirlər həyata keçirildi. Bunun nəticəsində Azərbaycan xalqının işğalçılara qarşı ədalətli mübarizəsində dönüş yaratmaq mümkün oldu. Noyabrın ortalarında Ermənistan silahlı qüvvələrinin Beyləqan istiqamətində hücumu dayandırıldı. Azərbaycan ordusunun müvəffəqiyyətli əməliyyatları nəticəsində 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi və 22 kənd düşməndən təmizləndi. Bunun ardınca Cəbrayıl rayonu ərazisinin bir hissəsi, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çəpli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri də düşməndən azad edildi. Çiçəkli dağı və b. strateji yüksəkliklər ələ keçirildi, Kəlbəcər-Laçın yolunun tunelə qədərki hissəsi nəzarət altına alındı. Döyüşlərdə düşmən 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artilleriya qurğusu və s. itirdi. Azərbaycanın müharibədə dönüş yaratmaq, işğal olunmuş Vətən torpaqlarını azad etmək sahəsində əldə etdiyi uğurlar, nəinki Ermənistanı, həmçinin onu müdafiə edən qüvvələri də ciddi təşvişə saldı. Ermənistanın himayəçilərinin onu hərbi cəhətdən daha da möhkəmləndirilməsi, müasir silahlarla təmin olunması, bölgədə irticaçı qüvvəyə çevrilməsi xətti daha da gücləndirildi. Azərbaycan Respublikası belə bir şəraitdə 1994-cü il mayın 8-də Bişkek protokolunu imzaladı. Azərbaycanın düşmən üzərində hərbi uğurları sayəsində mayın 12-də cəbhədə atəşkəsə nail olundu (8, s.61).

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Siyasi Sənədlər Arxivi f. 1., siy.2, sax. vah. 59, v.153

2. Azərbaycan Respublikası Dövlət Arxivi f. 8, s. 1. sax.vah. 11, v. 45.

3. Azərbaycan Respublikası Dövlət Arxivi f.970, siy.1., sax. vah.202, v.468

4. Azərbaycan Respublikası Dövlət Arxivi f.970, siy.3, sax. vah.4, v.13

5. Azərbaycan Respublikası Dövlət Arxivi f.894, siy.1., sax. vah.80, v.42

6. "Azərbaycan" qəzeti 1920-ci il 2 aprel

7. "Azərbaycan" qəzeti 1919-cu il 13 iyun

8. Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi.- Bakı, 2005., 350 s.

9. Əliyeva İ. 1948-1953-cü illər deportasiyası, yaxud genosidin bir forması. // "Azərbaycan".-2015.-18 aprel.-N 81.-S.11.

10. Hacıyev İ. Qars müqaviləsi muxtar respublikanın siyasi və tarixi taleyində mühüm rol oynayır. http://www.serqqapisi.az/index.php/ictimai-siaysi/2484-zhars-muzhavilaesi-mukhtar-respublikan-n-siyasi-vae-tarikhi-taleyindae-muhum-rol-oynay-r

11. Novruzov S. Heydər Əliyev 1950-60-cı illərdə ermənilərin Dağlıq Qarabağ məsələsini qaldırmaq cəhdlərinin qarşısını alıbdır. https://az.trend.az/other/commentary/2674712.html

12. Mahmudov Y., Şükürov K. "Qarabağ: Suallar və Faktlar", "Qismət" nəşriyyatı. Bakı, 2005. 156 səh.

13. Məmmədov N. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vüayətində ictimai-siyasi həyat iqtisadi və mədəni inkişaf (1923-1991). Bakı. Təhsil NPM, 2008, 568 səh.

14. Sadıqov B. Azərbaycan heç vaxt indiki qədər güclü, azad, abad və müstəqil olmayıb. // Azərbaycan.-2016.-18 oktyabr.-№229.-S.1, 5

15. Qəniyev R. QARABAĞ HADİSƏLƏRİ. http://qesam.org/ust/2/3/02.pdf

16. «Наше знамя», 26 июля 1918 г.

17. Нифталиев И.В. Азербайджанская ССР в экспансионистских пла- нах армян (20-е годы XX века). – Баку: Издательство «Təhsil», 2010. – 292 с.

18. Пашаев А.А. Геноцид, депортации и территориальные претензии армян к азербайджанскому народу (XIX-XX вв.) Баку, 2013, 152 стр

Ключевые слова: *статус, геополитическое значение, территориальные вопросы, корни.*

Key words: *status, geopolitical importance, territorial issues, roots of problem.*

ГЕОПОЛИТИЧЕСКИЕ РЕЗУЛЬТАТЫ ИСТОРИЧЕСКОГО ОПРЕДЕЛЕНИЯ СТАТУСА НАХЧИВАНА И НАГОРНОГО КАРАБАХА

РЕЗЮМЕ

В статье рассматривается геополитическое значение статуса Нахчывана и Нагорного Карабаха. Здесь исследуются корни проблемы. Также упоминалось историческое позиции стран, заинтересованных в статусе этих регионов - Турции и России. В статье также говорится о попытках Армении реализовать свои геополитические планы в регионе. В заключение автор делает соответствующие выводы.

Ключевые слова: статус, геополитическое значение, территориальные вопросы, корни

GEOPOLITICAL RESULTS OF THE HISTORICAL DETERMINATION OF THE STATUS OF NAKHCHIVAN AND NAGORNO-KARABAKH

SUMMARY

The article considers the geopolitical significance of the status of Nakhchivan and Nagorno-Karabakh. Here are investigated the roots of the problem. The article considers the geopolitical significance of the status of Nakhchivan and Nagorno-Karabakh. Here the roots of the problem are investigated. It also mentioned the historical position of countries interested in the status of these regions - Turkey and Russia. The article also talks about attempts by Armenia to implement its aggression plans in the region. In conclusion, the author draws the appropriate conclusions.

Region

FUAD BABAYEV
Siyasi elmlər üzrə fəlsəfə doktoru

ÇEÇENİSTAN MÜNAQİŞƏSİNİN HƏLLİ MODELİ

SSRİ-nin dağılması və kommunizmin iflasından sonra bir çox qərbli müşahidəçilər Rusiyanın da Sovet İttifaqının taleyini təkrarlayacağını proqnozlaşdırırdılar. Lakin SSRİ və keçmiş Balkan nəhəngi Yuqoslaviyadan fərqli olaraq Rusiya mövcuddur. Üstəlik öz ərazi bütövlüyünü də qoruyub saxlaya bilib. Hətta Çeçenistan da beynəlxalq səviyyədə tanınmadı, Rusiyanın tərkib hissəsidir.

Dağılmaqda olan SSRİ-də millətçilik saat mexanizmli bombaya bənzəyirdi. Bu bomba ittifaq (Qorbaçov) rəhbərliyinin Boris Yeltsinin rəhbəri olduğu yeni RSFSR rəhbərliyinə qarşı mübarizədə muxtariyyət kartını önə çəkəndə və onların statusunu SSRİ respublikalarına münasibətdə bərabərləşdirməyə çalışanda partladı (4).

Çeçenistan münaqişəsinin həlli problemlərini araşdırmadan öncə onun yaranma səbəblərinə və münaqişənin qısa xronikasına nəzər salaq.

XX əsrin sonlarına təsadüf edən Rusiya-Çeçenistan münaqişəsi rus-çeçen münasibətlərinin bütün inkişaf tarixi, çoxcəhətli obyektiv (daxili və xarici), həmçinin subyektiv səbəblərlə şərtlənir. Onların əsas bir hissəsi SSRİ-nin dağılmasından sonra Rusiyada yaranmış qeyri-sabit sosial-siyasi şərait, iqtisadi çətinliklər, ölkə rəhbərliyinin Rusiya Federasiyasının bütün ərazisində millətlərarası münasibətlərin kəskinləşməsinə səbəb olan qərarları ilə bağlıdır.

XX əsrin sonlarında Rusiyada iqtisadi vəziyyətin, "mərkəz"lə milli regionlar arasında münasibətlərin korlanması dövründə ali dövlət hakimiyyətinin milli maraq və tələblərin ödənilməsi üçün universal qayda axtarışı, iqtisadiyyat, siyasət və mədəniyyət sahəsində vahid standartlar tətbiq etmək cəhdləri insanların kortəbii şəkildə milli əlamətlərə görə birləşməsinə gətirib çıxardı. (3) Onlar məhz milli qruplar vasitəsilə ictimai sərvətin ədalətlə bölüşdürülməsi üçün dövlət sisteminə təsir göstərmək və öz talelərinə özlərinin təsir göstərə bilmək imkanlarının yaranması üçün vasitə kimi baxırdılar. Bu baxımdan Çeçenistan münaqişəsi də istisna deyil.

Çeçenistan münaqişəsində general G.Troşevin sözlərilə desək, "sırf subyektiv və təsadüfi amillər də mühüm rol oynamışdılar". Zahirən bu amillər çeçen liderlərinin və onların moskvalı

opponentləri tərəfindən məntiqi cəhətdən özünü doğrultmayan hərəkətlər, hər iki tərəfin avantüralı ambisiyaları, "oyunçu"ların merkantil hesablamaları kimi özünü biruzə verirdi. Əslində isə Çeçenistan münaqişəsi pərdəarxası dolaşıq oyunlar, məxfi əlaqələr, razılaşmalar və s. sayəsində yaranıb. Bütün bu aksiyaların əsasında dövlət və milli maraqlar deyil, şəxsi və qrup halında tamahkar məqsədlər dayanmışdı. Münaqişənin gedişində həm də Çeçenistan neftinin mənsubluğu məsələsi, maliyyə axınlarına nəzarət problemi həll olunurdu. Bununla əlaqədar olaraq bəzi ekspertlər Çeçenistan münaqişəsini "kommersiya müharibəsi" adlandırırlar. Amma bu münaqişənin əsas səbəbi kimi siyasi və iqtisadi elitanın yalnız neft maraqlarını deyil, həm də Çeçenistanın müstəqillik səylərini də hesab etmək lazımdır (1).

Üstəlik bu fonda dini amil intensivləşdi. 1992-ci ildə Qroznıda Beynəlxalq İslam Qardaşlığının filialı açılmışdı və burada dünyanın istənilən nöqtəsində İslam ideyaları uğrunda döyüşməyə hazır olan dini-ekstremizm təmayüllü 150 nəfər çeçen hazırlaşdırılırdı.

Məlum olduğu kimi, dini-siyasi ekstremizm sosial-siyasi problemlərin danışıqlar, kompromiss, xüsusilə də konsensus yolu ilə həll etmək imkanlarını rədd edir. Dini-siyasi ekstremizm tərəfdarları eyni dində olanlar da daxil olmaqla, onların siyasi baxışlarını bölüşməyənlərə qarşı ifrat dözümsüzlük nümayiş etdirirlər. Onlar üçün heç bir "siyasi oyun qaydaları", yolverilənlərin və yol verilməyənlərin sərhədləri mövcud deyil. Dövlət institutları ilə qarşıdurma onların davranış tərzidir. "Qızıl orta" və dünya dinləri üçün əsas prinsiplər sayılan "özünə rəva bilmədiyini başqalarına rəva görmə" tələbi onlar tərəfindən inkar olunurdu. Onların arsenalındakı əsas prinsiplər zorakılıq, qeyri-adi qəddarlıq və demaqoqiya ilə uzlaşan aqressivlik idi (7).

1994-cü ilin oktyabrında Çeçenistan Prezidenti Cohar Dudayev Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinə ünvanladığı məktubunda yazırdı: "Çeçen-rus qarşıdurması bu gün kritik nöqtəyə çatıb və sabah xalqlarımız üçün milli fəlakətə çevrilə bilər. Çeçen-rus münasibətləri nizamlanmadığından, hər hansı ehtiyatsız söz və ya addım istənilən an yeni Qafqaz müharibəsini alovlandıra bilər" (5).

1995-ci ildə B.Yeltsin öz hakimiyyətini möhkəmlətmək və növbəti seçkilərdə qələbə qazanmaq üçün xırda, qalibiyyətli müharibəyə ehtiyac duyurdu. Amma kiçikmiqyaslı döyüş əvəzinə, Çeçenistandakı hərbi əməliyyatlar uzandı, böyük maddi və insan itkilərinə səbəb oldu, hakimiyyət və cəmiyyət daxilində böhranı gücləndirdi, dünya ictimai birliyinin rəyini Rusiyaya qarşı yönəltdi. Qeyri-adekvat güc tətbiqi Rusiya qoşununa qarşı Çeçenistanda əhalinin böyük nifrətinə səbəb oldu, hətta Dudayev rejimini dəstəkləməyənlər də onun tərəfdarına çevrildilər. Hətta Cohar Dudayev Rusiyaya qarşı azadlıq müharibəsinin simvoluna çevrildi.

1996-cı ilin aprelində C.Dudayev öldürüldü, həmin ilin mayında onu əvəz edən Z.Yandarbiyev ilə Kremldə hərbi əməliyyatların dayandırılması ilə bağlı razılaşma imzalandı. 1996-cı ildə B.Yeltsin yenidən Rusiya prezidenti seçildi, Çeçenistanda isə müharibə davam edirdi. 27 yanvar 1997-ci ildə Çeçenistanda keçirilən prezident seçkilərində A.Məshədov qalib gəldi. Lakin Məshədov çeçen cəmiyyətini birləşdirə bilmədi. "İçkeriya" dövləti nə beynəlxalq-hüquqi baxımdan ("de-yure"), nə də "de-fakto" tanınmadı. Hakimiyyətə gələn yeni çeçen elitası da separatçı ideyaların ifadəçisinə çevrildi.

Bu problem 2000-2004-cü illərdə Rusiyanın siyasi həyatında mühüm yer tuturdu. Şamil Basayevin 1999-cu ilin

avqustunda Dağıstana yürüşü ilə separatçıların terrorçu fəaliyyəti məhdudlaşmadı. Sentyabrın 5-də və 9-da Buynakskda (Dağıstan) və Moskvada evlər partladıldı. Nəticədə 147 nəfər həlak oldu və onlarla insan yaralandı. Bu hadisələrə işarə edən baş nazir Vladimir Putin bildirdi: "Rusiya müdafiə olunur: bizə hücum ediblər. Buna görə də biz bütün sindromları, o cümlədən günahkarlıq sindromunu kənara atmalıyıq". 23 sentyabrda yaraqlıların Qroznı ətrafındakı silah və döyüş sursatı anbarı raket-qumbara atəşinə tutuldu, 29 sentyabrda isə federal qüvvələr Çeçenistan sərhədini keçdilər və silahlı birləşmələrə qarşı yerüstü əməliyyatlara başladılar. Fəal döyüş əməliyyatları 1999-2000-ci ilin qışında da davam etdi, fevralda isə federal qüvvələr Qroznını tutdu. 2004-cü ilin martında Rusiya silahlı qruplaşmalarının komandanı general G.Troşev əməliyyatın hərbi fazasının başa çatdığını bildirdi. Lakin sonradan partizan müharibəsinin çətinlikləri özünü biruzə verdi. Gündüz döyüşlərinin qalibi olan "federal"lar gecələr təşəbbüsü rəqibə verirdi. (2)

2000-ci ildə federal mərkəz Çeçenistanda mülki orqanların yaradılması ilə bağlı həlledici addımlar atdı. İyunda RF prezidentinin fərmanı ilə Çeçenistan müftisi Ə.Kadırov administrasiyanın rəhbəri təyin edildi. Bu vəzifəyə birinci çeçen müharibəsinin fəal iştirakçısının təyin edilməsi Moskvanın yaranmış çeçendaxili reallıqlarla hesablaşmağa hazır olduğunu göstərirdi. 2001-ci ilin yanvarında Rusiya hökumətində Çeçenistanın işləri üzrə federal nazir vəzifəsi təsis edildi, Çeçenistan Respublikasının hökuməti yaradıldı, onun iqtisadiyyatının və sosial sferasının bərpası üzrə federal proqram qəbul olundu və 14,7 mlrd. rubl (təxminən 500 mln.dollar) ayrıldı. Amma sülh planını reallaşdırmaq mümkün olmadı, çünki yaraqlıların salamat qalan dəstələri həm Rusiya əsgərlərinə, həm də Kadırov administrasiyasına qarşı mübarizə aparırdılar. 2001-ci ilin sonlarından A.Məshədovun səlahiyyətli nümayəndəsi M.Uduqovla RF Prezidentinin Cənub federal dairəsindəki nümayəndəsi V.Kazansev arasında danışıqlar gedirdi. 23 oktyabr 2002-ci il tarixdə M.Barayevin başçılığı altında 50 nəfərdən artıq terrorçu Moskvadakı Dubrovka Teatr Mərkəzini tutdu və mindən artıq tamaşaçını girov götürdü. Yaraqlılar Rusiya rəhbərliyindən Çeçenistandan rus qoşunlaını çıxarmağı tələb edir, əks-təqdirdə binanı partladacaqlarını bildirirdilər. Girovların xilas edilməsi məqsədilə keçirilən xüsusi əməliyyatda bütün terrorçular məhv edildi, amma 129 nəfər girov da həlak oldu. Rusiya hökuməti terrorçulara güzəştə getməyəcəyini göstərdi. Lakin 2002-ci ilin oktyabr hadisələri hərbi yanaşmaya alternativ yolların aranmasını aktuallaşdırdı. (2)

Rus-çeçen münaqişəsi dövründə tərəflər rus və çeçen xalqlarının rəyinə məhəl qoymadan Rusiya Konstitusiyasının və beynəlxalq hüququn tələblərini kobudluqla pozmuşdular. Bu, daxili münaqişələrin nizamlanması və həlli ilə bağlı hüquqi əsasların olmaması, eləcə də insan hüquqlarının pozulmasına görə günahkarların məsuliyyətə cəlb edilmələri üçün real, hüquqi hərəkət sxeminin olmaması üzündən baş vermişdi.

Rus-çeçen müharibəsi Çeçenistan xalqına sülh və rifah gətirmədi, Rusiya üçün isə böyük insan qurbanı, nəhəng siyasi, iqtisadi və mənəvi itkilər hesabına başa gəldi.

10 noyabr 2002-ci ildə Vladimir Putin çeçen ictimaiyyətinin nümayəndələri ilə görüşündə də problemin həllinin vacibliyini bildirirdi: "Əminəm, əgər bu gün Çeçenistan problemini həll edə bilməsək, sabah 1999-cu ildə olduğu kimi yenidən xilafət yaratmaq cəhdləri olacaq. Ekstremistlərin fikrincə, onlar bu barədə hətta açıq danışırlar, xilafət yalnız bütün Şimali Qafqazı deyil, həm də Krasnodar və Stavropol diyarlarının bir hissəsini birləşdirməlidir. Hələ bu da son deyil. Bunun ardınca Rusiyanın çoxmillətli Volqaboyunda vəziyyəti gərginləşdirəcəklər. Bütün bunlar ona yönəldilib ki, ölkəmizdəki şəraiti Yuqoslaviyanın dağıdılması ssenarisinə uyğun inkişaf etdirsinlər. Amma bu, olmayacaq. Məsuliyyətlə bildirirəm: ikinci Xasavyurt olmayacaq". (13)

Amma münaqişənin həlli ilk növbədə onun səbəblərini aradan qaldırmağı tələb edir. Çeçen müqavimət hərəkatı müstəqillik uğrunda mübarizə aparırdı. Məhz Çeçenistanın Rusiya tərkibində muxtariyyat statusundan imtinası 1994-cü il müharibəsinə səbəb oldu və 1999-cu ildə Putinə ikinci müharibəyə başlamağa imkan verdi. Əlbəttə bir sıra qısamüddətli amillər, o cümlədən Rusiyada prezident seçkiləri münaqişəni müharibəyə çevirdi, amma münaqişənin səbəbi Çeçenistanın dövlətçilik cəhdləri ilə bağlı idi. Çeçenlər üçün Rusiya tərkibində muxtariyyatın qəbul edilməsi təslim olmaqdı, amma Çeçenistan tarixində bununla bağlı heç bir presedent yox idi və çətin ki, gələcəkdə də ola.

Münaqişənin nizamlanması üçün ilkin tədbirlər aşağıdakılardan ibarət olmalı idi (12):

Hərbi əməliyyatların dayandırılması, güc yolundan istifadə ilə qarşıdurmadan qətiyyətlə imtina; məcburi köçkünlərin qayıtması üçün şəraitin yaradılması; çeçendaxili dialoqun başlanması üçün şəraitin yaradılması, ictimai-siyasi həyatın bərpası.

Rusiya Federasiyasının Qafqaz siyasətinin başlıca məqsədi millətlərarası həmrəylik, sülh, iqtisadi rifah, hərtərəfli uçot əsasında xalqların ümumi tarixi-mədəni inkişafı, onların hər birinin maraqlarının razılaşdırılması və reallaşdırılması olmalıdır.

2002-ci ilin oktyabrındakı hadisələr bir daha göstərdi ki, terrorçularla Çeçenistanın müstəqilliyi ilə bağlı danışıqlar aparmaq olmaz. Deməli, münaqişənin nizamlanması üçün bütün tərəfləri qane edən modellər tapılmalı idi. Əhməd Kadırov nəzəri cəhətdən onların sayının üç olduğunu bildirirdi (6):

Birinci model – yaraqlıların nəzarət etdikləri müstəqil İçkeriya. Bu, əlbəttə ki, qəbulolunmazdır. Çeçenistan müstəqil dövlət kimi mövcud ola bilməz, çünki dərhal daxili qarşıdurma başlayar, yaxın və uzaq qonşuların sərhəd iddiaları fəallaşardı.

İkinci model – Çeçenistan Rusiyanın tərkibində, amma ciddi "kordon"la ayrılıb. Bu variant faktiki olaraq 1990-cı illərin sonlarında reallaşdırılıb və yaxşı heç nə qazandırmayıb. Blokpostlar şəffaf idi, "kordon"un içində isə özbaşınalıq hökm sürürdü. Əslində Çeçenistan Respublikasını izolyasiyada saxlamaq və onu blokadaya almaq imkanı cinayətkarcasına siyasi blefdir. Bu ərazinin sərhədlərini toxunulmaz saxlamaq üçün Rusiyanın nə maddi imkanı, nə də hərbi birləşmələri var. Hətta müvafiq hərbi kontingentin, blok postların, hərbi rejimin mövcudluğu şəraitində də quldur birləşmələrinin Rusiyanın dərinliklərinə uzunmüddətli reydləri həmişə mümkündür.

Üçüncü model – Rusiya Federasiyası tərkibində xüsusi istisadi statusa malik, Federasiyanın tamhüquqlu subyekti olan Çeçenistan Respublikası. Məhz bu model daha mükəmməl görünürdü. Bu, həm də Rusiya-Çeçenistan münaqişəsinin sülh yolu ilə siyasi həllinə yol açırdı.

Birinci modellə bağlı bəzi mülahizələri də sadalayaq. Kiçik dövlətlərin mövcudluğu həm də xarici amillərdən asılıdır. Bu gün müstəqil Çeçenistanın yaradılmasında dünyanın güclü dövlətlərindən heç biri maraqlı deyil. Hazırki dövrdə yeni dövlətlər daxili səylərdən çox, böyük dövlətlərin siyasi iradəsi sayəsində yaranırlar. Bu layihənin isə Kosovodan fərqli olaraq ciddi xarici dəstəyi olmadı. Həm də hər bir etnos öz dövlətçiliyini yaratmaq iqtidarında deyil. Bunun üçün yalnız istək azdır. Öz müstəqilliyini elan edən ölkə ən azı iki digər ölkə və ya dəniz sahili ilə həmsərhəd olmalıdır. Çeçenistan isə faktiki olaraq anklavdır, İnquşetiya, Şimali Osetiya, Stavropol diyarı və Dağıstanla sərhəddir. Deməli, harasa getməyi mümkün deyil, ətrafdakı Rusiyadır və Gürcüstanla dağ sərhədi. (10)

2002-ci ilin noyabrında Çeçenistanda konstitusiya quruculuğu prosesinə start verildi. 2003-cü ilin martında respublikada referendum keçirildi və təklif edilən Konstitusiya layihəsini səs verənlərin 96 faizi dəstəklədi. Səs verənlər həm də respublikanın prezidenti və parlamentinə seçkilər keçirilməsi ideyasını bəyəndilər. Bütün bunlar əhalinin vəziyyətinin normallaşdırılmasına yönəlik səyləri müdafiə etdiklərini göstərdi. 2003-cü ilin oktyabrında seçkilər baş tutdu, prezident və parlament seçildi.

Kremlin Çeçenistandakı prezident seçkilərində Ə.Kadırovu dəstəkləməsinin xüsusi bir məntiqi vardı və bir sıra səbəblərdən diktə olunurdu: birincisi, RF prezidentinə güc strukturlarının təsiri (Kadırov hərbçilərin, xüsusi xidmətlərin namizədi idi). İkincisi, xarici siyasət amili böyük rol oynamışdı. RF rəhbərliyi dünya ictimaiyyətinə nümayiş etdirmək istəyirdi ki, Çeçenistanın rəhbəri separatizm siyasətindən məyus olan çeçenlərin "dini lideri", Məshədovun keçmiş silahdaşıdır. Üçüncüsü Kadırovun təyinatı bu və ya dogər səbəblərdən əllərinə silah götürməyən keçmiş dudayevçi və məshədovçuların barışdırılmasına yönəldilmişdi. Kremlin fikrincə, müftinin ziddiyyətli fiquru "vəhhabilik" əleyhinə çıxan bütün çeçenləri birləşdirməliydi. (9)

Çeçenistan Respublikasının Rusiyanın konstitusiya sahəsinə qayıtması, hakimiyyət vertikalının möhkəmlənməsi çeçen xalqına Rusiya Federasiyası tərkibində real inteqrasiya yoluna keçmək imkanı yaratdı. Çeçenistan respublikasının iqtisadi bazasının möhkəmləndirilməsi respublikanın simasını dəyişdi, səhiyyə, təhsil, mədəniyyət, idman müəssisələrinin işləməsi üçün şərait formalaşdırdı. Lakin zəif sənaye və sosial baza, hasilat sənayesinin kəskin surətdə aşağı düşməsi, sənaye və kənd təsərrüfatı müəssisələrinin dağılması respublikada əmək qabiliyyətli əhalinin işsizliyini şərtləndirən amillərdir. İşsizlərin 60 faizdən çoxu 16-29 yaşlı kənd gəncləridir. İşsiz əhali, o cümlədən də gənclər potensial yüksək təhlükə mənbəyidir. İctimai təhlükəsizliyin aşağı səviyyəsi və hakimiyyətin get-gedə cəmiyyətdən uzaqlaşması, onun "qapalılığı" və tayfa-korporativ xarakterliliyi regionda yeni sosial-siyasi münaqişənin yetişməsi ilə bağlı nəticə çıxarmağa imkan verir. (11)

Rusiya və Çeçenistan arasındakı qarşıdurma yalnız Rusiya dövlətçiliyinin möhkəmlənəcəyi, ölkə əvvəlki böyük dövlət statusunu geri qaytararaq siyasi və iqtisadi cəhətdən müstəqil ölkə olacağı təqdirdə təkrarlanmayacaq. Rusiya cəmiyyətinin real inteqrasiyası baş verəcəyi, müxtəlif etnik qruplar etnik ərazilərinin xaricində, Rusiya sərhədləri daxilində tamhüquqlu və müdafiə olunmuş vətəndaşlar kimi özlərini hiss edəcəkləri halda Çeçenistan Rusiya Federasiyasının tamhüquqlu subyekti olacaq. Bunu isə indiki halda yalnız cəmiyyət və hakimiyyət arasında konstruktiv dialoqa nail olmaqla təmin etmək mümkündür. (6)

Mənzil-qərargahı Brüsseldə yerləşən Beynəlxalq Böhran Qrupunun 2015-ci ildə dərc etdiyi "Çeçenistan: Daxili xaric" adlı məruzəsində deyilir: Çoxillik Rusiya-Çeçenistan münaqişəsi həll olunmayıb, dərinliyə çəkilib. Bu gün Çeçenistandakı sülh yalnız müharibənin olmaması ilə xarakterizə olunur. Real siyasi həll əvəzinə və regionun ümumrusiya gerçəkliyinə inteqrasiyası əvəzinə, son illərdə biz yalnız prosesin imitasiyasını müşahidə edirik. Bunun da nəticəsində Çeçenistanda mövcud olan nizamlama modeli uzunmüddətli sülhə apara bilməz. Bu modelin hələlik qansız, minimal qeyri-sabitlik təzahürləri ilə formasını dəyişmək mümkündür. (8)

ƏDƏBİYYAT

1. Александров А.А. Возникновение и развитие «чеченской проблемы» в конце XX в. в России/Историческая и социально-образовательная мысль. 2012 №6

2. Барсенков А. С., Вдовин А. И. История России. 1917–2009 / А. С. Барсенков, А. И. Вдовин. — 34е изд., расш. и перераб. — М.: Аспект Пресс, 2010.778-779

3. Васильева М.В., Урбанович А.Р. Стратегические направления и ориентиры социально-экономического развития регионов // Национальные интересы: приоритеты и безопасность. 2011. № 2.

4. Гродненский Н. Первая чеченская – история вооруженного конфликта (первая книга). –М.: ФУАИнформ, 2007. 161

5. Дудаева Алла. Миллион первый/Б.: Адилов, Зейналов и сыновья, 2002.149

6. Кадыров А.А. Российско-чеченский конфликт: Генезис, сущность, пути решения//Диссертация на соискание ученой степени кандидата политических наук. М.: 2003

7. Садиков М.И., Ханбабаев К.М. Религиозно-политический экстремизм/ Учебное пособие для студентов высших учебных заведений – Махачкала: 2009. 50

8. Чечня все больше отделяется от России/ Новая газета. 2015 г.№68

9. Чечня от конфликта к стабильности (проблемы реконструкции)/М.: 2001, 281

10. Есть ли будущее у Чечни в составе Российской Федерации/https://ru.exrus.eu/Yest-li-budushcheye-u-Chechni-v-sostave-Rossii-id519a6a296ccc19f251000d62

11. Стратегические приоритеты социально-экономического развития чеченской республики на современном этапе/Электронный научный журнал «Современные проблемы науки и оброзования»// https://www.science-education.ru/ru/article/view?id=17213

12. О возможности мирного урегулирования конфликта в Чечне/ http://feedbackgroup.info/proetcon/konflikt.htm

13. http://kremlin.ru/events/president/transcripts/21770

Açar sözlər: *Çeçenistan münaqişəsi, Rusiya Federasiyası, Rusiya Konstitusiyası, rus-çeçen müharibəsi, separatizm, millətçilik, dini-siyasi ekstremizm, terrorizm, tənzimlənmə, nizamlanma modelləri, muxtariyyat, inteqrasiya.*

Key words: *Chechen conflict, Russian Federation, Russian constitution, Russian-Chechen war, separatism, nationalism, religious-political extremism, terrorism, regulation, regulation models, autonomy, integration.*

Ключевые слова: *Чеченский конфликт, Российская Федерация, Конституция России, русско-чеченеская война, сепаратизм, национализм, религиозно-политический экстремизм, модели регулирования, автономия, интеграция.*

Fuad Babayev
PhD in political sciences

Chechen conflict resolution model

SUMMARY

Annotation: The article spotlights the causes of the Chechen conflict and gives a brief chronology of the conflict, noting that the war was a disaster for Chechens and Russians. The initial measures are listed for the conflict settlement and the proposed models for conflict resolution are investigated. The author stresses that once and for all, the resolution of the Chechen conflict is of temporary nature given the existing conditions.

Фуад Бабаев,
доктор философии по политическим наукам

"Модель разрешения Чеченского конфликта"

РЕЗЮМЕ

Аннотация: В статье рассматриваются причины конфликта в Чечне и короткая хронология конфликта, отмечаются бедствия, постигшие русский и чеченский народы с начала войны. Перечислены первоначальные договоренности по урегулированию конфликта, расследуются предлагаемые модели разрешения конфликта. Автор подчеркивает, что окончательное урегулирование чеченского конфликта в существующих условиях носит временный характер.

Demoqrafiya

ASƏF HACIYEV
Tarix üzrə fəlsəfə doktoru,
aparıcı elmi işçi

QAX ƏHALİSİNİN DEMOQRAFİK VƏZİYYƏTİ (XX-XXI ƏSRLƏR)

Şimal-qərbi Azərbaycanın əhalisi və onun demoqrafik xarakteristikası, inzibati-ərazi bölgüsü və əhalisinin yerləşməsində baş verən dəyişikliklər Azərbaycan tarixşünaslığında kompleks olaraq tədqiqata cəlb edilmədiyi üçün bu mövzunun araşdırılması aktuallıq kəsb edir. Eyni zamanda, "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət proqramı", 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları, 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi üçün kompleks elmi yanaşma və tədqiqatlara ehtiyac vardır. Bu proqramların icrasına elmi cəhətdən yanaşaraq, inzibati-idarəetmə sisteminə və əhalinin məşğuliyyətinin tarixi ənənələrinə nəzər salmaq zəruridir.

Bunları nəzərə alaraq, şimal-qərbi Azərbaycanın əhəmiyyətli coğrafi mövqeyində olan Qax rayonunun əhalisinin öyrənilməsi, onun tarixi-demoqrafik xarakteristikasının tədqiqi əhəmiyyətlidir. Mövzunun tədqiqi üçün SSRİ, Azərbaycan SSR və Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünü əks etdirən müxtəlif statistik toplulara müraciət edilmişdir. Bu məlumatlar vasitəsilə rayonun ərazisində baş verən inzibati dəyişiklikləri və əhalinin məskunlaşmasını müqayisəli şəkildə təhlil etmək imkanı yaranır.

Tarixi mənbələrdən məlumdur ki, hələ e.ə. VII əsrin əvvəllərində Qaxın ərazisiSkif çarlığının tərkibinə daxil olmuşdur. Skif çarlığınınvə onunəsasını qoyan tayfaların - skif, sak tayfalarının izlərinə Qax rayonunun ərazisində rast gəlinir. Yaşayış məskəni kimi Qaxın adını ilk dəfə MoiseyKalankatlının "Albaniya tarixi" kitabında görürük. IV əsrə aid hadisələrdən bəhs edən tarixçi Haku (Qax) adlı yaşayış məskəninin adını qeyd edir. Qax adı haqqında söylənən fikirlərin ən başlıcası odur ki, "qaq" tayfası bu ərazinin ən qədim tayfalarından biri olmuşdur. Sonralar bu söz "qax" kimi işlənərək bu günümüzə qədər gəlib çatmışdır. Bu ad barəsində elmdə müxtəlif mülahizələr söylənsə də, bir həqiqət bizə məlumdur ki, hələ 3000 il bundan əvvəl, bu ərazidə yaşamış ən iri tayfalardan biri elə qax adlı tayfa idi. Həmin tayfanın bir qolu olan "er" qəbiləsi ("er", "ər", yəni cəsur, igid çox olduğundan qəbilədə onlar belə adlanırdı) hələ 2700 il bundan əvvəl xatırlanmışdı. Çox güman

ki, qaxlar həmin ərazidə qədim dövrlərdən mövcud olmuşlar və böyük bir ərazidə yaşayırdılar. Qax adı V əsr hadisələri ilə əlaqədar gürcü mənbələrində də xatırlanır. VIII əsrə aid gürcü mənbələrində Qaxin indiki ərazisi Qax-Ubani, yəni Qax obası adlanırdı. Qax adına başqa xalqların toponimiyasında da rast gəlinir: Dağıstanın Qunib dairəsində Qax kəndi, Avar dairəsində Qax kəndi, Buynaksk dairəsində Qaxısaray xarabalığı, Qaxmataş dağı, Kürə dairəsində Qaxtsuq kəndi, Qars vilayətinin Ərdəhan dairəsində Qaxıcvari dağı və s. Faktlar göstərir ki, qaxlar Balakən-Şəki zonasında qədim alban tayfalarından biri olmuşdur. Güman ki, qaxlar III-IV əsrlərdə xristianlığı, VIII-IX əsrlərdə isə islam dinini qəbul etmişlər.

XI əsrdən başlayaraq Qax rayonunun indiki ərazisində oğuz-səlcuq türkləri, sonra isə qıpçaq türkləri məskunlaşmışdır. Həmin dövrdə Qaxın ərazisi o zaman mövcud olanAtabəylər və Şirvanşahlar dövlətlərinin tərkibinə daxil idi. XIIIəsrdəQaxın ərazisi Hülakülər dövlətinin tərkibinə daxil olduqdan sonra onun cənub torpaqlarına türk-moğol tayfalarının köçü başlamışdır. Ərazidə ilk dövlət qurumu 1562-ci ildə Səfəvi hökmdarı Şah I Təhmasibin fərmanı ilə İlisu sultanlığının əsası qoyulmuşdur. 1803-cü ildə İlisu sultanlığı Rusiya imperiyası tərəfindən işğal edilmişdir. 1840-ci il ərazi islahatı ilə İlisu sultanlığı ləğv edilir. Sultanlıq 1844-cü ildə üsyan edərək sultanlığın əhalisini ruslara qarşı qaldırmışdır. Ruslar sultanlığın mərkəzi olan İlisu kəndini yandırdıqdan sonra sultanlığın ərazisi mahallara bölünür və Car-Balakən dairəsinə tabe edilir: ərazinin bir hissəsi Car-Balakən dairəsinin tərkibinə qatılır, bir hissəsi isə Gürcü-İmereti quberniyasının tərkibində yaradılan yeni Sığnaq qəzasına verilir. Rusiya imperiyası tərəfindən XIX əsrin II yarısında bir sıra ərazi islahatları keçirilir və islahatlar zamanı indiki Qax rayonunun ərazisi Car-Balakən dairəsinin tərkibində qalır. 1860-cı ildə Car-Balakən dairəsinin adı dəyişdirilərək Zaqatala dairəsi adlandırılır. 1867-ci il "Qafqazda və Zaqafqaziya vilayətində idarəetmənin yenidən təşkili haqqında" fərmanına əsasən Zaqatala dairəsi ayrıca inzibati vahidlik kimi qalır. 1918-ci ildə yaranan müsəlman şərqinin ilk respublikası olan Azərbaycan Demokratik Respublikası dövründə bu əraziyə Gürcüstan Respublikası əsassız ərazi iddiaları irəli sürür. 1920-ci ilin aprelində bolşevik Rusiyasının təcavüzü nəticəsində Azərbaycan Demokratik Respublikası süqut edir və Azərbaycan SSR-i yaradılır. Rayonun indiki ərazisi Azərbaycan SSR-nin sərhədləri daxilində saxlanılır. Bundan sonra quberniyalar ləğv olunur və Azərbaycan SSR-nin inzibati ərazi quruluşu qəzalara bölünür. Zaqatala dairəsi qəzaya çevrilir və ərazisi 6 mahala bölünür: Almalı, Balakən, Car, Əliabad, Qax və Muxax. 1926-cı ilə aid məlumatlardan görürük ki, bizim tədqiq etdiyimiz indiki Qax rayonunun ərazisi həmin dövrdə Zaqatala qəzasının tərkibnə daxil idi. 1929-cu il aprelin 8-də Zaqatala qəzası Nuxa qəzası ilə birləşdirilir və nəticədə Zaqatala-Nuxa dairəsi yaradılır. 1930-cu il mayın 25-də isə yenidən ayrıca Nuxa və Zaqatala qəzaları təşkil edilir. 1930-cu il 8 avqust tarixli qərarla Azərbaycan SSR-nin rayonlaşdırılması ilə əlaqədar Azərbaycan Respublikasının şimal-qərbində 1494 kvadrat km. ərazidə mərkəzi Qax kəndi olan Qax rayonu təşkil edilir. Qax rayonu şimaldan Rusiya Federasiyası, şimal-qərbdən Zaqatala rayonu, qərbdən Gürcüstan Respublikası, cənubdan Yevlax və Samux rayonları, şərqdən isə Şəki rayonu ilə həmsərhəddir.

Oturaq əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olan Qax rayonunun əhalisi haqqında ilk məlumatlar T.N.Yayişnikovun1831-ci ildə tərtib etdiyi İlisu sultanlığı əhalisinin siyahıyaalmasında olan məlumatdır [1]. Həmin siyahıyaalmada Qaxda həyətlərin sayı 400, ailələrin sayı isə 650 göstərilmişdir. Sonralar Azərbaycanın, o cümlədən Qaxın əhalisinin sayı barədə Rusiya imperiyasının və SSRİ-nin tərkibində olarkən, həmçinin müstəqillik illərində müxtəlif vaxtlarda keçirilən siyahıyaalınmalarda məlumatlar verilmişdir.

1872-ci ildə dərc olunmuş və 1869 cu il əhalinin kameral siyahıyaalınması nəticələrini əks etdirən Tiflis quberniyasının və Zaqatala dairəsinin hərbi icmalında Zaqatala dairəsinin İlisu naibliyinə daxil olan Qax kəndində milli tərkibi muğallardan və ingiloylardan ibarət olan 160 ailənin yaşadığı qeyd edilib [28].

1930-cu ildə rayonun yaranmasından sonra 1931-1987 - ci illərdə əhalinin artımını izləmək üçün cədvəl 1-ə nəzər salaq [19; 22; 23; 24; 26].

Cədvəl 1

Qax rayonu əhalisinin say dinamikası (1931-1987 - ci illər)

İllər	Rayonun cəmi əhalisi	Şəhər əhalisi	Kənd əhalisi
1931	17.524	-	17.524
1933	22.721	-	22.721
1939	26.720	-	26.720
1959	22.482	-	22.482
1970	37.700	6.200	31.500
1979	40.200		
1983	41.200	7.300	33.900
1887	41.700	10.000	31.700

Cədvəldən görünür ki, əhalinin sayında ciddi fərq 1939 və 1959-cu illər arasında baş vermişdir. Bir çox sovet respublikalarında müşahidə edilən bu azalma əlbəttə ki,II Dünya müharibəsi ilə əlaqədar yaranmışdır.

Əhalinin yerləşməsinə diqqət yetirdikdə, məlum olur ki, rayonun əhalisi əsasən kəndlərdə məskunlaşmışdır. Bir sıra kəndlər hər zaman əhalinin sayının çoxluğuna görə fərqlənmişlər. Hələ 1933-cu ildə Qax rayonunun bəzi kənd şuralarında məskunlaşan əhalinin sayı 2 mindən çox idi. Bunlara İlisu (2.954), Qaşqaçay (2.400), Qax-İngiloy (2.910), Qax-Muğal (2.178) daxildir. Əhalisinin sayı mindən çox olan kənd şuralarının sayı daha çox idi. Bunların siyahısına Almalı, Əlibəyli, Güllük, Ləkit, Qum, Qıpçaqkənd şuraları daxildir. 1959-cu il əhalinin siyahiyaalınma materiallarına əsasən Qax-İngiloy (2.533), İlisu (1.360), Güllük (1.177) və Qax-Muğal (1.110) kəndləri əhalisinin sayının çoxluğuna görə fərqlənmişlər.Əldə edilən məlumatlara əsasən, rayon təşkil edildikdən sonra ərazinin idarəedilməsi məqsədilə həyata keçirilən inzibati bölgüləri və kənd şuralarında edilən dəyişiklikləri izləmək mümkündür.

1933-cu il inzibati bölgüsündə Qax rayonunun ərazisindəki 48 kəndin idarə edilməsi üçün 15 kənd şurasının mövcud olduğu göstərilir [7]. Həmin kənd şuralarının adları bunlardır: Almalı, Əlibəyli, Güllük, İlisu, Ləkit, Marsan, Qarağan, Qaşqaçay, Qax-İngiloy, Qax-Muğal, Qum, Qıpçaq, Sarıbaş, Tasmalı, Zəyəm. 1938, 1941 və 1947-ci illərə aid materiallarda da Qax rayonunun ərazisi 15 kənd sovetindən ibarət olub [16; 17; 18].

1955-ci ilə qədər rayonun tərkibində şəhər və qəsəbə statusu olan yaşayış məskəni yox idi. 1955-ci ildə Qaxa şəhər tipli qəsəbə statusu verilir.

1961-ci ilin Qax rayonu üzrə inzibati-ərazi bölgüsü cədvəlində ərazi bölgüsündə elə bir dəyişiklik görünmür. Kənd sovetlərinin sayı

- 9, qəsəbə sovetinin sayı - 1 göstərilir. Yaşayış məntəqələri haqqında verilən məlumatda 59 kəndin olduğu qeyd edilir. Qax rayonunun 1961-ci il üçün siyahıda göstərilən kənd şuralarının adları bunlardır: Əlibəyli, Almalı, İlisu, Qax-İngiloy, Qax-Muğal, Qaşqaçay, Ləkit, Sarıbaş və Tasmalı [21].

Cədvəl 2

Qax rayonunun kənd şuraları və yaşayış məskənləri

1933		1961		1979		1989	
Кавказская политика иранской исламской республики в контексте отношений России и Турции

ИРИ играет одну из доминирующих ролей в важнейшем регионе планеты - Западной Азии, куда входит Ближний и Средний Восток, Кавказ, зона Каспийского моря, Центральная Азия. Иран занимает важнейшее военно-стратегическое положение, являясь одновременно и средневосточной, и кавказской, и центрально-азиатской, и каспийской страной, страной, омываемой водами Персидского и Оманского заливов Индийского океана. Все болевые точки региона, так или иначе, сопряжены с Ираном. Все, казалось бы, сугубо внутренние проблемы отдельных частей региона, будь то этнические или религиозные, военные или экономические, проблемы беженцев и наркобизнеса, проблемы терроризма и сепаратизма могут эффективно решаться только при содействии Исламской Республики Иран.

Menecment

MÜƏSSİSƏ FƏALİYYƏTİNİN İDARƏ OLUNMASINDA TƏŞKİLATİ KONFLİKT - İDARƏETMƏNİN ƏSASI KİMİ

HÜSEYN HƏSƏNOV
Azərbaycan Turizm və Menecment Universiteti

Giriş

Konflikt insan həyatının ayrılmaz hissəsi kimi ünsiyyət prosesində də özünü göstərir. Konflikt anlayışına bir sıra yanaşmalar mövcud olduğu kimi, təcrübi olaraq konfliktlərin idarə olunması zamanı da bir sıra üsullar ortaya çıxır. Bu məqalədə dünya ədəbiyyatında bu sahədə yazılmış ən tutarlı elmi əsərlərdən seçmələr olunmuşdur.

1.2. Təşkilati konflikt idarəetmənin əsası kimi

Təşkilat daxilində müəyyən ünsiyyət kanalları mövcuddur. Şöbələr arası baş verən bu ünsiyyət mübadiləsində kanallar arasında müəyyən münaqişələrin yaranması normal haldır. Bu kanalların effektiv idarə olunması əsasən iki mühüm tapşırığın icrasına yönəlmişdir:1. azad şirkət və təşkilatı vahidlər, strukturlar tərəfindən icra olunan kanal funksiyalarının koordinasiyası və 2. kanal funksiyalarını icra edən təşkilatı vahidlər arasında yaranan konfliktlərin idarə olunması [1].

Kanal konfliktləri bir kanal üzvünün məqsəd və nailiyyətlərinin başqa bir kanal üzvü ilə kəsişdiyində, ona maneə yaratdığında yaranır [2]. Konfliktlər və onların idarə olunmasına olan ehtiyac ikinci mühüm kanal idarə olunması məsələsidir ki, bu da özünü funksional asılılıqların koordinasiyasında göstərir [3]

Aşağıdakı misala nəzər salaq: Müştəri öz sığorta agentinə yaxınlaşaraq özünün təbii fəlakətlərə qarşı olan maliyyə təminatı ilə bağlı müəyyənləşdirilmiş nizamnamələrə olan qarşılanmamış ehtiyacını ifadə edir. Agent də öz növbəsində sığorta şirkətindən onların əksər bizneslərinin sığortası zamanı, fövqəladə hallarda yaranan vəziyyət barəsində olan nizamnaməyə fikir bildirməyi xahiş edir. Sığorta şirkətinin tufanlarla bağlı zəngin təcrübəsi olmadığından hər hansı maliyyə vəsaiti ödəməkdə çətinlik çəkir.

Agent də müştərisindən gələn biznesi başqa sığorta şirkətinə yönəltməklə hədələyir. Bu misal sığorta şirkətinin sığorta ilə bağlı daxili nizamnamələri ilə müştərilərin məmnuniyyəti funksiyasını daşıyan agentin vəzifələri arasında uyğunsuzluğu göstərir. Məsələ burasındadır ki, agent konfliktin yaranma səbəbini, əsas sığorta təminatçısının öz müştərilərnin razı qalması və məmnuniyyət səviyyəsini sürətləndirən məqsədlərini icra etməməsində görür. Sığorta şirkəti də öz növbəsində agentin sığorta ilə bağlı şirkətin qazanclarını azalmasına yönələn fəaliyyətini yalnış hesab edir.

Ümumiyyətlə qrup və təşkilat daxilində baş verən konfliktlərlə bağlı mübahisəli məsələlər çoxluq təşkil edir. Bəzi məktəblər konfliktin mənfi hal kimi aradan qaldırılmasını nəzəri əsaslarla sübut etməyə çalışsalar da, əslində konfliktin təbii və qarşısıalınmaz hal kimi qəbulu danılmaz fakt olaraq qarşımızdadır. Digər yanaşma daha irəli addım ataraq qeyd edir ki, konflikt nəinki müsbət haldır, hətta bəzi qrup və təşkilatların məhsuldarlığının artırılması üçün mühüm şərtlərdəndir.

"Vijay Verma özünün "Layihə komandasını idarə edərkən" (Managing the Project Team) kitabında konfliktə 3 yanaşma tədbiq etmişdir:

Ənənəvi yanaşma deyir ki, konflikt mənfi haldır və səlahiyyətlər çərçivəsində məhdudlaşdırılmalıdır. Bu layihə və layihə komandalarının idarə edilməsi üçün düzgün strategiya sayılmır.

İnteraksionist [əlaqə] yanaşma deyir ki, konflikt arzu olunandır və yüksək məhsuldarlığı ilə fərqlənən qruplar üçün mühümdür. Münaqişə müəyyən nəzarət çərçivəsində sürətləndirilməlidir.

Müasir yanaşma konflikti qaçılmaz hal kimi qəbul edir. Mənfi və ya müsbət ola bilər, lakin xeyirli olması üçün düzgün idarə olunmalıdır. Münaqişə layihə komandasının işinin düzgün icrasına bir növ işarədir." [4]

Daha əvvəlki fikirlərə görə konflikt mənfidir və onun mənfi təsirləri hər hansı müsbət təsiri ehtimalının fonunda müqayisə olunmaz sayılır.

"... Konflikt zorakılıq, dağılma, güc tədbiqi anlayışları ilə sinonim kimi mənfi mənada qavranılırdı." [5]

Gördüyünüz kimi bu yanaşma daha çox münasibət yönümlü konfliktlərə uyğun olardı ki, bu tip konfliktlər dağıdıcı xüsusiyyət daşıyır.

"Konflikt zəif ünsiyyətin nəticə olaraq qeyri - funksional nəticələr, açıq fikirliliyin, inamın çatışmaması və menecerlərin öz tabeliklərində olan işçilərin ehtiyac və istəklərinə etinasız münasibət şəraitinin mövcudluğu ilə tanınırdı." [5]

Ənənəvi yanaşmada münqaişə daha öncə qeyd etdiyimiz konflikt tiplərindən münasibət və proses konfliktlərinə daha çox uyğundur. Daha öncə qeyd olunan tipologiyaya əsasən konfliktin mənfiliyini vurğulayir, ənənəvi yanaşma daha sadədir. Belə ki, əgər konflikt mənfi hal kimi qəbul olunmuşsa, o zaman o müşahidə olunmalıdır, səbəblər aydınlaşdırılmalıdır, təşkilat və ya müəssisənin performansın yüksəldilməsi üçün müəyyəm qabaqlayıcı addımlar atılmalıdır.

"Tədqiqat materialları konfliktin məhdudlaşdırılmasının yüksək faydalar verməsi ilə bağlı mübahisələr ortaya çıxarmasına baxmayaraq əksəriyyətimiz hələ də köhnə dəbli standartlar əsasında konflikti qiymətləndiririk." [5]

Tədqiqat göstərir ki, konfliktin məhdudlaşdırılması yüksək nəticələr əldə etmək üçün hər zaman effektiv deyil. Amma ənənəvi yanaşma konfliktə daha çox münasibətlər fonunda baxdığından:

"Hər hansı komandanın məhsuldar olmaq yolunda uğursuzluğu, müsbət komanda atmosferi yarada bilməmələri, əksinə münasibət yönümlü - şəxsi məsələlərə, siyasi norma və dəyərlərə əsaslanan konflikt yaratmaları ilə bağlıdır." [6]

Bu məqamda rəqabət və əməkdaşlıq arasındakı fərqi vurğulamaq yerinə düşərdi:

"Əməkdaşlıq digər konflikt tərəfləri ilə birlikdə işləmək və problemin həllinin tapılması prosesində hər bir tərəfin iştirak etdiyi mühitdir. Bunun tam əksinə olaraq rəqabət, digər konflikt iştirakçılarına qarşı fəaliyyət qurmaq, problemin həllinə tapılmış üsulların yalnız bir tərəfin ehtiyacını ödəməsi ilə seçilir. Rəqabət və əməkdaşlıq arasındakı fərq ondan ibarətdir ki, tərəflərin qarşıdurmadan yayınmaları potensial olaraq az ehtimallı hal alır." [6]

Daha öncə də qeyd edildiyi kimi bəzi nəzəri məktəblər konfliktə təbii hadisə kimi baxırlar. Aşağıda qeyd olunan tərifdən də göründüyü kimi, konflikt qaçılmazdır və bu hər bir prosesin tərkib hissəsi kimi qəbul olunur.

"…konfliktin qarşısı alına bilər, lakin faydalı olduğu hallar da danılmazdır." [5]

Daha öncə də qeyd edilmişdi ki, insan resursları yanaşması konflikti təbii hal kimi qəbul edir, lakin interaksionist yanaşma nəinki müsbətliyini vurğulayır, hətta onun inkişafını da əsalandırır. Əsas ideya isə dəyişmə və inkişafdır:

"...Harmoniyalı, sülh dolu, əməkdaşlıq mühitində çalışan qrup statik və dəyişməz, mühit şərtlərinə cavab verməyən və innovasiyanı fəstəkləməyən xüsusiyyətlərə malikdir." [5]

Bu yanaşmaya əsasən menecerlər qrupda konfliktin minimum səviyyəsini saxlamalıdırlar ki, qrupun özünü tənqid yolu ilə mühit dəyişmələrinə reaksiya verəcək, rəqabətcil şəraitdə güclü olmasına imkan versin. Gördüyümüz kimi konfliktin ümumiyyətlə birmənalı olaraq pis və ya yaxşı qiymətləndirilməsi mümkün deyildir. Daha çox konflikt tipindən asılı olaraq göstərdiyi nəticələrin qiymətləndirilməsi ilə ölçülə bilər. Konfliktin tiplərinə əsasən, interaktionist yanaşma vurğulayır ki, müəyyən mənada [funksionallğını itirənə qədər] konflikt müsbətdir və saxlanılmalıdır.

"Mübahisə zamanı biz qəzəb hissi edirik, artıq həqiqətə can

atmağı dayandırırıq və yalnız şəxsi mənfəətimiz üçün mübarizə aparırıq.

Budda"

Konfliktin əsasə tərifi Budda tərəfindən verilmişdir, konflikt insanların obyektib ədaləti unudub yalnız özlərini fikirləşməyə başladıqları andan güclənir. Bu, konfliktiə mənəvi yanaşmadır.

Müasir yanaşma qeyd edir ki, konfliktin idarə olunması ilk öncə diaqnoz, və konfliktin təbiətinə uyğun üsulları özündə birləşdirir.

"Diaqnoz müdiriyyətin məsələyə qarışmasının lazım olun olmadığını müəyyənləşdirir. Ümumilikdə bu tip müdaxilə [a] qeyri rutin tapşırıqlarda, konfliktin minimum səviyyəsinin qorunub saxlanılması, [b] bütün səviyyələrdə konfliktin təsirinin azaldılması, [c] təşkilat üzvlərinin uyğun stil və üsullarla müxtəlif gözlənilməz halların idarə olunmasını dəstəkləmək." [8]

Ümumiyyətlə, təşkilat performansı düzgün diagnoz, konflikt xarakterləri, xüsusiyyətləri və mümkün müdaxilə ilə təmin olunmalıdır.

Konfliktin idarə olunması üsulların məcmusu kimi, mühüm bacarıq sayılır. Xüsusi halda menecerin özünün aid olmadığı, lakin konflikt tərəflərindən bir və ya bir neçəsini tabeliyində saxladığı şəraitdir.

Konfliktə müdaxilə etməzdən əvvəl hər bir menecer ilk öncə onu anlamalı və aşağıdakı suallara özlüyündə cavab verməlidir:

"Konflikt nə haqdadır? Kimlər konflikt tərəfləridir? Mübahisənnin əsas səbəbi nədir? Nə baş vermişdir? Faktiki və potensial təsirləri nələr ola bilər? Özü münaqişə tərəfidir, yoxsa müşahidəçidir? əgər özü də aiddirsə iştirakçı olmayan tərəfin köməyinə ehtiyac varmı? [or should you involve others]?" [4]

Konflikt prosesinə kimlərin daxil olduğu sualına, əslində kimlərin konfliktə bir başa təkan verdiyi və kimlərin kənardan izləyici qismində çıxış edərək idareədici rolunu oynadığı məsələsinin aydınlaşdırılması ilə cavab verilmişdir. Hətta əgər insan idarəetməyə cəlb olunmuşsa da, əlavə şəxslərin də məsələnin həllinə yönəlik fəaliyyət birliyinə ehtiyac ola bilər. Bu daha nüfuzlu, konflikt iştirakçılarının hərəkət və davanışlarını dəyişəcək səlahiyyət və hörmətə sahib yaşlılar da ola bilər.

İşçilərin konflikt məsləsini həll etmələri üçün bir neçə üsul və stil mövcuddur. Rahim və Bonoma [1979] konfliktin idarə olunması strategiyasını iki hissəyə ayırmışdır: Özünə maraq və digərlərinə maraq. Birinci ölçü vahidi özünü razı salmağa və şəxsi ehtiyaclarını ödəməyə yönəlik fəaliyyətlər toplusunu əks etdirirsə, ikinci hissə daha çox başqalarını düşünərək, obyektivlik hissini qorumağa üstünlük verir. Bunların hər birinə qısaca baxaq və mehmanxana idarəetməsində mümkün tədbiqini nəzərdən keçirək.

"1. İnteqrasiya [başqaları və özünə diqqət cəmləmə] problemin həllinə yönəlir, diaqnoz və düzgün problemə müdaxiləni bildirir. Bu stilin istifadəsi açıq fikirlilik, məlumat mübadiləsi, alternativlərin axtarışı və hər iki tərəf üçün düzgün həll yolunun tapılması məqsədi ilə bütün fərq yaradan amillərin sınaqdan keçirilməsini özündə birləşdirir. Bu stili, insanlar arasında baş verən münaqişələri həll etməkdə funksional nəticələr verən, adətən hər iki tərəf üçün uduşlu sayılan üsul adlandırırlar." [7]

Bu qeyd olunan daha çox üzvlər qarşılıqlı əməkdaşlıqda olan qrup tiplərinə aid oluna bilər. Hər bir işçi sərbəst olaraq, bərabər səviyyədə performans nümayiş etdirir. Daha öncə paraqraf "2.1.2 Qruplar və Konfliktlər" də qeyd olunduğu kimi, qrup üzvləri müzakirə edərək birlikdə müəyyən nəticəyə gəlirlər. Müdirlər və direktorlar heyətini də bu tipli problem həll etmə stilinin istifadəçiləri kimi göstərmək olar ki, burada da tərəflərin maraqları bərabər səviyyədə nəzərə alınır.

"2. Məcbur etmə (özünə az, digərlərinə çox maraq) stili dha çox fərqlərin azaldılması, ümumi amillərin vurğulanması yolu ilə digər tərəfin ehtiyaclarının ödənilməsinə yönəlik üsullar toplusudur. Bir şəxsin öz maraq və ehtiyaclarına göz yumması, və əslində münaqişədə iştirak edən qarşı tərəfi düşünməsidir. Bu stil adətən "uduz-ud" (lose–win) kimi də adlandırılır. İnsanlar arası konfliktlərdə qarşı tərəfin xeyrinə həll olunaraq, funksional

nəticələrə gətirir.” [7]

Bu konflikt adətən ümumi maraqların fərdlərin maraqları ilə kəsişdiyi mehmanxana komplekslərində baş verir. Misal üçün, proses yönümlü məsələlərdən doğan bəzi konfliktlərdə münaqişə tərəfin arqumentinin nəzərə alınmaması ilə məcbur edicinin iradəsinə əsasən həll olunur.

“3. Kompromis (başqası və özü ilə aralıq mövqe) bu stil “al və ver” (give and take) adlanır və hər iki tərəfin ortaq şəkildə qəbul etdiyi və qərar qəbul etmədə nəyisə qruban verdiyi metoddur. Daha çox funksional nəticələr əldə etməyə yönəlik stildir.” [7]

Kompromis stili tərəflərdən müəyyən qabiliyyətlər tələb edir. Mehmanxana şəxsi heyəti komanda işi və qrup performansı haqda düşünməlidir. Bu səbəbdən, kompromis bütün tərəflərin maraqlarını nəzərə alaraq ümumi faydalar qazandırmaqdadır. Tərəflərlə müzakirələr, ortaq nöqtənin tapılması kimi bacarıqlar həyati əhəmiyyət kəsb etməkdədir.

“4. Üstünlük (özünə yüksək, başqalarına zəif maraq) daha çox ud-uduz orientasiyalı stil, hər zaman qazanmaq üçün fərdin göstərdiyi fəaliyyətlə kimi xarakterizə olunur. Üstünlük əldə etmiş və ya rəqabət edən qazanmaq üçün hər bir şeyi etməyə hazırdır. Bu zaman o başqalarının ehtiyac və tələblərini nəzərə almır, beləliklə konfliktin həlli digər tərəfin xeyrinə baş vermir. Nəticə olaraq qeyri funksional sonluqlar qazanılır ki, bu da təşkilata ziyan vurur.” [7]

Üstünlük edən tərəfin adətən təsir etmək üçün vəzifə və gücü vardır. Bu səbəbdən də bəzi qərarlar onun öz xeyrinə həll olun bilir, bu da qrup üzvləri arasında narazılıq yaradır. Adətən menecer və ya direktorlar, daha çox gəlir və istehsalat nəicələri ilə maraqlandıqlarından fərdlərin ehtiyaclarını unudurlar. Onları həvsləndirmirlər, vəzifə artımı vermirlər və ya hər hansı maaş və ya hədiyyə təqdim etmirlər. Beləcə şirkətin şəxsi heyəti tez dəyişən xarakterlə müşaiyət olunan peşəkarlıq çatışmazlığı ilə üzləşir.

“5. Yayınmaq (özü və başqalarına az maraq) bu adətən vəziyyətin küçümsənilməsi, etinasızlıqla müşaiyət olunan davranış formasıdır. Yayınan insan özünün və başqalarının maraqlarına cavab verməkdə gecikir ki, bu da uduzmaq üçün hər iki tərəfə şərait yaradır. Hər iki tərəfin maraqları itirilir ki, bu da sonar qeyri funksional nəticələr gətirir.” [7]

Kompromis stilində fərqli olaraq burada özünə və başqalarına maraq aşağı səviyyədədir. Bu səbəbdən problemlər rəqabət edən tərəflərin təklif etdiyi variantlar xaricində həllini tapır. Probmlemli məsələlərin üzərindən atlamaq və onları nəzərə almamaq, zamanı boşa almaq bəzi məsələləri diqqətdən kənarda saxlayır. Bu mənada səmərədən söz gedə bilməz.

Nəticə

Münaqişələr təşkilatın gündəlik həyatında insanlararası münasibətlər zamanı baş verən arasıkəsilməz təbii prosesdir. Münaqişələr müəssisəyə verdiyi faydalar baxımından funksional və qeyri funksional ola bilirlər. Tədqiqat nəticəsində əldə olunan benəlxalq ədəbiyyatda konflikt növlərinə aid məlumatların analizi göstərdi ki, heç də bütün konfliktlər yalnız müsbət və ya yalnız mənfi ola bilməzlər. Konfliktlər faydalılıq baxımından mənfi olarsa, onlara düzgün yanaşma lazımdır və müasir dövrdə biznes həyatında artıq menecerlər şüurlu şəkildə bu məsələni həll etməyi bacarmalıdırlar.

ƏDƏBİYYAT

1. Young A., The Manager’s Handbook, The practical guide to successful management: Sphere Reference, 2007

2. Stem, Louis W., and Adel I. El-Ansary (1992), Marketing Channels, Prentice-Hall, Englewood Cliffs

3. Gaski, John F. (1984), «The Theory of Power and Conflict in Channels of Distribution,» Journal of Marketing, 48(summer), 9-29.

4. Lusch, Robert F. (1976), «Sources of Power - Their Impact on Intra-Channel Conflict,» Journal of Marketing Research, 13(4), 382-6.

5. Spiro L.R., Persuasion in family decisions making. J. Consumer Res., 9: 393-402, 2002

6. Akemi A. I., Organization Conflicts Perceived by Marketing Executives, (EJBO) Electronic Journal of Business Ethics and Organizational Studies, Vol 10, No.1, 2005

7. Adomi E.E. & Anie S.O., Conflict management in Nigeria University Libraries. J. Library Manage., 27: 520-530, 2005

8. Soltanova H. Mehmanxana təsərrüfatı, Baki, 2005

Açar sözlər: *müəssisə, konflikt menecmenti, ünsiyət kanalları*

Key Words: *hospitality, conflict management, dysfunctionality, organizational behavior*

Ключевые слова: *гостеприимство, управление конфликтами, не-функциональность, организационное поведение*

RESUME

Conflict is unpreventable natural process that takes place durig social interactions among people on daily life of organizations. In terms of benefits conflicts are separated into two parts functional and non-functional conflicts. The research on international literature on conflict topic has revealed that conflicts can not be related to only functional or to only non-functional category. If the conflict is negative in terms of its results then it may need unique approach. In contemporary business life managers are conscously dealing with the solution of this phenomenon.

РЕЗЮМЕ

Конфликт является непреодолимым естественным процессом, который приводит к социальному взаимодействию людей в повседневной жизни организаций. С точки зрения преимуществ конфликты разделяются на две части функциональных и нефункциональных конфликтов. Исследования по международной литературе по теме конфликта выявили, что конфликты не могут быть связаны только с функциональной или только нефункциональной категорией. Если конфликт отрицательный с точки зрения его результатов, то ему может понадобиться уникальный подход. В современной хозяйственной жизни менеджеры беззаветно занимаются решением этого явления.

İdarəetmə

DÖVLƏT QULLUĞU SİSTEMİNDƏ PEŞƏKARLIĞIN ARTIRILMASINDA DÜNYA TƏCRÜBƏSİNİN ƏHƏMİYYƏTİ VƏ TƏTBİQİ PROBLEMLƏRİ

AZƏR BAYRAMOV
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Müasir dünyada siyasi proseslərin xüsusiyyətlərindən əlaqədar olaraq, hər bir ölkənin strateji siyasi prioritetlərinin adekvatlığından çıxış etməklə, dövlət qulluğu sistemində xidmət göstərən qulluqçuların peşəkarlığının artırılması vacib şərtlərdəndir. Hər bir dövlət qulluqçusu tutduğu vəzifəsindən asılı olmayaraq, xidmət etdiyi dövlətin adından müəyyən qərarlar verir, vəzifələri yerinə yetirir və icraları təmin edir. Bu işlər əlbəttə, kifayət qədər mürəkkəb və məsuliyyətlidir, qəbul edilən hər bir qərarın və atılan addımın peşəkarcasına icra edilməsi dövlətin nüfuzunu artırır, dövlətlə insanlar arasında inamı yüksəldir, dövlət strukturlarına cəmiyyət arasında etimad artırır və s. Dövlət qulluqçusu öz üzərində daimi olaraq çalışmalı, bilik və bacarığını artırmalı, peşəkarlıq səviyyəsini yüksəltməli və milli maraqlar əsas götürülməklə, öz vətəninə, dövlətinə sədaqətlə xidmət etməlidir. Ölkə Prezidenti İ.Əliyev qeyd etmişidr ki, hər bir dövlət məmuru xalqın xidmətçisidir. Xalqın birinci xidmətçisi mənəm və bütün dövlət məmurları belə işləməlidirlər [1].

Dövlət qulluqçusu öz fəaliyyətində dövlət idarəçilik sisteminin mühüm və toxunulmaz prinsiplərinə peşəkar səviyyədə əməl etmək qabiliyyətinə malik olmalıdır. İlk növbədə qanunçuluq ali prinsip kimi əsas götürülməklə dövlət qulluqçusu öz vəzifə borcunu şərəf və ləyaqətlə, qərəzsiz və obyektiv yerinə yetirməlidir. Dövlət qulluqçusunun davranışında və hərəkətlərində, qəbul etdiyi qərarlarda, ədalət və bərabərliklə eyni səviyyədə məsuliyyət və hesabatlılıq olmalıdır. Bu meyarlar baxımından dünyanın müxtəlif ölkələrində dövlət qulluqçularının öz peşəkarlıq səviyyəsinin artırılması məsələləri kifayət qədər prinsipial və mühüm əhəmiyyət kəsb edir. Dövlət strukturları bununla əlaqədar olaraq, sistemli və ardıcıl surətdə tədbirlərin reallaşdırılmasını təmin edirlər. Kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, onların yenidən hazırlanması, qlobal təsirlər altında baş verən dəyişikliklərin dövlət qulluqçuları tərəfindən obyektiv reallaıqlar əsasında qavranması və mənimsənilməsi, yeni biliklərin əldə edilməsi dövlət qulluqçusunun öz vəzifəsinin öhdəsindən peşəkar gəlməsində vacib meyarlardandır.

Dövlətin gücü və müdrikliyi ondadır ki, dövlət qulluqçularının peşəkarlığını təmin etmək üçün milli maraqlara adekvat olan işlək mexanizmlər hazırlayaraq tətbiq edə bilsin və bu mexanizmlər mütləq şəkildə ölkədə baş verən obyektiv reallıqlara, proseslərə adekvat olmalıdırlar. Ümumiyyətlə, hər bir ölkənin uğurlu inkişafı onu idarə edən rəhbər kadrların uzaqgörənliyindən, strateji düşünmə qabiliyyətindən, bütövlükdə dövlət qulluğunda çalışanların ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulmuş vəzifələri peşəkarlıqla yerinə yetirilməsindən, öz işinə nə dərəcədə məsuliyyətlə yanaşmasından, müasir dünyanın tələblərini bilməsindən, öz bilik və bacarığını daim təkmilləşdirməsindən çox asılıdır. Bu baxımdan dövlət qulluqçularına verilən tələblər çox yüksəkdir [2]. Dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin təmin edilməsi üçün optimal norma və qaydalar hazırlanmalı, kadrların bilikli və savadlı olması təmin edilməsi, hər bir kadrın nəzəri bilikləri mənimsəməklə yanaşı, onun praktiki fəaliyyətində bu biliklərdən bacarıqla istifadə edə bilməsi səviyyəsi formalaşdırılmalıdır.

Qeyd edək ki, dövlət qulluqçularının peşəkarlığının yüksəldilməsi dünyanın bir çox ölkələrində strateji yanaşmalar səviyyəsinə qaldılımışdır. Bu məqsədlə sistemli tədbirlərin görülməsi, peşəkar kadrların maksimum səmərəli fəaliyyət göstərməsi üçün əlavə stimullaşdırıcı mexanizmlərin hazırlanması və tətbiqi nümunələri də diqqət çəkir. Məsələn, bir çox ölkələrdə, Böyük Britaniya, ABŞ və Almaniyada dövlət qulluqçularının karyera yüksəlişlərinin maddi stimullaşdırılması sistemi mövcuddur [3]. Böyük Britaniyada dövlət qulluqçuları ilə xüsusi saziş imzalanıb və burada dövlət qulluğunda nümunəvi xidmət, həmçinin karyera yüksəlişləri ilə bağlı maddi stimullaşdırmanın şərtləri və həddləri göstərilir. Burada dövlət qulluqçularının daha çevik, mobil və dürüst işləmələri üçün stimullaşdırıcı mexanizmlərin olması diqqət çəkir [4]. Tətbiq edilmiş stimullaşdırıcı mexanizmlər dövlət qulluqçularını daha yaxşı işləməyə və xidmət göstərməyə sövq edir, onlar daha inamlı olurlar, ictimaiyyətlə münasibətlərində sadəliklərini və diqqətli olmalarını üstün tuturlar, adi vətəndaşların problemlərindən yan keçmirlər. Çox vaxtı isə dövlət qulluqçuları şəxsi nümunələr göstərməklə diqqət çəkirlər. Məsələn, dünyanın ən iri paytaxt şəhərlərindən olan – London merinin işə piyada, sadə vətəndaşlarla bir sırada getməsi ilk baxışdan adi görünsə də, insalar arasında şəhər rəhbərliyinə, dövlət qulluqçusuna qarşı daha geniş inam və rəğbət yaradır.

Dövlət qulluqçularının karyera uğurlarının təmin edilməsi, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi məsələləri dünyanın ən güclü və modern dövlət idarəetmə sisteminə malik ABŞ üçün də xarakterikdir. Hər bir dövlət qulluqçusu bu ölkədə özünün karyera yüksəlişi planına malikdir. Bundan əlavə, dövlət qulluğu sistemində yuxarı vəzifələrə təyinat üçün namizədlərin seçilməsi və təklif edilməsi üzrə xüsusi seçim komitələri mövcuddur və bu cür qurumlar ABŞ-ın müxtəlif nazirlik və digər federal, həmçinin ştatlar səviyyəli dövlət orqanlarında da mövcuddur. Hər bir dövlət məmuru və dövlət qulluqçusu özündən bir-iki pillə aşağı vəzifələrdə çalışanlar üçün xüsusi peşəkar kadr səviyyəsini və dövlət qulluğu üzrə fəaliyyətin xarakteristikasını hazırlayır və bununla da dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi üçün obyektiv informasiyalar toplanılır. Qeyd edək ki, ABŞ-da XX əsrin 70-80-ci illərində kadr potensialının yenilənməsi, dövlət qulluğu sistemini təkmilləşdirilməsi, dövlət qulluqçularının hazırlıq səviyyəsinin yüksədilməsi məqsədilə uzunmüddətli dövrü əhatə edən strateji tədbirlər və islahatlar həyata keçirilmişdir. 1978-ci ildə

ABŞ-da dövlət qulluğunun islahatına dair qanun qüvvəyə minmişdir. Bu qanuna görə, dövlət qulluqçusunun seçilməsi və irəli çəkilməsi prinsipləri sırasında əsasən kadrın hazırlıq səviyyəsi, bacarığı, bilik və peşəkarlıq elementləri yer almışdır [5]. Dövlət qulluqçusunun bu qeyd olunan keyfiyyətlərə malik olması onun məsul olduğu sahədə daha səmərəli və faydalı işləməsinin əsas zəmini kimi çıxış edir. Dövlət qulluqçuları peşəkarlıqları ilə fərqlənməli və dövlətin məlum siyasətinin optimal olaraq reallaşdırılmasıda üzərlərinə düşən vəzifələri vicdanla, həm də dürüst, vaxtında yerinə yetirməlidirlər. Buna görə də, dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin yüksəldilməsi müasir dövrdə dövlətlərin ali idarəetmə strukturlarının mühüm vəzifələrindən hesab olunur [6]. 1993-cü ildən başlayaraq ABŞ-da dövlət sisteminin idarə edilməsinin yenidən qurulması prosesləri intensivləşmişdir. Belə ki, həmin ildə ABŞ-da hökumətin səmərəli və məhsuldar işləməsinə dair Qanun imzalanmışdır. Bu qanunda dövlət qulluqçularının fəaliyyətinin nəticələri və onların qiymətləndirilməsi ilə bağlı mühüm müddəalar yer almışdır. Artıq XXI əsrin əvvəllərinə olan dövr üçün ABŞ-da dövlət qulluğu sistemində dövlət qulluqçularının vəzifə və məsuliyyətləri, karyera yüksəlişləri, onların motivasiyasının artırılması ilə bağlı optimal meyarlar və qiymətləndirmə mexanizmləri formalaşdırılmışdır. Ölkədə dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması üçün çoxlu sayda tədris mərkəzləri fəaliyyət göstərir. ABŞ-da rəhbər dövlət qulluğu kadrlarının vəzifə yüksəlişləri ilə bağlı məsələlər də maraq doğurur. Belə ki, karyerayönlü dövlət qulluğu vəzifələrinə yalnız yüksək peşəkarlıq səviyyəsinə malik kadrlar təyin olunur, ümumi dövlət qulluğu vəzifələrinə isə müxtəlif sahələrin nümayəndələri təyin olunur.

Dünyanın iri dövlətlərindən olan Almaniyada da dövlət qulluqçularının fəaliyyətinin yüksək səmərəliliyinin təmin edilməsinə sistemli yanaşma diqqət çəkir. Burada da güclü şəkildə maddi stimullaşdırma mexanizmləri mövcuddur və həmçinin bonus sistemindən də fəal istifadə olunur. Almaniyada dövlət qulluğu strukturlarında rəhbər şəxslər öz tabeliyində olan dövlət qulluqçularını bacarıq və keyfiyyətlərinə, peşəkarlıq səviyyələrinə görə mükafatlandırmaq səlahiyyətlərinə malikdirlər. Bu ölkədə üç səviyyədə: federasiya, torpaqlar və icmalar səviyyəsində dövlət qulluğu məsələləri vahid sistemdə tənzimlənir. Hər üç sistem üçün eyni hüquqlar və vəzifələr, həmçinin qaydalar müəyyənləşdirilmişdir. Dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün ali dövlət idarəetmə məktəblərindən fəal istifadə olunur.

Kanadada dövlət qulluğu sistemi iki pilləli olmasına baxmayaraq, vahid prinsiplər əsasında tənzimlənir. 2000-ci ildə bu ölkədə qəbul edilmiş dövlət qulluğu sisteminin islahatları

proqramında dövlət qulluqçularının bilik və bacarıqlarının, peşəkarlıq səviyyəsinin yüksəlidlməsi məsələlərinə ciddi önəm verilmişdir. Kanadada dövlət qulluqçularını kateqoriyalr üzrə təsnifləşdirərkən, ilk sırada elmi və peşəkar kadrlar əsas götürülür, sonrakı yerlərdə köməkçi heyət, idarəetmə funksiyalarını həyata keçirənlər və digərləri yer almışlar. Dövlət qulluğuna qəbul isə müsabiqələr əsasında aparılır. Maraqlıdır ki, bu ölkədə dövlət qulluqçularının dövlətin apardığı siyasəti tənqid etməyə ixtiyarları yoxdur. Fransada dövlət qulluğu ilə bağlı məsələlərin tənzimlənməsinə yüksək səviyyədə yanaşmalar mövcuddur. Bu məqsədlə ali şura fəaliyyət göstərir və bir çox regional səviyyəli mərkəzlər vardır. Ölkənin beş şəhərində dövlət qulluqçularının hazırlanması və peşəkarlıq səviyyəsinin artırılması üçün regional inzibatçılıq institutları fəaliyyət göstərirlər. İtaliyada dövlət qulluğu sistemi ilə siyasi hakimiyyət bir-birindən ayrı fəaliyyət göstərirlər. Amma məmurların və dövlət qulluqçuların seçilməsi, irəliyə çəkilməsi siyasi hakimiyyət tərəfindən həyata keçirilir. Dövlət qulluqçularının hər biri özlərinin ranq səviyyəsinə malikdirlər. Onların peşəkarlıq səviyyəsinin artırılması üçün mütəmadi tədbirlər görülür. İtaliyada 1962-ci ildən Ali dövlət idarəetmə məktəbi fəaliyyət göstərir [7].

Dövlət qulluqçularının tutduqları vəzifələrə adekvat olaraq yeni biliklər əldə etməsi, öz peşəkarlıq səviyyəsini artıması, dövlətin reallaşdırdığı siyasi və iqtisadi prioritetlərə uyğun olaraq səmərəli fəaliyyət göstərməsi mühüm məsələlər kimi xarakterizə olunur. Bunun üçün hər bir dövlət qulluqçusunun öz işinə peşəkar yanaşması ilə bərabər, fərdi keyfiyyətləri, ümumi bacarıqları, bir sözlə kadr resursu potensialı əsas götürülməklə karyera strategiyasının olması vacibdir. İstənilən hər bir dövlət qulluqçusu karyera motivasiyasının təsiri altında işlədikdə daha çox səmərəli fəaliyyət göstərir və fayda verir. Tədqiqatçı Y.Biliktuyeva haqlı olaraq qeyd edir ki, dövlət qulluqçusunun karyera strategiyasının olması onun kadr potensialının görünməyən tərəfinin daha tez üzə çıxmasına, bacarığının reallaşdırmasına əlavə stimullar verir [8, s.31]. Karyera motivasiyası və müəyyən strategiyaya malik dövlət qulluqçusu öz işinə daha məsuliyyətlə yanaşmağa çalışır, adətən çox nadir hallarda ciddi səhvlərə yol verir və s. Karyera strategiyasına malik dövlət qulluqçuları konfliktlərə yol açmır, məhsuldar işləməyə səy göstərir, qanunlara hörmətlə yanaşır, ədaləti qoruyur, haqsız qərarlar vermir, dövlət siyasətinin əsas müddəalarına, dövlətçiliyə sədaqətlilik göstərir. Buna görə də, dövlət qulluğu sisteminin təkmilləşdirilməsi və dövlət qulluqçularının peşəkarlıq səviyyələrinin artırılması üçün meyarların hazırlanması proseslərində dövlət qulluqçularının karyera strategiyası məsələlərinə ciddi yer verilməlidir. Hər bir dövlət qulluqçusunun maraqları ilə dövlət strukturlarının maraqları arasında balans qorunmalıdır. Dövlət qulluqçuları müasir yenilikləri qısa müddət ərzində və çevik olaraq mənimsəməli, öz peşəkarlıq səviyyələrinin artımına qarşı ciddi tələbkarlıq nümayış etdirməlidirlər [9]. Dövlət qulluqçuları mənəvi-psixoloji baxımından yetkin olmalı, real həyatda digərlərinə nümumə göstərməli, anormal hallara qarşı qətiyyətli olmalı, öz işində şəffaflığı qorumalı, yerlibazlıq, qohumbazlıq, rüşvətxorluq və korrupsiya hallarına yol verməməli, cəmiyyətin və ölkənin davamlı və dayanıqlı inkişafına əngəl olan bu kimi neqativ proseslərdən uzaq durmalıdır. Bunun üçün dövlət qulluqçusu dərin biliklərə yiyələnməli və mürəkkəb məsələlərin həlli yollarının optimal tapılması təcrübəsinə malik olmalı, öz üzərində daha çox çalışmalı, yüksək təşkilatçılıq keyfiyyətləri göstərməlidir. Belə olduğu təqdirdə dövlət qulluqçularının fəaliyyətinin nisbətən daha məhsuldar olması üçün əlavə imkanlar və potensial formalaşır. Dövlət qulluqçuları bürokratik baryerləri operativ aradan qaldırmalı, dövlət orqanlarının daha səmərəli fəaliyyət göstərməsi təmin edilməlidir. Dövlət qulluqçularının dürüst və şəffaf fəaliyyəti ölkədə sosial-iqtisadi proseslərə müsbət təsir göstərməklə bərabər, korrupsiya hallarına və rüşvətxorluğa qarşı mübarizədə də əhəmiyətli rol oynayır [10]. Dövlət qulluğu sisteminin fəaliyyətinin təkmilləşdirilməsi, institusional islahatların aparılması, mərkəzi, regional və yerli dövlət idarəetmə orqanlarının fəaliyyətinin yeni mexanizmlərinin tətbiqində kadr potensialının rolu həlledici əhəmiyyət kəsb edir. Məhz dövlət qulluqçularının səmərəli fəaliyyəti nəticəsində, dövlətin qarşıya qoyduğu strateji məqsədlərə və inkişaf səviyyəsinə çatmaq mümkündür [11; 12]. Bunun üçün hər bir dövlət qulluqçusunun bilik və bacarağından, peşəkarlıq səviyyəsindən adekvat olaraq səmərəli istifadə edilməsi vacib şərtlərdəndir. Dövlət qulluqçusunun inkişafı ilə bağlı məsələlərdə kadr ehtiyatı bazasının formalaşdırılması problemi də diqqət mərkəzində saxlanılmalıdır [13]. Bundan əlavə, hər bir dövlət qulluqçusunun vəzifə və hüquqları kifayət qədər optimal olmalıdır [14]. Dövlət qullquçularının hazırlanması, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi tədbirlərində, əsasən ölkənin siyasi və iqtisadi inkişaf proseslərinin xüsusiyyətləri, milli konsepsiya və təfəkkürlər, adət və ənənələr mütləq şəkildə nəzərə alınmalıdır. Dövlət qulluqçusu peşəkarlıq səviyyəsi baxımından yetkin formaya çatmalı və öz fəaliyyətində yüksək məhsuldarlıqla işləmək bacarığına yiyələnməlidir [15; 16; 17; 18; 19].

Beləliklə, müasir dövrdə dövlət qulluğu sistemində peşəkarlığın artırılması, dövlət qulluqçularının bilik və bacarıqlarının yüksəldilməsi, onların qlobal təhdidlər şəraitində yüksək hazırlıq nümayiş etdirmələri kifayət qədər aktuallaığı ilə fərqlənən problemlərdəndir. Ölkəmizdə strateji yol xəritələrinin reallaşdırıldığı bir şəraitdə universal hazırlığa və peşəkar səviyyəyə malik dövlət qulluqçularının hazırlanması və inkişaf etidirlməsi ciddi zərurət kimi ortaya çıxmışdır. Bu baxımdan, yaxın perspektivdə ölkəmizdə dövlət qulluğu sistemində fəaliyyət götərən dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması üçün mütərəqqi dünya təcrübəsnin daha çox dərindən öyrənilməsi və ölkəmizin siyasi-iqtisadi prioritetlərinə adekvat səviyyədə tətbiqinin təmin edilməsi üzrə kompleks və sisyemli tədbirlərin həyata keçirilməsi vacibdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş konfrans. Bakı, 06 fevral 2014-cü il.

2. İsmayılov S. Peşəkar kadrlar dövlət qulluğunun hərəkətverici qüvvəsidir. http://www.azerbaijan-news.az.

3. Беккужин Р.Ж, Ешенкулов Т.И., Ибраева М.С. Зарубежный опыт материального стимулирования и планирования карьерного роста государственных служащих // Вестник КарГУ, 2016. http://www.articlekz.com.

4. Pyper, Burnham J. The British civil service: Perspectives on "Decline" and "Modernization" // The British journal of Politics and International Relations (Political Studies Association), 2011, №3.-P. 44-48.

5. Государственная служба: комплексный подход/Отв. Ред. А.В.Оболонский. Москва: Дело, 2009.-522 с.

6. Луковцева Е.Н. Профессиональная переподготовка и повышение квалификации государственных гражданских служащих: опыт и практика (на примере ГАУ ДПО «Высшая школа инновационного менеджмента при Главе РС (Я)») // Лидерство и менеджмент, Том 4, №1, январь-март 2017.-С. 25-37.

7. Зенков М.Ю. Зарубежный опыт управления: Государственная служба. Новосибирск: НГАУ, 2004.-130 с.

8. Биликтуева Е.Б. Карьерные стратегии государственных гражданских служащих. Дисс. канд. социол. наук. Москва, 2010.-178 с.

9. Правдин А.А. Зарубежный опыт профессиональной подготовки государственных служащих // Вестник экспертного совета, 2016. http://www.cyberlennka.ru.

10. Камназарова М.М., Сарсенов А. Анализ национальных законодательств зарубежных государств в сфере борьбы с коррупцией (Сингапур, Южная Корея, США, Россия). http://www.sud.gov.kz/rus/print/48.

11. Клищ Н.Н. Повышение результативности деятельности государственных служащих. Автореферат дисс. канд. экон. наук. Москва, 2006.-27 с.

12. Клищ Н.Н. Показатели эффективности и результативности деятельности органа государственной власти и профессиональной служебной деятельности федеральных государственных, гражданских служащих // Стратегия реформы государственного управления в России и ее реализация на региональном уровне. Москва, Издательство «Алекс», 2005.

13. Эйдемиллер М.А. Зарубежный опыт подготовки и формирования кадрового резерва на государственной службе // «Экономика и социум», №1 (32), 2017. http://www.iupr.ru.

14. Макаров В.В. Административно-правовой статус государственного гражданского служащего. Дисс. канд. юрид. наук. Санкт-Петербург, 2008.-171 с.

15. Анисимов Д.П. Организационная культура как фактор социального регулирования поведения государственных гражданских служащих. Дисс. канд. социол. наук. Белгород, 2008.-168 с.

16. Лобода А.Е. Система подготовки, переподготовки и повышения квалификации государственных гражданских служащих: российский опыт и практика зарубежных стран // ЭГО: Экономика. Государство. Общество.-2015, №4. http://www.ego.uapa.ru.

17. Шамахов В.А., Морозов В.И. Подготовка кадров государственных служащих в России: к вопросу о преемственности // Управленческое консультирование.-2012.-№1.-С. 5-17.

18. Заика Е.В. Подготовка кадров государственной службы: зарубежный опыт // Государство и регионы. Государственной управление, 2006, №4.-С. 70-75.

19. Слюсаренко А.Н. О роли кадрового резерва в профессиональном совершенствовании и развитии карьеры государственных служащих // Государство и регионы. Государственной управление, 2006, №2.-С. 205-212.

Açar sözlər: *dövlət qulluğu, dövlət qulluqçularının hazırlığı üzrə dünya təcrübəsi, dövlət qulluqçularının peşəkarlığı, kadr siyasəti, dövlət qulluğu sistemi.*

Ключевые слова: *государственная служба, мировой опыт по подготовке государственных служащих, профессиональность государственных служащих, кадровая политика, система государственной службы.*

Key words: *civil service, world experience in the training of civil servants, professionalism of civil servants, personnel policy, civil service system.*

РЕЗЮМЕ

Важность мирового опыта и проблемы внедрения повышения профессиональности в системе государственной службы

В статье исследована важность мирового опыта и проблемы внедрения повышения профессиональности в системе государственной службы. Анализированы важность постоянного повышения профессионального уровня государственных служб, освоение профессиональных навыков, новых знаний. Рассмотрен опыт ряда стран мира, таких как США, Канада, Великобритания, Германия и Италия по обеспечению стимулирования карьерного роста и повышения профессионального уровня государственных служащих. Обоснована необходимость рассмотрения мирового опыта по повышению профессионального уровня государственных служащих в Азербайджане с учетом национальных интересов и государственной политики страны в нынешних условиях. Обобщены современные взгляды по изучению и применению мирового опыта по повышению профессиональности в системе государственной службы.

ABSTRACT

The importance of the world experience and the problem of introducing an increase in professionalism in the civil service system

The importance of world experience and the problem of introducing the increase in professionalism in the public service system are studied in the article. The importance of constant improvement of professional level of public services, development of professional skills, new knowledge is analyzed. The experience of a number of countries of the world, such as the USA, Canada, Great Britain, Germany and Italy, to provide promotion of career growth and professional development of civil servants is considered. The necessity of considering the world experience on raising the professional level of civil servants in Azerbaijan, taking into account national interests and state policy of the country in the current conditions is justified. The modern views on the study and application of world experience in raising the level of professionalism in the public service system are generalized.

Fəlsəfə

İNSAN VƏ CƏMİYYƏT HƏYATINDA BİNAR QARŞIDURMALARIN ROLU

ZÜLFÜQAR FƏRZƏLİYEV
AMEA-nın Fəlsəfə İnstitutu

Ən qədim dövrlərdən başlayaraq bəşəriyyətin mənəvi inkişaf tarixində binar qarşıdurmalar (oppozisiyalar) böyük rol oynamışdır. Onların bir hissəsi öz rolunu oynayaraq mövcudluğunu başa vurmuş, yaxud insan psixikasının təhtəlşüuri səviyyəsinin nailiyyətinə çevrilmişdir. Digər binar qarşıdurmalar günümüzə qədər mövcudluğunu saxlamışdır ki, bu da insan fəaliyyətinin bütün sferaları və təfəkküründə onların mühüm əhəmiyyət daşımasına şəhadətlik edir.

Sonunculara nümunə olaraq ilk növbədə "mən-özgə" binar qarşıdurması etiraf olunmalıdır. "Mən-özgə" binar qarşıdurması tarixən, ən qədim dövrlərdən özünəməxsus dəyər sistemləri ilə bir-biri ilə rəqabətdə olan müxtəlif sosial institutlarlın (mif, din, konfessiya, etniklik, sivilizasiya, mədəniyyət, ideologiya və s.) fəaliyyəti ilə əlaqəli olmuşdur. Məhz permanent rəqabət bu binar qarşudurmanın günümüzə qədər mövcud olmasını təmin etmişdir.

Heç şübhəsiz ki, belə bir bölgü əsasında müxtəlif növlərin təbii-bioloji inkişafının xüsusiyyətləri dayanır. Buraya növlərin təkamülün lap əvvəlindən mövcudluq və daim qıtlığı hiss edilən təbii resurslar (qida məhsulları) uğrunda mübarizəsi də əlavə edilərsə mənzərə tam aydın olar. Növlərin ən ümumi rəqabətinə əsaslanan bioloji təkamül qarşıdurmaların təməlini qoymuşdur. Qaşıdurmalar isə qərarlaşmaqda olan şüur və təşəkkür səviyyəsində insan birliklərinin müxtəlif qruplara bölünmə modelinə çevrilmişdir.

Bu haqda Ə.S.Abasov yazır: "Bəşəriyyət tarixində, "özünkü-özgəninki" həyat düsturu ilə meydana gəlmiş dözümsüzlük həmişə mövcud olmuş, insanlar, etnoslar və xalqlar arasında saysız-hesabsız toqquşmalar törətmişdir. Mövcudluq uğrunda sərt tarixi şərtlər insana çoxsaylı, fiziki baxımdan daha güclü rəqiblərlə mübarizədən qalib olmaq imkanı yaradan davranış normaları formalaşdıra bilərdi". (1, s.218) Bununla bağlı olaraq müəllif, kanada alimi F.Rastonun fikirlərinə əsaslanaraq fərz edir ki, "özününkü-özgəninki" binar qarşıdurması tarixən konkret bioloji mexanizmlər əsasında formalaşa bilərdi. Belə ki, F.Rastonun fikrincə etnik özünüdərk insana genlərini "öz yaxınlarına" daha effektiv yolla ötürməyə kömək edən altruizm və qarşılıqlı yardım biologiyasının təsiri altında formalaşır. Bu mənada "etnik millətçilik və ksemofobiya altruizmə əlvadir, çünki bir genetik fondun digərinin ixtisarı hesabına yayılmasına yardımçı olur".(2, s.158) Bundan əlavə, "genlər insanlarda, onlarda genetik uyğunlaşma qabiliyyətini gücləndirən ideyaları mənimsəməyə meyl yaradır. Millətçilik, din və sinfi maraqlar müəyyən dərəcədə mədəni

"evlər" olub insanların müəyyən qrupuna sığınacaq verir və onlara öz genlərini irsi olaraq ötürməyə kömək edir, ona görə də, əminliklə söyləmək olar ki, "mədəniyyətlərin müharibəsi" mahiyyətcə elə "genlərin müharibəsidir"". (2, s.161)

Əgər ibtidai insanların həyat şəraiti daha əlveişli olsaydı, onda genetik-bioloji xüsusiyyətlərin "özününkü-özgəninki" binar qarşıdurmaların meydana gəlməsinə rolu bu qədər əhəmiyyətli olmazdı. Onlarin insanların ilkin identiklik və davranış tərzini müəyyənləşdirən mədəniyyətə güclü təsir göstərə də bilməzdi. Deməli, buradan belə nəticə çıxarmaq olar ki, mədəniyyət insanın xüsusi tip mənəviyyatının əsasını qoymuş təbii və sosial xüsusiyyətlərinin nəticəsidir. İnsanın keçmiş və müasir fəaliyyətinin təhlili zamanı məhz bu amil nəzərə alınmalıdır. "Yalnız insanların müəyyən dəyərlər ətrafında vəhdətləşməsi şəraitində mövcudluğu mümkün olan mədəniyyət məcburən onların antipodlarının –bu dəyərlərin "düşmənlərini" obrazlarını da formalaşdırır. Uyğun olaraq, "müharibə mədəniyyəti" və "müharibə dili" bəşəriyyətin tarixi inkişafında formalaşmış gerçəklikdir". (1, s.219)

Belə olduğu təqdirdə, iqrar etmək zəruridir ki, oxşar praktika insanın bütün xarici dünyasını, onun yaxın və uzaq ətrafının "özününkü" və "özgəninki"nin özünəməxsusluğu ilə nisbətdə götürülmüş dəyər normalarını verən özünəməxsus psixika tipi də formalaşdırmışdır.

Beləliklə, ibtidai insanların dünyagörüşünün yaranması fonunda onların, əks qütblü pozitiv və neqativ baxışların təsiri ilə formalaşan xarici məkanları müəyyənləşmişdir. Qeyd etmək zəruridir ki, məhz bu müəyyənləşmənin gedişində coğrafi məkan sosiomədəni məkana çevrilmişdir. Sosiomədəni məkan isə əvvəlcə mifik və dini, sonrakı mərhələdə isə ideoloji və siyasi baxışlar və konsepsiyalarla tamamlanmışdır. Eyni zamanda, "öz" konsepsiya və baxışlar norma, sarsılmaz nizam kimi qəbul edidiyi halda, "özgə"ninkilər anormal, hətta xaos, "özünün" nizamına düşmən qismində səciyyələndirilir.

Artıq qeyd etdiyimiz kimi, belə proseslərin təsiri ilə, "özünün" və "özgəninkinin" müxtəlif qarşılıqlı təsir tipləri insanın təfəkküründün (şüurunun) inkişaf amili olmuş və sosial fəaliyyətin özünəməxsus kodunu formalaşdırmışdır. Belə sosial fəaliyyətin gedişində "başqası" və "qeyrisi" kimi aralıq anlayışların ara-bir cəlb olunması yolu ilə mürəkkəbləşən "özününkü" (tezis) və "özgəninki"nin (antitezis) sintezi sonsuz gerçəkləşmişdir. Aşkardır ki, müxtəlif insan birliklərini fərqləndirən bütün bu anlayışlar nəinki öz mənasına görə dəqiq fərqlənmiş, həmçinin qarşılıqlı əlaqədə olan sıralar əmələ gətirmişdir. Belə ki, "başqası" və "qeyrisi" daha neytraldır və "özününkü-özgəsinki" kimi sərt qarşıdurmanı yumşaltmağa imkan verir, bununla da insanlara onların dəyər və həyat fəaliyyəti tipinə birbaşa təhlükə və risk törətməyən çoxobrazlı münasibətlər qurmağa imkan vermişdir.

Bununla əlaqədar olaraq "özgə" fenomeninin "özününkü" fenomeninə qarşı qoyulmasını sosiomədəni məkanın formalaşmasının ilkin amili kimi izah etmək lazımdır. Məhz sosiomədəni məkanın formalaşması bəşəriyyətin əks qütblü ziddiyyətlərə əsaslanmış tarixi dialektik inkişaf perspektivini müəyyənləşdirmişdir. Bu proses sosiomədəni məkanda, müxtəlif növ kommunikasiyaların gerçəkləşdiyi xüsusi "aralıq" sahəni formalaşdırıb.(3)

"Özgə" amili kommunikasiyanın aktiv tərkib elementidir, çünki onun meydana gəlməsinə və inkişafına kömək edir. Bununla birlikdə, İ.V.Paxolovanın qeyd etdiyi kimi, "bu, hansısa yolla fəaliyyət göstərir, həmçinin fəaliyyətə məcbur edir, daha doğrusu, "özgə" müstəqil fəal qüvvə kimi təzahür edir". (4, s.15)

Sivilizasiya və mədəniyyətlərin qarşılıqlı təsiri kontekstində "özününkü-özgəninki" qarşıdurmasının əsas təzahürü müxtəlif sivilizasion-mədəni zonaların dayanıqlı qarşı-qarşıya qoyulması qismində formalaşıb. Sonradan belə zonalar geopolitika və kulturologiyada rəqabət amili olaraq mərkəzi rollardan birini oynayan Qərb və Şərq, Şimal və Cənubun qarşı-qarşıya qoyulmasında təcəssüm etmişdir. Yaranmış rəqabətin tarixi inkişafın mühüm səbəblərindən biri olmasına baxmayaraq, o həm də daha çox müharibələrlə sonuclanan münaqişələrin yaranmasına da yardımçı olmuşdur.

Tarixi situasiyadan asılı olaraq "özününkü-özgəninki", konkret zaman ərzində üstünlük təşkil edən dəyərlərin toxunma və rəqabət nöqtələrində əhəmiyyətinə görə dərəcələnir. Belə ki, dini dəyərlər arasındakı rəqabət ideologiyaların bloklar şəklində qarşıdurması ilə əvəzlənmiş, "soyuq müharibə" başa çatdıqdan sonra isə müxtəlif dəyərlərə əsaslanan sivilizasiyaların rəqabəti müşahidə edilmişdir (məsələn, S.Hantinqton hesab edir ki, bu etno-konfessional dəyərlərdir, F.Fukuyama isə ön plana ideoloji və siyasi doktrina dəyərlərini çıxarır). Xarakterik haldır ki, "hal-hazırda beynəlxalq münasibətlər sferasında etiraf edilir ki, milli və regional identiklik "özününkü" obrazının, onun özünəməxsus neqtivi olan Qeyrinin obrazı ilə müqayisə əsasında formalaşır". (4, s.17)

"Özününkü-özgəninki" qarşıdurmasının bitib-tükənməyən axını onların aradan qaldırılmasının nəzəri və praktik konsepsiya və metodologiyasının yaranmasına səbəb olmuşdur. Tarixən belə olmuş, "özününkü-özgəninki" qarşıdurması ilə bilavasitə, yaxud bilvasitə əlaqəli olan sferaların əhatəli şəkildə tədqiq olunduğu müasir dövrdə də bu davam edir.

Bununla əlaqədar olaraq dilin tədqiqi xüsusi maraq doğurur. Ümumiyyətlə son dövrlər dilin əyani gerçəkliklə əlaqəsi qəti şəkildə yenidən nəzərdən keçirilir. Belə ki, bir qrup tədqiqatçı Eduard Sepir və Bencamin Uorfun hipitezinə əsaslanaraq belə hesab edirlər ki, "...müəyyən mənada sosial gerçəklik dildə qurulur və kateqoriallaşdırılır. Bu onu bildirir ki, diskursiv praktikada Qeyrinin adlandırılması sosial gerçəkliyin qrupları arasında sərhədlər qoyur, yaxud bu sərhədləri möhkəmləndirir". (5, s.73)

Deməli insanın daxili və zahiri nitqi də "özününkü-özgəninki" qarşıdurmasına məruz qalmışdır və bununla əlaqəli olaraq belə nitq monoloq səciyyəsi daşıyır: insan həm öz adından, həm də onun ixtiyari olaraq öz fikir və sözlərini aid etdiyi Qeyrinin (özgənin) adından fikirləşir və danışır. Qeyrisi ilə birbaşa münasibətdə olmağlı bildirən dialoq ilk əvvəl insan üçün əsl şok effekti yaratmışdır. Çünki o, gerçəkliyin onun öz uydurduqlarından kəskin fərqləndiyini bilavasitə anlayır.

Monoloq və dialoq kommunikasiya formaları olub, qəti şəkildə bir-birindən fərqlənirlər. Onlardan birincisini bir mədəniyyət daxilində kommunikasiya forması, ikincisini isə iki, fərqli mədəniyyətlər daxilində kommunikasiya forması adlandırmaq olar.

Son zamanlar monoloji və dialoji qarşılıqlı təsir polioloji, yəni üç və daha artıq tərəfin qarşılıqlı təsiri ilə tamamlanır ki, bu da poliloqun mürəkkəblik və sistemliyinin göstəricisidir. Bununla əlaqədar olaraq, yuxarıda qeyd olunduğu kimi, "yad" binar qarşıdurması "qeyrisi" termini ilə əvəzlənir. Bu da qarşıdurmanın səviyyəsini əhəmiyyətli dərəcədə yumaşltmağa imkan verir. "Poliloq başqacürəliyin etirafı və ona hörmət, mədəni və sivilizasion fərqlərin aradan qaldırılması yox, onların kultivasiyasıdır, o sivilizasion identikliyi bir yox, çoxsaylı "Qeyrilər"lə qarşılıqlı təsirini



formalaşdırır". (6, s.9) Beləliklə: monoloq müharibə və düşmənçilik amilinə çevrilir, eyni zamanda dialoq etibar və anlaşmanın başlanğıcı, poliloq isə sülhün dili və mədəniyyəti olur.

Belə bir tezis formulə etmək olar: Günümüzə qədər mövcud olan fasiəsiz bəşər mədəniyyəti "müharibə mədəniyyətidir". Tarixə aid kitablara baxmaq kifayətdir, demək olar ki, onların hamısı qəddar zorakılıqların, insanların bir-biri ilə mübarizəsinin, qanlı müharibə və inqilabların təsviri ilə doludur. Onların əsas qəhrəmanları olan krallar və sərkərdələr bəşər mədəniyyəti və sivilizasiyasını yaradan sadə insanların üzərinə kölgə salır. Əslində tarix yalnız müharibələr yox, əsasən insanların dünyanı yaxşılaşdırma yollarının axtarış tarixi olmalıdır.

Qeyd etmək lazımdır ki, müharibə və sülh cəmiyyət həyatının iki əsas vəziyyətidir.Alimlər aşkarlamışlar ki, aqressiv davranış heyvanlarda da müşahidə olunur. Belə davranış onlara mövcudluq uğrunda sərt mübarizə şəraitində sağ qalmağa kömək edir. Mübarizə həm eyni növün nümayəndələri arasında, həm də müxtəlif növ heyvanlar arasında baş verir. Adətən eyni növdən olan heyvanlar qida, ərazi, qrupda birincilik uğrunda mübarizə aparırlar. İnsan nəinki bu mübarizəni davam etdirmiş, hətta onun qaydalarını dəyişmişdir. Mədəniyyətin inkişafı insanın özünü müdafiə və düşmən qüvvələrlə mübarizə şəraitində sağ qalmaq qabiliyyətini daha da artırmışdır. Məhz mədəniyyətin inkişafı insana həyatda öz yeri uğrunda daha qorxunc rəqiblər üzərində qələbə qazanmaq imkanı vermişdir. Əvvəlcə bu rəqiblər təbiətin özü və yırtıcı heyvanlar olub. Sonra bu düşmən qismində üzərində qələbə qazanmağın və hakimiyyətin bərqərar etməyin lazım olduğu digər insan çıxış edir. Digər insan üzərində hakimiyyət daha çox üstünlük və müdafiə imkanı verir, ona görə də hakimiyyətə canatım insanın yaşam şərtlərindən biri olur. Hakimiyyətin əldə edilib möhkəmləndirilmə vasitəsi isə heyvanlara bəlli olmayan insanın ixtirası –müharibə olur. Alimlərin hesablamalarına görə 40 nəfərdən ibarət qədim tayfaya yaşamaq üçün 100 kv.km ərazi lazım olmuşdur ki, onu da mübarizə ilə əldə etmək və yadlardan qorumaq lazım gəlmişdir. Digər tayfa nümayəndəsi düşmən hesab olunur, onu insan saymırdılar. O vəhşi heyvan hesab olunurdu, onu öldürmək olardı və lazım idi. Müharibələr zəifləri məhv edir, güclülərə geniş imkanlar verirdi. Tayfanı məhz güclülər səfərbər edir, tayfa insanlarını toparlayırdı. Müharibə inasana çoxlu üstünlüklər verir və eyni zamanda onun əmək qabiliyyəti və zəkasını inkişaf etdirərək insanın özünü dəyişirdi. Məhz müharibələr insanın Yer üzərinə yayılmasına yardımçı olmuşdur.

Müharibə rəhbərin (başçının) kişilər və bütün kişilərin isə qadınlar üzərində hakimiyyətini möhkəmləndirir. Aclıq və ölüm adi hala çevrilir və bəşəriyyətin inkişafını ləngidir. Dəfələrlə aclıq və xəstəliklər səbəbindən insan nəslinin növ olaraq Yer üzərindən silinməsi təhlükəsi yaranmışdır.

Belə sərt şəraitdə rəhbərin digər insanlar üzərində hakimiyyəti hüdudsuz olmuşdur: o hər hansı insanı həyatdan və qida məhsullarından məhrum, hakimiyyətini qorumaq üçün güc tətbiq edə bilərdi. Xüsusilə insanların, hakimiyyətin seçilmiş insana Allah tərəfindən əta olunduğuna inamları buna şərait yaradırdı. Müharibə tədricən rəhbərin insanlar üzərində hakimiyyətini möhkəmləndirməyə və dövlətin yaranma səbəbinə çevrilir. Hakimiyyət və müharibədən istifadə edən dövlət qul əməyi və sərvətin hesabına varlanır.

Bəşəriyyət, tarixi inkişafında müharibə və sülh mədəniyyətlərinin qarşı-qarşıya durub mübarizə apardığı həddə yaxınlaşıb. Amma, əgər bəşəriyyətin böyük narazı əksəriyyətinin müqavimətini qırmaq məqsədilə təcavüz metodlarından istifadə olunduğu müharibə mədəniyyəti azsaylı güc və hakimiyyət sahiblərinə fayda gətirirsə, güc tətbiq etməmə, dialoq və tolerantlıq metodlarından istifadə edən sülh mədəniyyəti planetin bütün insanlarına münasibətdə ədalətli olacaq yeni dünya qurmağa cəhd edir. Yer planetində qələbə qazanmaqdan öncə, sülh mədəniyyəti insanın şüur və təşəkküründə müharibə mədəmiyyətinə qalib gəlməlidir. İnsan dünyada zorakılığa qarşı yönəlmiş yeni şüur, yeni təşəkkür və yeni davranış hazırlamalıdır. Bu gün insanın sağ qalması üçün onun öz təşəkkürünü dəyişməli olduğundan çox danışılır. Yeni insan təşəkkürü ekoloji olmalıdır, yəni insanı bu dünyada canlı və cansız təbiətlə harmoniyada yaşamağa öyrətməli və buna məcbur etməlidir. Lakin bu yolda yenə də dünyanı fəth etməyə çalışan, insanın güc və qüvvəsini vəsf edən müharibə mədəniyyəti dayanır. Deməli, sülh mədəniyyəti, insanın növ olaraq eqoizmini dəf edən, onu özü haqqında bütün canlı və cansız dünyanın bir hissəsi kimi düşünməyə vadar edən yeni istiqamət ekologiya qismində yeni müttəfiq tapır.

Etik və dünyagörüşü idealları, humanist tolerantlıq prinsipləri, sülh mədəniyyəti prinsipləri son dərəcə vacibdir. Lakin onların cəmiyyətdə geniş yayılması, opponentlər tərəfindən etirafı, yaxud ciddi əsaslandırılmış inkarını tələb edən yoxlanılmış və təsdiqlənmiş faktlar əsasında mümkündür. Mahiyyətcə bütün bu prinsiplər opponentlərin prinsipləri ilə diqloqa girməli və öz həyatiliyini sübut edərək insan cəmiyyətinin inkişafına səmərəli şəkildə yardımçı olmalıdır. Son nəticədə söhbət iki mədəniyyətin dialoqundan gedir. Onlardan biri (müharibə mədəniyyəti) praktiki olaraq bəşər cəmiyyətinin bütün inkişaf təcrübəsinə malikdir, ikincisi (sülh mədəniyyəti) hələ indi, həm də praktiki deyil, sırf nəzəri planda bəşəriyyət tərəfindən mənimsənilir.

Artıq uzun müddətdir ki, fərdi insan psixologiyası ilə yanaşı, sosiumun psixikasını bütövlükdə quran və ona görə də onda əvvəllər məlum olmayan sferaları aşkarlamağa imkan verən sosial psixologiya sahəsində tədqiqatlar aparılır. (7, s.128)

Belə bir fakt aşkar olur ki, ümumi prosesə qoşulmuş və vahid sistem əmələ gətirən qarşıduran tərəflər müxtəlif dövrlərdə bir-birindən fərqlənən psixoloji qaydalardan çıxış etməklə düşünür və fəaliyyət göstərirlər. Onlar ictimai şüur və sosial fəaliyyətin müxtəlif qaydalarını formalaşdıran psixi fəaliyyətin müxtəlif səviyyələrinin əsiridirlər. Qarşıdurmaların necə cərəyan etməsindən asılı olaraq tərəflər psixoloji qaydalarını "dəyişə", bəzən də "güzgü" effektinə

müvafiq olaraq bir-birinin əvvəlki və sonrakı davranış mövqelərini təkrarlaya bilərlər. Tərəflərin hər bir dialoqunun başlanğıc şərtləri problemlərin "vahid psixoloji sahədə" müzakirəsinə hazırlıqdır. Bu zaman "özününkü-özgəninki" sistemində münasibətlər, qətiyyən sərhədlərin yuyulmasını yox, daimi, gərgin, hər iki tərəfin maraqlı olduğu dialoqu ehtiva edir. Heç bir halda özgəsi özününkü kimi ortaq məxrəcə gətirilməməlidir. Hər iki tərəfin maraqlı olduğu dialoqa, bəşəriyyət məhz öz çoxobrazlığında vəhdətdədir faktının anlaşılması da əlavə edilməlidir.

Antimilitarist şüurun qərarlaşması və sülh mədəniyyətinin formalaşması, bütün siyasi sistemin deyil, hələ ki, yalnız vətəndaş cəmiyyəti çərçivələrində olsa belə "monoloq fəlsəfəsinin" ilk aşınma elementidir. Deməli, vətəndaş cəmiyyətində sülh mədəniyyəti mentallığının inkişafı, xüsusilə totalitarizmdən demokrtiyaya keçid mərhələsində yaşayan ölkələr üçün zəruri olan formalaşmış ümmbəşəri dünyagörüşünün dəyişdirilmə yoludur. Başlamış XXI əsr bəşəriyyətin, münaqişələrin güclə həll metodlarının virtuallaşdırma yollarının mənimsəmə dövrü ola bilər. Bu isə sülh mədəniyyətinin və "dialoq fəlsəfəsinin" inkişafını tələb edir. Bunun üçün isə "müharibə dili" monoloqunun "sülh dili" dialoqu ilə əvəzlənmə praktikasını öyrənmək lazımdır.

Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticələr çıxarmaq olar:

İnsanların şüurunda ən qədim zamanlardan günümüzə qədər "özününkü-özgəninki" binar qarşıdurması (yaxud, onların müxtəlif variantları) mühüm rollardan birini oynayıb. Tədricən bu qarşıdurmalar insan həyatının bütün sferalarını əhatə etmiş və sosial institutlar və mədəniyyətin əsasına çevrilmişdir. Nəticədə insanların şüur və təfəkküründə bu qarşıdurmaların dominantlığı, bəşəriyyətin tarixi inkişafının gedişini, onun sivilizasiya və mədəniyyətinin tipini əhəmiyyətli dərəcədə müəyyənləşdirən bitib-tükənməyən düşmənçiliyə çevrilmişdir.

"Özününkü-özgəninki" qarşıdurması əsasında qurulmuş mədəniyyət insanın səciyyəvi mənəviyyat tipi yaradan təbii, biologi-genetik və sosial xüsusiyyətlərinin nəticəsidir.

Tarixi şəaraitdən asılı olaraq "özününkü-özgəninki" qarşıdurmasının dərəcələndirilməsi konkret zaman müddətində dominantlıq edən dəyərlərin təmas və rəqabət nöqtələrində baş verir.

"Özününkü" və "özgəninkiyə" bölünmənin nəticələrinin aradan qaldırılmasının nəzəri və praktiki konsepsiya və metodologiyası kollektiv şüur, KİV, kütləvi mədəniyyət və ideoloji-siyasi doktrinalar sahəsində hazırlanır.

"Özününkü-özgəninki" qarşıdurması insanın daxili və zahiri nitqinə də nüfuz edib, bununla əlaqəli olan nitq "monoloq" səciyyəsi daşıyır; ""özgə ilə birbaşa münasibəti ehtiva edən dialoq isə gerçəkliyin uydurmalardan kəskin şəkildə fərqləndiyini göstərir.

Monoloq və dialoq kommunikasiya formasıdır: birincisi bir mədəniyyət daxilində kommunikasiya forması, ikincisi isə biri digərindən fərqlənən iki mədəniyyət arasında kommunikasiya formasıdır.

Poliloq –üç və daha artıq tərəfin qarşılıqlı təsirdə olmasıdır, bu zaman binar qarşıdurmadakı "özgəsi" termini "qeyrisi" termini ilə əvəzlənir. Bu isə tərəflərin qarşıdurmasını əhəmiyyətli dərəcədə yumşaltmağa imkan verir.

Monoloq müharibə və düşmənçilik amilidir, dialoq etibar və anlamanın başlanması, poliloq –sülh dili və mədəniyyətinin başlanğıcıdır. Kommunikasiyanın hər üç tipini klassik, qeyri-klassik və post-qeyri-klassik idrak tipləri ilə uzlaşdırmaq olar.

Müharibə və sülh kimi iki mədəniyyət qarşı-qarşıya dayanır və bir-biri ilə mübarizə aparır. Sülh mədəniyyəti müxtəlif sivilizasiya və mədəniyyətlərin dəyər elementlərinin daxil olacağı ümumbəşəri mədəniyyətin bərqərar olması yolunda atılmış ilk addımdır.

ƏDƏBİYYAT

1. Abasov Əli. Müasir dövrünün sosiomədəni problemləri. B., 2006, Səda nəşriyatı, 376 s.

2. Растон Ф. Теория генетического сходства и корни этнических конфликтов. Реферативный журнал: Социальные и гуманитарные науки. Философия. М., №4, 1999, с.158-163.

3. Илиополова К. С. Противоречие " Свой-Чужой» в социокультурной коммуникации (социально-философский анализ). Автореф. диссер. на соискание ученой степени кандидата философ. наук по специальность 09.00.11 - социальная философия. Ростов-на-Дону 2010., 24 с.

4. Пахлова И. В. Социокультурный опыт чужого. Автореф. Диссерт. на соискание ученой степени кандидата философ. наук по специальности 09.00.11 - социальная философия. Самара, 2010, 24 с.

5. Понарин Э. и др. Индекс (ин)толерантности прессы С.72 - 106., в кн.: Язык вражды против общества.

6. Зарова Е. Д. Образ Другого» в становлении цивилизационной идентичности. Автореф. Диссерт. на соискание ученой степени кандидата философ. наук по специальности 09.00.11 — социальная философия по философским наукам. Саратов., 2009, 24 с.

7. Основы социального психоанализа. РЖ. Социальные и гуманитарные науки. Социология. М., №1, 1998, с.127-150.

Açar sözlər: *binar qarşıdurma, monoloq, dialoq, poliloq.*

Key words: *binry opposition, monologue, dialogue, polilogue.*

Ключевые слова: *бинарная оппозиция, монолог, диалог, полилог.*

Зульфугар Фарзалиев

Роль бинарных оппозиции в жизни человека и общества.

РЕЗЮМЕ

В статье выявлено зарождение бинарных оппозиций «свой – чужой» и их роль в жизни общества. Обосновывается влияние этих оппозиций на формирование «культуры войны» и «культуры мира». Исследуется роль выступающих в формах коммуникации монолога, диалога и полилога в преодолении негативных последствий бинарных оппозиций.

Zulfugar Farzaliev

The role of binary oppositions in the life of man and society.

SUMMARY

The article reveals the origin of binary oppositions "one's own" and "another's" and their role in the life of society. The influence of these oppositions on the formation of a "culture of war" and a "culture of peace" is substantiated. The role of the monologue, dialogue and polylogue in the forms of communication in the overcoming of negative consequences of binary oppositions is investigated.

Multikulturalizm

MULTİKULTURALİZM MÜASİR CƏMİYYƏTİN SOSİAL-MƏDƏNİ MODELİ KİMİ

NƏRMİNƏ QASIMOVA
AU-nun "İctimai elmlər" kafedrası

Qloballaşan cəmiyyətin sosial və intellektual inkişafı müasir dünyada baş verən siyasi proseslərə birbaşa təsir etmək mexanizminə malikdir. Etik cəhətdən inkişaf etmiş cəmiyyətlər dünyada sülhün bərqərar olmasına və beynəlxalq münasibətlərin müsbət məcrada inkişafına böyük təsir göstərir. Müasir multimədəniyyətlərin toplusu olan cəmiyyətlər kulturaloji kontekstdə düzgün siyasi kurs seçməklə, sabit inkişafa nail ola bilərlər.

Hər bir xalqın milli mədəniyyəti ümumbəşəri mədəniyyyətin tərkib hissəsidir. Ümumbəşəri mədəniyyət isə özlüyündə tarixən yaradılmış mənəvi dəyərləri əks etdirərək, ümumplanetar xarakter daşıyır və dünya xalqları ilə mədəni əlaqələr sayəsində harmonik inkişaf edir. Dünya miqyasında mədəniyyətlərarası dialoqun qurulması və coxmədəniyyətlilik, çoxkonfessiyalılıq fonunda dözümlülük mühitinin yaradılmasında humanist dünyagörüşü olan multikulturalizm fəlsəfi nəzəriyyəsi sivil cəmiyyətlərin ideoloji sahədə yürütdükləri siyasətə çevrilməkdədir. Müasir multikultural cəmiyyətin yaranması prosesi nəticəsində ictimaiyyətin fəlsəfi konsepsiyaları da əhəmiyyətli dəyişikliklərə uğrayır. Qlobal cəmiyyətin əsas fəlsəfi konsepsiyalarından biri də multikulturalizm nəzəriyyəsi və təcrübəsidir ki, onun da əsasını müxtəlif mədəniyyətlərin qarşılıqlı anlaşması, birgə fəaliyyəti və habelə onların bərabərhüquqlu dialoqu təşkil edir.

Müasir dövrün tələbi kimi cəmiyyətin inkişafı prosesində müxtəlif etnosların və etnik mədəniyyətlərin mübadiləsi və dialoqu daha intensiv xarakter almaqdadır. Qloballaşma çərçivəsində beynəlxalq mədəni dialoqlara ehtiyac daha geniş vüsət alır. Cəmiyyətlərin və mədəniyyətlərin yaxınlaşması prosesi nə qədər geniş xarakter alsa da, qloballaşma şəraitində onlar arasında ayrılıq da bir o qədər aydın görünür. Siyasi-mədəni cəmiyyətdə milli-mənəvi dəyərlər önə çəkilməklə , daha da inkişaf etdirilməklə yanaşı, dünya mədəniyyəti ilə tanışlıq, müxtəlif dinlərə sitayış, digər etnosların adət-ənənələrinə hörmət mənəvi dəyərlərin zənginləşməsinə səbəb olur və çoxmillətli mədəni sferada yaşam tərzini formalaşdırır ki, bu da öz növbəsində müasir cəmiyyətdə mədəni plüralizmə şərait yaradır. Ümumiyyətlə, müxtəlif mədəniyyətlərin mövcudluğu cəmiyyətin sosial-mədəni inkişafının mühüm faktorudur. Bu mövcudluq insanın həyat fəaliyyətinin bütün aspektlərini əhatə edir . Mədəniyyət müxtəlif sferalarda öz təzahürünü tapır. Vahid dünya mədəniyyəti deyilən bir anlayış hər zaman humanist prinsiplərin mövcudluğu üçün baza rolunu oynamışdır. Müasir dünyada baş verən sosial-mədəni proseslər məhz qarşılıqlı mədəni anlaşmaya əsaslanır. İnsanlar arasındakı qarşılıqlı anlaşma mədəni dialoqun bütün prinsiplərini özündə ehtiva edir. Mədəniyyətlərin dialoqu, mədəni plüralizm geniş kütlə tərəfindən qəbul edildikdə, nəzəriyyədən praktikaya keçərək bir çox cəmiyyəti narahat edən problemlərin həllinə yol açır. Cəmiyyətin mədəni inkişafı milli özünüdərk prosesinin tərkib hissəsidir. Etnik konsepsional münasibətlər mədəniyyətlərarası dialoqun müsbət yöndə inkişafına zəmin yaradır. Bu da öz növbəsində eqosentrizmə qarşı qoyulur. Əslində ümumdünya mədəniyyəti insanlığın, humanizmin inkişafına xidmət edir.

Bu gün müasir dünyada intensiv mədəni dialoqla bərabər qarşılıqlı mübadilə də mövcuddur ki, bu da özlüyündə qarşılıqlı mədəni fəaliyyətə, mədəniyyətlərin yaxınlaşmasına, assimilyasiyasına, diffuziyasına, habelə, konverqensiyasına münbit şərait yaradir. Sivilizasiyaların yaxınlaşması sonda həm də iqtisadi birlik ücün əhəmiyyətlidir. Ölkələrin yaxınlaşması elm və təhsil sahəsində, qlobal problemlərin həllində ümumi nəaliyyətlərin əldə olunmasına xidmət göstərir.

Mədəni plüralizmin kökləri çox qədimdir. Heç bir xalq , millət və mədəniyyət öz-özünə, təkcə yarana bilməz. Mədəniyyətin inkişafı müxtəlif xalqların qarşılıqlı əlaqəsindən, sintezindən asılıdır. Dünyada universallıqdan tədric olunmuş mədəniyyət yoxdur. Yalnız mədəni universallıq sivilizasiyaların inkişafını təmin edir. Mədəni universallıq müasir cəmiyyətdə müxtəlif mədəni ənənələrin qlobal sivilizasiya kontekstində kreativ dialoqudur. Bu həm mədəni, həm də siyasi hadisədir. Qloballaşan dünyada baş verən çoxsaylı problemləri yalnız qarşılıqlı anlaşma əsasında həll etmək mümkündür. Mədəni plüralizm prinsipləri mədəni postmodernizmin əsas qayəsidir və mədəni əlaqələrin inkişaf etdirilməsi zamanın tələbidir. Homogen mühüt cəmiyyətin dinamik inkişafını ləngidən faktordur. Məsələn, Avropa ölkələrini ayrılıqda heç təsəvvür etmək mümkün deyil. Necə ola bilər ki, bir reqionda, bir qitədə yaşayasan və biri-birindən tədric olunmuş olasan? Bu sadəcə absurddur. Eyni kökdən olan mədəniyyətlər biri-birinə daha yaxın və oxşardırlar. Məsələn, ümumtürk mədəniyyəti deyilən bir anlayış mövcuddur ki, bu etnik qrupa aid olan

xalqların mədəni kökləri eyni oldugundan, mədəniyyətləri, adət-ənənələri mahiyyət və xarakterca oxşardırlar, lakin hər bir xalq özlüyündə yalnız ona məxsus milli mədəniyyətə, adət-ənənəyə, milli identikliyə məxsusdur. Mədəniyyətin müxtəlifliyi heç də bəşəriyyəti, sivil cəmiyyətləri narahat etməməlidir, beləki , bir xalqın mədəniyyəti digər bir xalq və ya millət üçün qəbuledilməz olsa belə, ona hörmətlə yanaşılmalıdır. Digər mədəniyyətlərin və sivilizasiyaların mahiyyətini, tarixini, nümunələrini öyrənmədən , onlara qarşı tolerant münasibət, qarşılıqlı anlaşma, mədəniyyətlərin və sivilizasiyaların dialoqu mümkün deyil.

Mədəni müxtəliflik qloballaşan dünyada bir çox inkişaf etmiş dövlətlərdə heç də yekdilliklə dəstəklənən siyasi kurs deyildir. Bu siyasətə qarşı çıxanlar da var. Lakin , bu da bir faktdır ki, bu gün əksər dünya dövlətləri bu və ya digər dərəcədə kultural müxtəlifliklə qarşılaşmışlar. Bu gün dünya açıqdır. Hər hansı bir ölkədə istənilən sayda turistlərə rast gəlirik. Bu da mədəni müxtəlifliyi yayan faktdır.Tolerantlıq , dini dözümlülük müasir sivilizasiyada insanların təhlükəsiz şəraitdə yaşamasının ən mühüm şərtlərindən biridir.Tolerantlıgın tərkib hissisi olan multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri vasitəsidir. Fərqli mədəniyyətlərin mahiyyətini, xarakterik əlamətlərini, tarixi öyrənmədən digər mədəniyyətlərə qarşı tolerant münasibət, onların daşıyıcılarına hörmət bəsləmədən mədəniyyətlərin və sıvılızasiyaların dialoqunu qurmaq mümkün deyil.

Fəlsəfi aspektdə multikulturalizm termini geniş anlam kəsb edərək müxtəlif dəyərləri özündə birləşdirən sosial subyektlərin mənsub olduqları mədəniyyətlərin ümumiləşmiş ifadəsidir. Mədəniyyət dedikdə fərdlərin və ya sosial qrupların daşıdığı etnik, sosial, dini, irqi, tarixi, əxlaqi dəyərlər sistemi başa düşülür. Mədəniyyət hər bir xalqın milli kimliyinin irsən qoruyucusudur . Mədəni müxtəlifliyin varlığı və dəyəri cəmiyyət tərəfindən qəbul edilməli, onların siyasi təşkilatlanması multikulturalist siyasət formasında dövlət tərəfindən təşviq edilməlidir. İsveçrə, Kanada, Avstraliya, Azərbaycan bu baxımdan multikultural ölkələr hesab edilir. Buradan belə nəticəyə gəlmək olar ki, multikulturalizm hər hansı bir toplumun xüsusiyyəti deyil, siyasi proqramdır. Multikulturalizm həm də cəmiyyətin milli özünüdərkidir.

Qloballaşan müasir dünya multikultural dövlət modelini yarada bilsə , bu siyasət bir çox mürəkkəb məsələlərin həllində mühüm rol oynayar. Mədəni plüralizm , mədəni müxtəliflik multikulturalizmin fəlsəfi aspektlərini müəyən edir. Milli mənsubiyyəti əsas götürərək , özünəqaydışa əsaslanaraq fərqli mədəniyyətlərin mənimsənilməsi multikultural cəmiyyətin əsas istiqamətidir.

Multikulturalizm dünyada ayrıca götürülmüş bir ölkədə mədəni müxtəlifliyin qorunsması uğrunda aparılan ideoloji və nəzəri siyasətdir. Multikulturalizm- postmodernizmin məhsuludur. Mədəni bərabərlik, bütöv mədəniyyət ideologiyası multikulturalizmin fəlsəfi əsasını təşkil edir. Multikulturalizm həm də kosmopolitik fəlsəfəsi cərəyandır. Ayrı-ayrı etnik xalqların soy kökünə hörmət , mədəni irsinə düzgün və humanist yanaşma , müxtəlif xalqların mədəni irsi ilə tanışlıq ümumilikdə cəmiyyəti formalaşdırır. Multikultural siyasət eyni zamanda müəyyən ərazidə yaşayan yerli etnoslarla bərabər digər azlıqlara təhsil , səhiyyə, seçki hüququnun verilməsini təmin edir. Multikulturalizm həmrəylik deməkdir. Multikulturalizm humanist siyasi kursdur. Multikulturalizm ideyaları ictimai şüurda formalaşmaqla, bu siyasəti təbliğ edən ölkələrin dövlət ideologiyasının tərkib hissəsinə çevrilir . Məsələyə istər Şərq, istərsə də Qərb kontekstindən yanaşma multikulturalizm və tolerantlığın bəşəriyyət üçün son dərəcə aktual mədəni, siyasi konsepsiya olduğunu sübut edir.

Multikulturalizm XX əsrin 70-ci illərində Kanadada və ABŞ-da bir fəlsəfi nəzəriyyə olaraq yaransa da, tarixən multikulturalizm ənənələri Şərqdə də mövcud olmuşdur. Məsələyə müasir fəlsəfi aspektdən yanaşma bu nəzəriyyənin hər dövr üçün aktual fəlsəfi problem olduğunu müəyyən etmişdir. Multikulturalizm real sosial hərəkatdir. Multikulturalizm yaşam tərzidir, ideologiyadır. Bu konsepsiya mürəkkəb problemlərin həllində əhəmiyyətli modeldir. Xüsusən də etnik, irqi, mədəni və dini müxtəlifliyin əhatə olunduğu cəmiyyət və ya dövlətdə multikultural münasibətlərin rolu əhəmiyyətlidir. Dünya dövlətlərinin yalnız 10 % -i təkmədəniyyətlilik keyfiyyəti daşıyır. Əksər ölkələr çoxmədəniyyətli və çoxmillətli olduqlarından zəngin mədəni irsin daşıyıcılarıdırlar və multikulturalizm bu dövlətlərin mövcudluğu üçün böyük önəm daşıyır.

Multikulturalizm bir neçə model əsasında təşəkkül tapmışdır:

I model mədəni – etnik müxtəlifliyin assimilyasiyasıdır. Bu modelə görə milli azlıqlar dominant mədəni-etnik birliklər içərisində qaynayıb –qarışırlar. Məsələn, Fransada oldugu kimi.

II model - inteqrativ model olaraq hər bir etno-mədəni birliyin öz identikliyinin qorunub –saxlaması prinsipinə əsaslanır. Bu model öz növbəsində ictimai-siyasi sferada ciddi bölgüyə əsaslanır. Bu prinsip ilk növbədə cəmiyyətin ictimai-siyasi sferada ardıcıl olaraq hüquq və azadlıqlarının həyata keçirilməsini təmin edir.

Multikulturalizmin III modeli Kanada və ABŞ-da formalaşmışdır. Bu model əvvəlki modellərdən fərqli olaraq mədəni, dini və milli məsələlərə fərqli yanaşma təqdim edir. Kanada rəsmi olaraq özünü çoxmədəniyyətli cəmiyyət kimi təqdim etməklə ölkədə multikultural mühit formalaşdırmışdır.

Amerikan multikulturalizmi isə müxtəliflik və fərqlilik probleminə özünəməxsus yanaşma nümayış etdirərək, amerikan ənənələrinə əsaslanaraq bu ənənələrin tərkib hissəsinə çevrildi. Multikultural cəmiyyətin əsasını qeosiyasi və iqtisadi maraqlar deyil, fövqəltəbii dəyərlər təşkil edir. Mədəni həmrəylik öz növbəsində mədəniyyətlərarası universal vasitə olan mədəni plüralizm faktıdır. Şərq ölkələri, Avropa və Amerika qitəsi dövlətləri arasında belə bir mədəni həmrəylik mövcuddur.

Qloballaşma şəraitində inkişaf edən müasir cəmiyyət müxtəlif mədəniyyətlərin vahid müstəvidə fəaliyyətinin məcmusu kimi təzahur etməkdədir.

Bəşəriyyət artıq anlamağa çalışır ki, mədəniyyətin ən ali forması olan sivilizasiya tarixi lokal mədəniyyətlərin toplusudur. Müasir multikultural cəmiyyətin yaranması prosesi nəticəsində ictimaiyyətin fəlsəfi konsepsiyaları da əhəmiyyətli dəyişikliklərə uğrayır. Qlobal cəmiyyətin əsas fəlsəfi konsepsiyalarından biri olan multikulturalizm nəzəriyyəsinin və təcrübəsinin əsasını müxtəlif mədəniyyətlərin qarşılıqlı anlaşması, birgə fəaliyyəti və habelə onların bərabər hüquqlu dialoqu təşkil edir. Cəmiyyəti assimiliyasiyadan inteqrasiyaya aparan bu konsepsiya əhalinin müxtəlif təbəqələri ilə yanaşı milli və dini azlıqlar tərəfindən də rəgbətlə qarşılanır. Mədəni inteqrasiya siyasətinin hərtərəfli konsepsiyasının olmamsı və həyata keçirilməməsi nəticəsində qeyri-adaptiv strateqiya sosial-siyasi sabitliyə təhlükə yaradır [2].

Ümumilikdə, multikulturalizm strateqiyası polietnik tərkibli dövlətlərdə etnik qruplar arasında tolerant münasibətlərin

qazanılmasını təmin edir. Multikultural cəmiyyətdə sosial ədalət prinsiplərinin qorunması vacib məsələlərdəndir. Multikultural cəmiyyətdə məcburiyyət anlayışı yoxdur və hər bir fərd mədəni mənsubluğunu seçməkdə azaddır. Mədəni müxtəliflik təkcə etnik müxtəliflik deyil, həm yaşamın, həm mədəni orientasiyasının, mədəni tendensiyaların müxtəlifliyidir. Mədəni həmrəyliyin inkişaf identikliyi seçim azadlığının inkişafından asılıdır. Mədəniyyət mədəni həmrəyliyin mövcud olması üçün məqsəd yox vasitədir və mədəni həmrəyliyin yaranmasına zəmin yaradır. Mədəni plüralizm, mədəni həmrəylik, mədəni konsensus sivil cəmiyyətlərin yaxınlaşması, qlobal sabitlik iqtisadi əməkdaşlıq üçün vacib faktorlardır.

Təhrif olunmuş və ümumiyyətlə qəbul edilməyən tendensiyalardan biri də multikulturalizmin yüksək inkişaf etmiş ölkələrə xas olmasının irəli sürülməsidir. Təcrübə göstərir ki, əksinə, belə ölkələrdə multikulturalizm heç də təqdim olunduğu kimi uğur qazanmayıb. Almaniya (A.Maerkel), Fransa (N.Sarkozi) və Böyük Britaniya (D.Kameron) kimi ölkələrin liderləri dəfələrlə bəyan ediblər ki. 9 (sentyabr, 2010-cu il) onların ölkələrində multikulturalizm tənəzzülə uğramış və bu ideya milli identikliyin zəifləməsinə gətiirib çıxarmışdır [3].

Azərbaycan isə çoxmillətli bir ölkə olaraq multikulturalizm ideologiyasını dövlət siyasətinin prioritet istiqamətlərindən biri elan etməklə, ölkəmizi dünyaya yeni rakursdan tanıtdı. Beynəlxalq miqyasda etnik, dini münaqişələrin geniş vüsət aldığı bir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsi dünya ictimaiyyətə yönəlmiş bir mesaj idi. Bu gün multikulturalizmin Azərbaycan modeli dünya miqyasında qəbul edilmiş birgəyaşayış formasıdır. Azərbaycan multikulturalizmi Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilən azərbaycançılıq fəlsəfəsi əsasında təşəkkül tapmışdır. Azərbaycancılıq ideyası Azərbaycanda yaşayan və onu özlərinə ümumi Vətən hesab edən bütün etnik qrupların mənafeyinə xidmət etməklə ölkəmizin daxili və xarici siyasətində, ictimai-mədəni inkişafında mühüm rol oynadı. "Azərbaycan multikulturalizmi" fənni bir çox yerli və xarici universitetlərin tədris proqramlarına salınmaqla, bu layihə çərçivəsində aparılan məqsədyönlü işlər Azərbaycanın dünyada multikultiral və tolerant ölkə kimi tanıdılmasında əhəmiyyətli rol oynamaqdadır.

Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın – bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətələrimizin söykəndiyi milli birlik platformasına çevirdi [4].

Artıq müxtəlif dövlətlər öz mövcudluqlarını təsdiq edən və qoruyan milli təhlükəsizlik doktrinalarının sırasına yeni bir təhlükəsizlik komponenti də daxil etmişdir. Bu , multikultural təhlükəsizlik adlandırıla bilər və geniş mənəvi spektrı nəzərdə tutur. Azərbaycan da öz multikultural təhlükəsizliyini bir sistemə dönüşdürüb bunun ciddi məsuliyyəti və önəmli dönəmini yaşayır [1].

ƏDƏBİYYAT

1.Abdullayev.KAzərTac.08.04.2015.

2.Михайлов.С Этнические миграционные волны и проблемы социально-политической стабильности.».М-1995,стр.38

3.Niftiyev.N "Azərbaycanda birgəyaşayış və multikulturalizm"Bakı-2015,səh.34

4.Həsənov.Ə"Heydər Əliyev və milli dövlətçilik təlimi-azərbaycançılıq" məqaləsi."Xalq" qəzeti 2010,9 may,№ 100.s.3-4

Açar sözlər: *Multikulturalizm, sivilizasiya, mədəniyyət, bəşəri dəyərlər, mədəni müxtəliflik, qloballaşma, tolerantlıq.*

Ключевые слова: *Мультикультурализм, цивилизация, культура,человечиские ценности, культурное многообразие, глобализация, толерантность.*

Key words: *Multikulturlism, civilization, culture, human values, cultural diversity, globalization, tolerance.*

РЕЗЮМЕ

Главная цель межкультурного диалога разных нации состоит из взаимопонимания, уважения цивилизации других народов. Мультикультурализм усиляет культурные связи и идею соотношения. Мультикультурализм побеждает в том обществе, в котором субкультуры считаются боготством народа. Мультикультурализм является неъотемлимой частью Азербайджанского общества и многих общин, вошедших в глобальный процесс.

SUMMARY

The important aim of the dialogue between cultures consists of understanding and respecting the culture of sivilization of the opposite side and accepting it. Multiculturology stenghens cultural relations and the idea of correlation. If any society considers subcultures wealth of its people, multikulturology wins there. Multikulturology is an inteqral part of Azerbajjani society and many communities, which have joined the global processes.

Политика

ВНЕШНЕПОЛИТИЧЕСКИЕ РЕСУРСЫ И МЕХАНИЗМЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

ГАМИДА САМЕДОВА
Академия Государственного Управления при Президенте Азербайджанской Республики



Внешняя политика является частью государственной политики. Объединяющий фактор внутренней политики государства с внешним опирается на внутренние нужды и национальный интерес.

В определении и осуществлении внешней политики Азербайджана, в основном принимают участие Президент страны, Милли Меджлис, Администрация Президента, Министерство Иностранных Дел и другие органы центральной исполнительной власти.

В Азербайджанской Республике в области внутренней и внешней политики функции высшей исполнительной власти осуществляет Президент страны. Согласно Конституции страны (статья 8), глава государства руководит внешней политике Азербайджана, от имени государства ведет переговоры, заключает договора, принимает верительные грамоты послов зарубежных стран, назначает министров иностранных дел, послов и представителей посольств в зарубежных странах[1].

Президент представляет государство в системе международных отношений, создает ежедневные контакты с внешним миром, устанавливает контакты с другими руководителями стран, подписывает необходимые документы. «Основным исполнительным органом в определении внешнеполитической деятельности страны и внешнеполитического курса главы государства является Министерство Иностранных Дел. Этот орган ежедневно устанавливает контакты страны с внешним миром, выполняет поручения президента страны, возглавляет работу посольств и представительств в зарубежных странах, создает условия для деятельности зарубежных посольств представительств аккредитованных в Азербайджане»[2]. Милли Меджлис является законодательным органом власти, участвующий во внешнеполитической деятельности Азербайджана. Согласно конституции, основная роль Милли Меджлиса в осуществлении внешнеполитической деятельности является утверждение создания дипломатических представительств, принятие законов о дипломатической деятельности, ратификация или отмена межгосударственных договоров, заключенных с зарубежными странами, присоединение к международным конвенциям и соглашениям. Милли Меджлис представляет государство в международных и региональных парламентских организациях. Милли Меджлис косвенно участвует во внешней политике страны. Наряду с Министерством Иностранных Дел во внешней политике Азербайджана также принимают участие другие министерства, ведомства, комитеты, компании. Почти все 65 центральных органов исполнительной власти, действующих в стране вступают в контакт с внешним миром, соответствующими департаментами отдельных государств, международными, региональными организациями, межправительственными и неправительственными организациями. Как видно, внешнеполитическая координация и проведение единой внешнеполитической линии возводится на министерство иностранных дел, другие государственные

структуры принимают активное участие в этом деле.

Место и роль государства в системе международных отношений наряду с другими факторами определяются его внешними политическими ресурсами. Исследователи выделяют две группы внешнеполитических ресурсов: материальные и нематериальные. К материальным ресурсам относятся:

• Географические ресурсы;
• Демографические ресурсы;
• Экономические ресурсы;
• Военные ресурсы.

К нематериальным ресурсам относятся:

• Политические ресурсы – это эффективная деятельность государства, его участие во внешних альянсах, отношения с государствами, имеющими силу влияния на мировую политику, участие в международных институтах, организациях или связи с ними, возможности влияния на глобальную и региональную политику, обладание эффективными механизмами внутренней и внешней политики;

• Социальные ресурсы - состояние внутреннего единства граждан, их отношение к проводимой внешней политике, воля и решимость, демонстрируемые во имя защиты государственных интересов;

• Ресурсы репутации – утвержденный на международной арене авторитет государства и его лидера и возможности влияния этого авторитета на деятельность государств мира;

• культурно-идеологические ресурсы – возможности интеллектуального и идеологического влияния на общественность других стран;

• информационные ресурсы – участие в глобальном информационном пространстве и влияние на него, возможности направления мирового информационного потока, обладание независимыми международными информационными ресурсами;

• научные, научно-технические и образовательные ресурсы– интеллектуальный потенциал и перспективы его развития, обеспечение экономической, политической, военной и других сфер квалифицированными кадрами и т. д[3].

С точки зрения достижения поставленных целей внешней политики иностранные ресурсы могут играть позитивную и негативную роль.

Формирование проживающих в различных странах мира азербайджанцев в организованную диаспору, налаживание лоббизма превратились в одно из приоритетных направлений внешней политики Азербайджанской Республики. А это в реальности означало совпадение проводимой в стране государственной политики с общенациональными интересами. В этом смысле на диаспору возлагались определенные задачи и обязанности. Диаспора - это этническое общество, которое защищает, развивает и пропагандирует национальный быт, культуру и язык, обычаи и традиции, национальное сознание. Роль диаспоры как, актора дипломатии очень значима. В работе анализируется модель диаспоры на основе исторических и демографических характеристик.

Диаспора – это переплетение множества перемещений, которая образуется за счет рассеянной группы[4].

"Азербайджанская диаспора" подразумевают азербайджанцев, проживающих за рубежом. Толкование понятия "Азербайджанская диаспора" нашло свое отражение в Законе Азербайджанской Республики "О государственной политике в отношении азербайджанцев, проживающих за рубежом". Согласно настоящему закону, данное понятие относится к гражданам Азербайджанской Республики, проживающим за рубежом и их детям, лицам, прежде являющихся гражданами Азербайджанской ССР или Азербайджанской Республики, проживающих в настоящее время за пределами Азербайджанской Республики и их детям, лицам, не относящимся к данной категории, однако считающих себя связанными с Азербайджаном и азербайджанцами с точки зрения этнических, языковых, культурных или исторических связей. Азербайджанская диаспора появилась в результате длительных исторических процессов.

После восстановления независимости, для того чтобы проинформировать международное сообщество и донести о себе Азербайджан стал формировать свою диаспору. Именно ту диаспору, которая сыграет важную роль в представлении Азербайджана всему мировому сообществу. С восстановлением независимости до конца 90-х годов, столкнувшись с внутренними проблемами в государстве, Азербайджан не имел возможности оказывать должного внимания развитию диаспоры. В эти тяжелые для нас годы наша дипломатия продолжала развиваться самостоятельно и имела успехи. В период Гейдара Алиева в результате привлечения многочисленных азербайджанцев в государственные дела, сформировалась общественная, научная, элитарная прослойка интеллигенции нашего народа. Для осуществления систематической деятельности с соотечественниками, проживающими за рубежом, возникла необходимость создания специальной организации. Диаспора стала проводить большие работы в представлении Азербайджана, его проблем мировому сообществу.

Укрепление связей с соотечественниками, проживающими за рубежом с точки зрения национальной государственности имеет очень важное значение. В последние годы число азербайджанской общины, национально-культурных центров, ассоциаций увеличилось и расширило сферу своей деятельности. Азербайджанские общины, разбросанные по всему миру, проводят общественную, политическую, экономическую деятельность. Эти общины, культурные центры, которые функционируют в других странах, занимаются активной пропагандой в развитии и сохранении родного языка, культурного наследия, традиций и обычай. Они проводят большие работы в донесении до мирового сообщества об армянской агрессии.

Основная цель азербайджанской диаспоры за рубежом заключается в донесении до мирового сообщества справедливой оценки нагорно-карабахскому конфликту, армянской агрессии по отношению к азербайджанцам. Благодаря результатам деятельности диаспоры увеличилось число стран и международных организаций, признавших Ходжалинский геноцид. Проделанная диаспорой работа за последние годы снизила влияние армянского лобби, однако останавливаться на достигнутом нельзя и нужно активно продолжать работу в пользу народа и азербайджанского государства, сотрудничать с дипломатическими представительствами Азербайджана в зарубежных странах, наращивать свои усилия. Мы должны представить себя миру с нашей историей и богатой культурой.

ЛИТЕРАТУРА

1. Конституция Азербайджанской Республики, статья 8, пункт 2

2. Али Гасанов, «Современные международные отношения и внешняя политика Азербайджана». Баку - 2007, стр 295

3. Моргентау Г. Международная политика // Антология мировой политической мысли: В 5т. / Отв. ред. Т. А. Алексеева.–М.: Мысль, 1997. –С. 501-507

4. Brah A. Cartographies of Diaspora: Contesting Identities. London and New York 1993, c. 197

Tarix

ORTA ƏSR ŞƏHƏRİMİZ QUM HAQQINDA NƏ BİLİRİK?

AKİF MƏMMƏDLİ
Tarix üzrə fəlsəfə doktoru,
AMEA Şəki Regional Elmi Mərkəzin elmi işçisi

Mərhum akademik Ziya Bünyadovun tariximiz üçün çox qiymətli əsərlər miras qoyduğu bütün elm adamlarına məlumdur. Onun hər bir araşdırması ciddi elmi dəlillərə və ilkin mənbələrə söykənir. "Azərbaycan VII- IX əsərlərdə" və "Azərbaycan Atabəylər dövləti" adlı əsərlərini göstərmək yetərlidir.

Nədənsə, Z. Bünyadovun Qaxın Qum kəndi ilə bağlı apardığı araşdırma, çıxardığı nəticə diqqətdən kənarda qalmışdır. Odur ki, Qum haqqında yazılanları bir daha gözdən keçirərək "Qum Bazilikası" adlanan nəhəng məbədə bir daha baş çəkərək, Qumun erkən orta əsrlər dövründə yetərincə böyük bir yaşayış məntəqəsi olduğunu, dini və elmi mərkəzə çevrildiyini qeyd etmək istərdik.

Bu gün dediklərimizi sübut edən faktlardan biri – uzunu 36,5 metr, eni isə 19,5 metr olan və elmi ədəbiyyatda "Qum Bazilikası" adlanan alban məbədidir. Nəzərə alsaq ki, kiçik bir yaşayış yerinində bu qədər böyük məbəd tikilə bilməzdi. Digər tərəfdən "Bazilika" latın dilində "hökmdar evi" mənasını verir və bu məbəd V əsrin sonunda Alban hökmdarı

III Mömin Vaçaqanın əmri ilə Fələstinli xristian missioneri Yeliseyin atəşpərəstlər tərəfindən öldürüldüyü yerdə - indiki Qum kəndində tikilmişdir. Son dərəcə əlverişli təbii- coğrafi şəraiti, zəngin bitki örtüyü olan bu ərazi və ona yaxın olan ərazilərdə ən qədim dövrlərdən bəri iri yaşayış yerləri və bu yaşayış yerlərinin öncəki dinlərlə bağlı məbədləri də olmuşdur. Bütün bunlar Qumun orta əsrlərdə böyük, şəhər tipli yaşayış yeri olduğunu deməyə əsas verir.

3 nefli (3nefli-3 hissəli, 3 otaqlı) alban məbədi olan Qum məbədi, 1898-ci ildə A.S. Xaxanovun rəhbərliyi ilə cənubi Qafqazın xristian məbədlərini araşdırmaq üçün göndərilən ekspedisiya tərəfindən ilk dəfə tədqiq edilib.

Ötən əsrin 40-cı illərində bərpaçı memar Pyotr Baranovski Qum məbədində arxeoloji qazıntı apararaq, müəyyən bərpa işlərini görmüşdür [1].3 giriş qapısı olan və 3 tərəfə uzanan qalareya tipli sütunlu balkonlar məbədə o qədər möhtəşəm görkəm verir ki, onun bu günkü xeyli dağılmış vəziyyəti belə bu məbədin "sıradan bir məbəd" olmadığını göstərir.

Təsadüfi deyil ki, P.D. Baranovskidən başqa, tarixi adbidələr, xüsusiylə xristian abidələrinin tədqiqi üzrə görkəmli tədqiqatçı alimlərdən D.A.Axundov [2] və Gülçöhrə Məmmədova [3] da Qum məbədi ilə bağlı araşdırma aparmışlar.

Məbədin möhtəşəm qalıqları Qum kəndinin mərkəzində

yerləşir. Dövrümüzə yalnız üçnefli bazilikanın əsas hissəsi və qismən örtük hissəsi çatmışdır. Vaxtilə məbədin üçtərəfli qalereyaya malik olmasını şərq divarındakı kiçik otaqlar yaxınlığında qalmış divar qalıqları və qərb qalereyasının sütun qalıqları sübut edir. Məbədin daxili həcmi düzbucaqlı formada olmaqla 36.5x19.5 metr ölçüyə malikdir. Daxildən əsas ibadət zalı iki cüt T-formalı müstəqil sütun və bir cüt pilyastrla üç nefə bölünmüşdür.

Orta nef eninə görə yan neflərdən iki dəfə böyük olmaqla şərqdə nalformalı apsida (yarımdairəvi mehrab) ilə tamamlanır. Yan neflər kvadrat formalı kiçik yan otaqlarla tamamlanır ki, həmin otaqların da tağvari örtüyü dövrümüzə kimi saxlanmışdır. Binanın əsas həcmi cənub və şimalda qalereyaları formalaşdıran üçtərəfli keçidlə əhatə edilmişdir. Şimal və cənub qalereyalarının şimal hissəsində uzun otaqlar yerləşir. Həmin otaqlar da şimal divarında apsidaya malikdir.

Məbədin divarları sıraların düzgünlüyü saxlanmaqla mavi və tünd yaşıl əhəng daşından inşa edilmişdir. Məbədin fasadında üzlük daşların düşdüyü yerlərdə hörgü zamanı inşa edilmiş beton formalı qarışıq görünməkdədir. Hörgü zamanı əhəng daşı və bişmiş kərpicin qarışıq istifadə edilməsi ilə bağlı fikirlər bəzən mübahisə doğursa da tədqiqatçıarxeoloq İ.A.Babayev qeyd edir ki, "...nəzərə almaq lazımdır ki, Azərbaycan ərazisində ən qədim dövrlərdən inşaat zamanı çiy kərpic və əhəng daşı qarışığının istifadəsi tez-tez rast gəlinən haldır və bunun ən yaxşı nümunəsi II Kültəpə ərazisində aşkarlanmış tikili qalıqlarıdır. Bişmiş kərpic isə Qafqaz Albaniyası memarlığında I əsrdən istifadə edilməkdə idi." G. Məmmədovanınfikrincə I əsrdən etibarən Qafqaz Albaniyası memarlığında çiy kərpic-əhəng daşı hörgüsü kərpic-əhəng daşı hörgüsü ilə əvəzlənə bilərdi. İnşşat tarixi islamdan əvvəlki dövrə aid olan Beşbarmaq Səddi də bu cür kərpic-əhəng daşı qarışıqlı hörgüyə malikdir.

Kilsənin T-formalı arxaik görünüşə malik daxili sütunları kvadrat formalı kərpiclə üzlənmişdir. Məbədin örtüyü əsasən saxlanmamışdır. Tədqiqatçılar yan neflərin maili tağ örtüyünə malik olmasını qeyd edirlər [1,2,3,4]. Orta nefin örtüyü sütunlar arasında olan arkalar (tağlar), onlardan qərb divarındakı pilyastrlara (sütunlara, kolonlara) və altara qədər uzanan divarların üstündə dayanırdı. Orta arkalar (tağlar) dövrümüzə kimi saxlanmış, yan arkaların mövcudluğunu isə yan divarlar boyunca qalmış beton qarışığı izləri sübut edir. Tədqiqatçılar Qum bazilikasının dövrümüzə kimi saxlanmamış örtüyünü mərtəbəli taxta dam formasındavə ya mərkəzi kvadrat üzərində günbəzli dam formasında olduğunu təsəvvür edirlər.

Məlum olduğu kimi, Cənubi Qafqazda albanlar ilk olaraq xristianlığı rəsmi din kimi qəbul etmişlər və Alban hökmdarları da bu dini müdafiə etmiş, bu dinlə bağlı məbədlərin (kilsələrin) tikilməsinə, bu kilsələrin nəzdində kilsə məktəblərinin yaranması üçün hər cür dəstək vermişlər. Böyük torpaq sahələri ayırmış, kilsənin xeyrinə əhalidən onda bir vergisi alınmağa başlanmışdı. Alban hökmdarları alban xristian ruhanilərini dünyavi əyanlarla bərabərləşdirirdi [4] . Nəticədə, Alban kilsəsi nüfuzlu bir quruma çevrilmişdi.

Bu zaman dini kitablar tərcümə edilir, müəllim kimi hazırlaşdırılmış bir çox gənc ölkənin müxtəlif vilayətlərinə, o cümlədən Quma yollandı. Albaniyanın ayrı-ayrı vilayətlərindən olan, dövlət ərzaq payı ilə təmin edilmiş uşaqlar dəstə- dəstə kilsə məktəblərinə, o cümlədən Qumun kilsə məktəbinə göndərilirdi [5].

Buradan çox da uzaqda olmayan "Yeddi kilsə" adlanan məbəd komleksi də buranın hələ erkən orta əsrlərdən etibarən elm və mədəniyyət mərkəzi olduğunu deməyə əsas verir.

1983-cü ildə Ziya Bünyadov Nizami Gəncəvinin yazdığı ".... Əz Kuhistan şəhri Qum"(tərcüməsi- Mən Dağlıq mahalı olan Qum şəhərindənəm") fikrini açıqlayaraq, Nizaminin haqqında bəhs etdiyi Qumun Qax rayonu ərazisindəki Qum olduğunu əsaslandırmışdır. Həqiqətən bu, İrandakı Qum ola bilməz. Çünki, o Qum dağlıq deyil, düzən ərazidir. Həm də, erkən orta əsrlərlərdə İrandakı Qum, haqqında bəhs olunan Qum kimi elm və mədəniyyət mərkəzi, iri yaşayış yeri, şəhər olmamışdır. Bunun əksinə, Qaxın yaxınlığındakı Qumun isə yalnız oradakı Qum Bazilikasına görə [6] deyə bilərik ki, burada böyük yaşayış yeri olmuş, kilsə məktəbləri, kitabların yazıldığı, üzünün köçürüldüyü bir dini-ideoloji, elmi mərkəz, şəhər olmuşdur. Sədnik Paşa Pirsultanlı xalq arasında topladığı folklor nümunələri və rəvayətlərə görə, Nizaminin-yayda sürülərimiz Qumun dağlarında, qışda isə Qıpçaq çöllərində otarılardı- fikrinə diqqət etsək,Qaxın Qumundan cənubdaQıpçaq kəndinin olduğunu və maldarların həqiqətən də burada qışladığını görərik. Xalq müdrikdir və hər zaman dediyində haqlıdır. Qum da buradadır, Qıpçaq da. Qumla Gəncə arasındakı məsafə də həmin rəvayətlərdəkinə Ziya Bünyadovun 22 aprel 1983-cü ildə Qum kənd məktəbinə yazdığı məktub da fikrimizi sübut edən dəyərli sənəddir (məktub Qax rayon Tarix və

Diyarşünaslıq muzeyində saxlanılır). Məktubu olduğu kimi təqdim edirik:

"Dahi Nizaminin doğma yurdu haqda söhbətlər çoxdan gedir. Şairin İranın Qum şəhərində anadan olması Nizaminin öz sözləri əsasında rədd olunur.İranın Qum şəhəri düzənlikdə yerləşir. Nizami isə "mən dağlıq mahalı olan Qum şəhərindənəm" yazır (Əz kuhistan şəhri Qum).

Sizin Qum orta əsrlərdə şəhərcik olub və Qum dağ mahalındadır. Ona görə də mən və məndən qabaq başqa alimlər təsdiq ediblər ki, Nizami sizin Qumdandır.

Bu barədə mən yaxınlarda çapdan çıxan "Azərbaycan Atabəyləri dövləti" kitabımda yazmışam.(Kitab rusca çıxıb). "Памятник эпоха Руставели" adlı kitabda (1938-ci ildə Leninqradda çap olunub) 111-138-ci səhifələrdə A.N.Baltırevin "Два Ширванских..." adlı məqaləsində var. Burada da sizin Qum haqda söhbət gedir. Bircə Paşayevin "Nizami və Azərbaycan xalq düşüncələri" kitabına baxın.

Hörmətlə, sizin Ziya Bünyadov.

Beləliklə, Qum və yaxınlıqdakı digər kəndlərdəki tarixi abidələr haqqında yazılanları ümumiləşdirərək deyə bilərik ki, erkən orta əsrlərdən başlayaraq Azərbaycanın şimal-qərb bölgəsində şəhər tipli yaşayış yerləri, kilsələrin himayəsində isə məktəblər, dini və elmi mərkəzlər meydana gəlmişdi.Z. Bünyadovun araşdırmalarına [7], yuxarıda adları qeyd olunan tədqiqatçıların, o cümlədən S. P. Pirsultanlının [8, 9] əsərlərinə, Nizami Gəncəvinin də fikirlərinə istinad edərək onun (Nizami Gəncəvinin) məhz Qaxın Qum adlı yaşayış yerində anadan olduğunu əminliklə deyə bilərik.

Nəticə

Cənubi Qafqazda albanların xristianlığı ilk qəbul edən xalq, Alban kilsəsinin "Həvari Kilsəsi" (Apostol Kilsəsi) olduğunu, Qafqazda xristian məbədlərinin "Anası" olan Kiş məbədinin də haqqında bəhs etdiyimiz Qumdan çox da uzaqda olmadığını nəzərə alsaq, Nizami Gəncəvi kimi böyük bir şəxsiyyətin yetişməsi üçün burada mənəvi mühit, mədəni şərait olmuşdur. Çünki, buradakı erkən orta əsrlərə və sonrakı dövrlərə aid Alban məbədlərinin sayca çoxluğu, onların memarlıq cəhətdən mükəmməlliyi (Qum Bazilikası, Ləkit Məbədi, Yeddi Kilsə və s.) Qumun orta əsr şəhərlərimizdən biri olduğunu və N.Gəncəvinin də Qumda doğulduğunu, uşaqlığını burada keçirdiyini və ilk təhsilini burada, bu mühitdə aldığını və sonra Gəncədə məskunlaşaraq, daha mükəmməl təhsil aldığını deməyə əsas verir.Tədqiqatçı, folklorşünas Sədnik Paşa Pirsultanlı da Böyük Nizami barədə xalq arasında yaşayan folklor nümünələrini, əfsanələri toplayaraq, onun Azərbaycanın Şimal-Qərbindəki Qumda doğulduğunu yazırdı.

ƏDƏBİYYAT

1. П. Д. Барановский. Памятники в селениях Кум и Лекит, ААЭИ, Баку, 1947, s. 224.

2. Д. А. Ахундов. Архитектура древнего и раннесредневекового Азербайджана, Баку 1986, Азерб. Гос. изд. –во, s.

3. Гюльчохра Мамедова. Зодчество Кавказской Албании, Баку, 2004

4. Гюльчохра Мамедова, Христианское культовое зодчество Кавказской Албании эпохи раннего средневековья, Баку 1985, Элм.

5. Azərbaycan tarixi, 7-cilddə , II cild, Bakı, Elm, 2007, 605s.

6. A. Məmmədli, Azərbaycanın şimal-qərb bölgəsinin tarixi abidələri. Bakı,2013, 228 s.

7. Z.Bünyadov, Azərbaycan Atabəyləri Dövləti, Bakı,1983

8. S. P. Pirsultanlı, Nizami və folklor, Bakı,1976, 65 s.

9. S. P. Pirsultanlı, Nizami və xalq əfsanələri, Bakı, 1983, 123 s.

РЕЗЮМЕ

Акиф Мамедли

Что знаем о средневековом гороле Кум

В статье рассматриваются одна из верций о месте рождения великого азербайджанского поета Низами Гянджеви. Некоторые исследователи связывают его рождения с селом Кум Кахского района. Это село в средние века был маленъким городом. Расположенные в селе Кум крупнейший Албанский памятник-Кумская базилика и другие древние строения доказывают, что село Кум в средние века являлся религиозным и кулътурным центром. Об этом в своей книге «Азербайджанское Государство Атабеков» также писал академик Зия Бунядов. С.П.Пирсултанлы тоже, на основании своего сборника фолъклора и сказаний, утверждал вышесказанное.

SUMMARY

Akif Mammadli

The article considers one of the vertions about the birthplace of the great Azerbaijani poet Nizami Ganjavi. Some researchers associate his birth with the village of Kum in the Kakhsky district. This village was a small town in the Middle Ages. Located in the village of Kum, the largest Albanian monument-the basilica of Kuma and other ancient buildings prove that the village of Kum was a religious and cultural center in the Middle Ages. Academician Ziya Bunyadov also wrote about this in his book "The Azerbaijan State of Atabeys". SP Pirsultanov too, on the basis of his collection of folklore and legends, asserted the above.

Кибербезопасности

ПРОБЛЕМЫ И ПУТИ РЕШЕНИИ КИБЕРБЕЗОПАСНОСТИ В МИРЕ В УСЛОВИЯХ РОСТА КИБЕРПРЕСТУПЛЕНИЙ

КЯМИЛЯ ДЖАББАРОВА
Институт Прав Человека
Национального Академии Наук
Азербайджана

В современных условиях проблемы и решения множества фактов и элементов безопасности мира постоянно усложняются и появляются новые, более сложные элементы безопасности, одной из которых является кибербезопасность мира.
Понятия «безопасность» и «кибербезопасность», в том числе «информационная безопасность» прочно вошли в ежедневную терминологии большинства людей и стран мира, поэтому подобные проблемы необходимо рассматривать комплексно и системно исходя из характера, сферы влияний и последствий для страны и в целом для мира. Киберпространство, в первую очередь, связано с информационным пространством и образованием множества коммуникационных источников, другими словами это совокупность коммуникационных каналов Интернета. В этих пространствах происходит сложные процессы на почве киберпреступлений, которые призваны остановить кибербезопасность, характеризующие совокупность условий и механизмов минимизации угрозы киберпреступлений. Темпы роста киберпреступлений постоянно увеличиваются, и число взломанных электронных машин и оборудований в мире свидетельствуют о серьёзном росте преступного бизнеса в этой сфере и опасности для всего мира. С.Шива отмечает, что системы кибербезопасности в мире, к сожалению, не имеют надежную систему защиту и его компоненты безопасности отличаются особенностями и во многом они не в состоянии эффективно реагировать на динамичное развитие электронных систем, информационно-коммуникационных технологий. Нам необходимо, в теоретическом плане, осуществить комплексный подход с переходом на реализацию прочной системы обеспечения надежной кибербезопасности в мире. Прежде всего, необходимо сосредоточиться на совершенствовании информации о киберпреступлениях и моделировании обеспечение его безопасности[1]. Кибербезопасность и её многие компоненты особо заметны в различных областях, однако во многом её влияние и необходимость востребована в киберпространстве, в системе средств массовых информаций, Интернет и прочее. Группа учёных – А.Синха, Д.Нгуен, Д.Кан, М.Броун, М.Тамбе и А.Жанг считают, что в области кибербезопасности взаимодействие между защитником и противником является довольно сложным с высокой степенью неполной информации и неопределённости. В то время как решения были предложены для частей проблемы пространство в области кибербезопасности в контексте в понимании всего пространства, одновременно срабатывает элементы взаимодействие с противником.
Отсюда требуются новые подходы и механизмы усиления

кибербезопасности в нынешних сложных условиях[2]. Дело в том, что защитные механизмы и компоненты кибербезопасность должны основываться на прочных элементах и конструкциях, которые бы имели иммунитет защиты от внешних угроз и вмешательств. То есть, механизмы и оборудование, которые обеспечивают передачу важной информации в траекториях киберпространства, должны рассматриваться по целому ряду элементов безопасности и стойкости, чтобы предотвратить мошенничество, обман и массу вредных действий хакеров в киберпространстве. Т.Сомместад считает, что подобные подходы и глубокое изучение кибербезопасности, угрозы и нападения на киберпространство могут способствовать разработку и применения наборов стандартных требований по обеспечению кибербезопасности в киберпространстве в мире[3]. При сочетании оптимальных механизмов кибербезопасности, которые адекватно противодействуют угрозам и атакам в киберпространстве образуется более реальная среда, где основные продукты и ресурсы киберпространства могут быть меньше атакованы, повреждены и взломаны. Отметим, что теория изучения и систематизация элементов кибератак требует, чтобы построили сильную систему и защиту обороны от действия злоумышленников и хакеров, необходимо пристально следить за множественными действиями в системе киберпространства, вычислить случаи и элементы воздействия угрожающих препятствий цифрового оборота электронных ресурсов и информации. Х.Халей отмечает, что необходимость обеспечения мощной системы киберзащиты является первым шагом в защите от подавляющего большинства агрессоров и отговорить некоторых хакеров и злоумышленников от нападения на всех, определение выявление конкретного источника нападения и проявить готовность, в то же время, способность принять ответные меры против любой, но не обязательно на каждую атаку из любого источника киберпространство при любых обстоятельств[4]. Дело в том, что безопасность киберпространства исключительна, важна для всех пользователей, для частных и государственных субъектов. Кибератаки становятся всё более распространёнными, и влияют на все сектора экономики от различных торговых и финансовых услуг, банковских секторов, здравоохранения и образования, государственных структур, корпоративных управлений, банков данных секретных служб, оборонных ведомостей, транснациональных компаний до коммерческих организаций и отдельные личностей. Д.Скуберт, Дж.Кедарбаум и Л. Скиосс считают, что нападавшие киберхакеры в киберпространстве имеют разнообразные цели, но их основная цель является кража денег и добыча личной информации, участие в корпоративном шпионаже, порче репутации конкретного лица, бизнесмена или политика и прочих[5]. Сущность и основные конструкции киберпреступлений в киберпространстве показывают, что характер и схемы кибератак, насколько сложны и запутаны, что разработать и поставить против них серьёзную систему защиты обуславливает более решительные и фундаментальные подходы и совместные усилия мировых учёных, специалистов ИТК, программистов, политиков и чиновников мировых стран. Так, Т.Стивенс подчёркивает, что кибербезопасность является недавним дополнением к глобальной безопасности, занимающейся охраной государства и граждан от неправомерного использования компьютерных сетей для войны, терроризма, экономического шпионажа и преступной



наживы[6]. В самом деле, глобализация и расширение её влияния на все сферы общества, экономики, политики, государственной структуры, в том числе сети глобальных информационных пространств не вызывают сомнений и поэтому требуется более надёжные и широко распространенных полезные механизмы системы кибербезопасности. Изучая вчерашний день и проблемы системы кибербезопасности, тем самым обдумая пути решений сегодняшних проблем киберпространства, необходимо думать о завтрашнем дне и следующих механизмов совершенствования системы кибербезопасности, которые обуславливают широкий спектр консультации, совместных действий, интеграций специалистов в области ИКТ и политиков. Проблемы кибербезопасности и определения максимально эффективных механизмов и инструментов его обеспечения стоит на повестке дня для определённого государства, как дилемма, так как усилия одного государства в полноценном решении обеспечения кибербезопасности может быть недостаточным. Так, Н.Кшетри считает, что киберпространство добавило новые размеры глобальных угроз, сложности национальной безопасности и международных связей. Явный пример современного международного конфликта можно привести скандальный процесс вокруг кибербезопасности и утечке серьёзных информаций с участием Сноудена в секретных документах правительственных органов США[7]. К этому примеру можно добавить утечку информации для всего мирового общества основателя WikiLeaks Джулиана Ассанджа, которые активно распространил большой объём секретных и недоступных информаций, которые служили национальным интересам одних государств и одновременно ущемляли другие национальные интересы. Кибернападения и добытые информации быстро распространяется по всему миру, порождает массу вопросов, связанных с экономикой и поэтому всё большее значение имеет важность разработки комплексных стратегий национальной безопасности и международных отношений в контексте усиления кибербезопасности в мире.

В целом, кибербезопасность – это есть комплексное состояние защищенности и надежности информационной среды и системы передачи информации. К.Прокофьев отмечает, что создание Интернета явилось одним из важных итогов развитие ИКТ и автоматизированных информационных систем. В настоящее время отмечает настоятельная необходимость ведения международным сообществом борьбы с использованием Интернета террористами. Кроме того, киберпреступность и кибертерроризм являются угрозой современному миру и безопасности[8]. Поэтому особое значение отводится

последствию киберпреступности в мире, которое постоянно находится под пристальным влиянием международных организаций, ООН, Совет Европы и прочих. Фундаментального изучение теоретических аспектов кибербезопасности и разных элементов становление его в мире могут способствовать к формированию более эффективных механизмов и политики противодействия киберпреступлений и создание надежной системы кибербезопасности. Е.Молодчая подчеркивает, что необходим комплексный подход, обусловленный многоаспектностью составляющих киберпространство и кибербезопасность, который мог бы противостоять воздействием глобального цифрового противоборства цифровой разрыв, поощрение кибертерроризма на уровне государственной политики и активизации киберпреступников[9]. С целью оптимального изучение и определение важных элементов и аспектов причины возникновение киберпреступлений и кибератак необходимо анализировать все информационные потоки и их систематизировать, обобщать, сделать более эффективным, обобщенным и полезным для усиления компонентов системы кибербезопасности. При этом системы кибербезопасности должна формироваться на основе надежного информационно-коммуникационной инфраструктуры, которая обеспечивает от возможных угроз и атак киберпреступников и кибертеррористов.

Отметим, что в настоящее время постоянно растут элементы и механизмы инфокоммуникационной инфраструктуры таких как, электронные компоненты, схема техника, чипы, транспорт, передача данных, системы управления, программные обеспечение и прочее, которые требуют, как было отмечено системных подход решения проблемы кибербезопасности. А.Згоба, Д.Маркелов и П.Смирнов подчеркивают, что проблемы кибербезопасности носят комплексный характер и не ограничиваются исключительным инженерным владением. Системный подход к вопросам кибербезопасности на уровне государства включает в себя не только повышение осведомленности относительно существования рисков в киберпространстве, создание национальных структур, занимающихся вопросами кибербезопасности, но и установление необходимых взаимоотношений между различными группами участников, в том числе между отраслями экономики, для развития аутсорсинговой модели производства[10]. Все эти мероприятия могут способствовать повышению надёжности сохранения информационной базы безопасности от хакерских атак и преступной деятельностей киберпреступников и позволит обеспечить эффективность всей системы кибербезопасности.

Таким образом, политика безопасности в области киберпространства и обеспечения кибербезопасности нуждается в более сильных подходах и фокусах исследования в международной политике, международных отношениях и в этих вопросах больше всего необходимо обратить внимание на киберпространство и обеспечение его безопасности в корпорациях, банках, в коммерческих организациях, отдельных граждан и в целом гражданского общества. Необходимо защитить и очистить от угроз кибератак сферы оборота массовой информации, представляющие интерес мировых обществ, отдельных людей, компаний и государств и т.д.

ЛИТЕРАТУРА

1. Shiva S. Game theory for cyber security.The University of Memphis, 2014 http://www.researchgate.net.

2. Sinha A., Nguyen T.H., Kar.D., Brown M., Tambe M., Jiang A.J. From physical security to cybersecurity//Journal of Cybersecurity. 17.11.2015. P.19-35. http://www.cybersecurity.oxfordjournals.org.

3. Sommestad T. A framework and theory for cyber security assessments. Dis. for the degree of Doctor of Philosophy. Royal Institute of Technology Stockholm, Sweden, 2012. http://www.diva-portal.org.

4. Haley Ch. A theory of cyber deterrence/ Georgetown Journal of International Affairs, 2013. http://www.journal.georgetown.edu.

5. Schubert D.F., Cedarbaum J.G. and Schioss L. The SEC`s two primary theories in cybersecurity enforcement actions//The Cybersecurity Law Report, Volume1, 2015. http://www.wilmerhale.com.

6. Stevens Tim. Cyber Security and the Politics of Time. International Relations and International Organizations. Cambridge University Press, 2015. http://www.cambridge.org.

7. Kshetri Nir. Cybersecurity and International Relations: the U.S. Engagement with China and Russia. The University of North Carolina at Greensboro, 2014.- 38 p. http://www.web.isanet.org.

8. Прокофьев К.В. Международно-правовые проблемы обеспечение международной информационной безопасности в сети Интернет. Дисс. канд. юрид. наук. Москва, 2009.- 186 с.

9. Молодчая Е.Н. Политика противодействия кибертеррозриму в современной России политологический аспект. Автореферат дисс. канд. полит. наук. Москва, 2011.-30 с. http://www.rgsu.net.

10. Згоба А.И, Маркелов Д.В, Смирнов П.И. Кибербезопасность: угрозы, вызовы, решения// Журнал Вопросы кибербезопасности, №5, 2014.- С 30-38.

Ключевые слова: *кибербезопасность, проблемы кибербезопасности в мире, система кибербезопасности в мире, кибербезопасность стран мира, рост киберпреступления.*
Açar sözləri: *kipertəhlükəsizlik, dünyada kipertəhlükəsizlik problemləri, dünya kipertəhlükəsizlik sistemi, dünya ölkələrinin kipertəhlükəsizliyi, kipercinayətlərin artımı.*
Keywords: *cybersecurity, cybersecurity problems in the world, the system of cybersecurity in world, cybersecurity of the world countries, the rise of cybercrimes.*

SUMMARY

In the article are investigated the cyber security problems of growth of cybercrimes in the world condition. For this purpose the analyzed processes of the organization of cyber security in the world countries and actions of the countries of the world in this sphere. Considered are the cybercrime growth reasons, their negative crimes and influences on world economy, an economic safety of the individual countries.

A number of recommendations are prepared and given the offer on problems and a way of their solutions of ensuring cyber security in the conditions of growth of cybercrimes in the world at the end of the article.

Təhlükəsizlik

MİLLİ MARAQLARIN FORMALAŞMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ (konseptual yanaşma)

SƏYAVUŞ QASIMOV
Bakı Avrasiya Universiteti

Milli maraqların formalaşması, təşəkkülü xüsusiyyətləri və prioritetliyinin aşkar edilməsi, faydalılıq və kəskinlik göstəricilərinin müəyyənləşdirilməsi siyasi elmdə və əməli təcrübədə böyük əhəmiyyət kəsb edir. Milli maraq problemini tədqiq edən siyasətşünasların yekdil rəyincə, bu, mürəkkəb və uzunmüddətli proses üç əsas mərhələdən keçir: 1) milli maraqların araşdırılıb formalaşdırılması; 2) milli maraqların ölkənin qanunvericilik aktlarında təsbit olunması; 3) milli maraqların təmin olunmasının vasitə və üsullarının müəyyən edilib əməli fəaliyyətə keçilməsi. Göründüyü kimi, proses milli maraqların formalaşmasından başlayır.

Milli maraqlar sistem kimi

Milli marağı formalaşdıran komponentlərin aşkara çıxarılması, təbii ki, onun mahiyyətinin daha dərindən başa düşülməsi ilə bağlıdır. Ümumi rəy belədir ki, milli maraqlar obyektiv amillərin təsiri altında, fərdin, cəmiyyətin və dövlətin tələbatları əsasında təşəkkül tapır. Həm də bu prosesə iki qrup geosiyasi amillər təsir göstərir: 1) obyektiv geosiyasi amillər – ölkənin ərazisi, coğrafi mövqeyi, təbii resursları, əhalisinin sayı, iqtisadi inkişaf səviyyəsi, siyasi sabitlik dərəcəsi, hərbi gücü, tarixən formalaşmış mədəniyyəti, elm və texnologiyanın inkişaf səviyyəsi, beynəlxalq vəziyyət; 2) subyektiv geosiyasi amillər – siyasi rejim, siyasi rəhbərlik, liderlərin idarəçilik səriştəsi, ictimai şüurun, xüsusən hüquqi və siyasi şüurun inkişaf səviyyəsi. Milli maraqların formalaşması və inkişafında obyektiv geosiyasi amillərin həlledici rolu danılmazdır. Bununla belə, istənilən amilin milli mənafe forması kəsb etməsi üçün bu amillər hökmən insanların şüurundan keçməlidir, başqa sözlə, ictimai şüur aktına çevrilməlidir.

Məntiqi baxımdan maraq öz strukturu və funksional komponentləri olan sistemdir. Onun əsas struktur komponentləri subyekt, obyekt və formalaşma mühitidir. Funksional komponentlərə isə cəmiyyətin dominant dəyərləri, tələbatlar, bilik (informasiya), marağın formalaşma metod və prinsipləri, həmçinin şəxsiyyət, cəmiyyət və dövlətin həyati maraqlarının təşəkkülündə iştirak edən insanların peşəkarlığı daxildir.

Milli maraqlar fərdi, ictimai və dövlət maraqlarının cəmi olmaqla ictimai şüurda kök salan tələbatların bütöv bir sistemidir. Onun

komponentləri arasında milli təhlükəsizlik, daxili siyasət, xarici siyasət, millət və ya dövlətin nüfuzu, beynəlxalq aləmdə rolu, milli gücü kimi kateqoriyalar mühüm yer tutur. Bunlardan milli güc geniş əhatə dairəsinə görə fərqlənir, əslində toplu məzmuna malik olmaqla, dövlətin, cəmiyyətin maddi, mənəvi və hərbi qüdrətini özündə ehtiva edir.

Milli güc: strukturu və qiymətləndirilməsi

Güc anlayışına, onun struktur elementləri və qiymətləndirilməsi ilə bağlı məsələlərə antik mütəfəkkir Fukididdən bu günə qədər bir çox tədqiqatçılar diqqət yetirmişlər. Fukidid "Peloponnes müharibəsinin tarixi" əsərində qeyd edir ki, dövlətlərarası münaqişədə ən əsas arqument gücdür, güc vasitəsilə bir dövlət başqa bir dövləti müəyyən işlər görməyə məcbur edə bilər. O həmçinin bildirir ki, güc və qüvvə məqsəd deyil, dövlətin təhlükəsizliyini və nüfuzunu saxlamaq üçün vasitədir [10, s. 22]. Tomas Hobbs "Leviafan və ya Dini və mülki dövlətin materiyası, forma və hakimiyyəti" əsərində göstərir ki, dövlətlərarası münasibətlərin yeganə tənzimləyicisi gücdür və dövlətlər müharibəyə hazır vəziyyətdə duraraq bir-birinə nəzarət edirlər. O, ümumiyyətlə hakimiyyət məsələsini ictimai müqavilə ilə yanaşı güc amili ilə də bağlayaraq yazır: "Ali hakimiyyətə çatmaq üçün iki yol var. Birincisi – bu, fiziki gücdür, məsələn, nə vaxt kim isə uşaqlarını sözə baxmayacaqları halda məhv etmək hədəsi ilə öz hakimiyyətinə tabe olmağa məcbur edirsə və ya müharibə yolu ilə düşmənlərini özünə tabe edib bu şərtlə onları əfv edirlərsə" [7, т. 2, c. 133]. Hans Morgentau isə gücü həm dövlətin can atdığı məqsəd, həm də milli maraqların təmin olunmasının vasitəsi kimi nəzərdən keçirir [5, p. 115-179]. Türkiyənin hərb tədqiqatçısı N.U. Ucuzsatar yazır ki, "bir dövlətin milli ruhunun toplamı onun hərbi gücünü təşkil edir. Milli güc, milli mənfəətlərin saxlanılması və milli hədəflərin əldə edilməsində istifadə edilə biləcək insan gücü, coğrafi, iqtisadi, əsgəri və idarəetmə, psixososial və texnoloji gücləri əhatə edir, dövlətin sahib olduğu bütün maddi və mənəvi ünsürlərin məcmusunu bildirir. Hərbi güc milli gücə dayanır" [1, s. 35]. Daha sonra tədqiqatçı milli gücün ünsürlərinə diqqət yetirir, əsgəri güc və fiziki gücü fərqləndirir. Alimin coğrafi gücü ölkənin dünya üzərindəki yerinin, iqliminin, hidroqrafik, geoloji, bioloji vəziyyətinin hərbi və əsgəri gücə təsir qüdrəti kimi dəyərləndirməsi, problemə relyef, düzən, dağlıq, çay, göl, dəniz, okeana çıxış, ərazi böyüklüyü, dünyanın güc mərkəzlərinə yaxın və uzaqlığı və s. parametrlər mövqeyindən yanaşması geosiyasi baxımdan xüsusi maraq doğurur. Y. Akçuraoğlu milli gücü dövlətlərin milli mənafelərini, milli hədəflərini gerçəkləşdirmə yetənəklərindən yaranan bir sistem kimi müəyyənləşdirir [1, s. 35].

Milli gücün strukturu, tərkib elementlərinin nisbəti barədə müxtəlif mülahizələr irəli sürülmüşdür. Gücün strukturunun dəyişməsinə həm tarixi dövrün xarakteristikası, həm də dövlətlərin dünya arenasında mövqeyi, geosiyasi vəziyyəti və s. amillər təsir göstərir. Tarixə nəzər salsaq görərik ki, əvvəllər dövlətin gücünün əsas elementini onun ərazisinin böyüklüyü, özgə ərazilərin işğalı, ekspansionist siyasət təşkil edirdisə, müasir dövrdə dövlətlər iqtisadi gücün artırılmasına, əhalinin rifahının, təhsil səviyyəsinin yüksəldilməsinə, elmin inkişafına xüsusi diqqət yetirirlər. Misal üçün, XIX əsrdə "dəniz hökmranlığı" ideyasının banisi A.T. Mehenin fikrincə, dənizlərə sahib olanlar və ya onlara nəzarət edənlər indi və gələcəkdə dünya tarixinin mühüm faktoru hesab olunacaqlar. O həmçinin qeyd edir ki, tarix boyunca həmişə dənizlərə hökmranlıq edənlər qalib gəlmişdir. Hannibalın Roma ilə on yeddi il, Napoleonun isə İngiltərə ilə on altı il döyüşməsinə baxmayaraq məğlub olmalarını buna misal göstərir [8, c. 7-8].

Dövlətin milli gücünü müəyyənləşdirmək üçün ilk növbədə gücün strukturunu, onun hansı elementlərdən ibarət olduğunu dəqiqləşdirməyə zərurət yaranır. Müasir dövrün əksər tədqiqatçıları milli gücün strukturunu təxminən oxşar şəkildə müəyyənləşdirirlər. Fərqlər isə tədqiqatçıların öz dövlətlərinin geosiyasi vəziyyətindən, inkişaf səviyyəsindən çıxış etmələrindən və s. irəli gəlir. Bunların bəzilərinə diqqət yetirək. Türkiyəli tədqiqatçı T. Dəyərli milli gücü beş bölümdə təsnif etmişdir: siyasi güc, iqtisadi güc, əsgəri güc, psixi-sosial və elmi-mədəni güc, coğrafi güc [1, s. 36]. Rusiya siyasətşünası A.A. Proxojev isə gücün strukturunu üç hissəyə ayırır: dövlətin gücü, cəmiyyətin gücü və silahlı qüvvələr. Dövlətin güc göstəricilərinə ümumi daxili məhsulu, ərazini (kv.km), əhalini, büdcə xərclərini, ümumi istehsalda emal sənayesinin payını (%) və emal sənayesində çalışanların sayını; cəmiyyətin güc göstəricilərinə əhalinin məşğulluq səviyyəsini, orta ömür müddətini, doğum əmsalını, elmə ayrılan xərcləri, tələbələrin sayını və enerji hasilatının həcmini; silahlı qüvvələrə isə hərbiçilərin sayını, dövlət büdcəsindən milli müdafiə üçün ayrılan vəsaiti, mövcud hərbi texnikanı, hərbi sənayenin inkişaf səviyyəsini və silah-hərbi texnika ixracını aid edir [9, c. 166-174].

Dövlətin gücü milli maraqların formalaşmasına birbaşa təsir göstərən faktorların ən əhəmiyyətlisidir. Belə ki, böyük gücə malik olan dövlətin milli maraqları zəif dövlətə nisbətən geniş və əhatəli olur. Qlobal təhlükəsizliyin təmin olunmasından böyük mənfəət əldə edən super gücə malik dövlətlər onun təmin olunmasında kiçik dövlətlərə nisbətən daha çox maraqlıdırlar. Böyük dövlətlərin milli maraqlarının spektrində onların beynəlxalq aləmdə baş verən proseslərə təsir imkanları da öz əksini tapır. ABŞ-ın prioritet maraqlarına nəzər salsaq görərik ki, onlardan ikisi beynəlxalq səciyyəlidir. Bunların biri əlverişli beynəlxalq şəraitin (beynəlxalq təhlükəsizlik baxımından) yaradılması, ikincisi isə demokratiya və insan hüquqları kimi dəyərlərin beynəlxalq aləmdə yayılmasına yardım etməkdir. Halbuki zəif ölkələrin milli maraqlarında bu məsələlər prioritet ola bilməz, çünki onların beynəlxalq siyasi proseslərə təsir etmək imkanları yox dərəcəsindədir.

Deyilənləri ümumiləşdirərək milli gücün struktur elementlərini iki qrupa ayıra bilərik: SGn – nisbi sabit güc elementləri (coğrafi güc, əhali, tarix, maddi və mənəvi mədəniyyət), DG – dəyişən güc elementləri (iqtisadi inkişaf səviyyəsi, hərbi güc, siyasi sabitlik, elm və texnologiyanın inkişafı). Nisbi sabit güc elementlərini dövlətin iradəsi ilə qısa və orta müddətdə dəyişmək mümkün olmur. Amma onların ümumi gücdəki çəkisi dövrün xarakterindən asılı olaraq müəyyən dəyişikliyə uğraya bilər. Dövlətin dəyişən güc elementləri isə qısa və orta müddətdə siyasi iradə ilə dəyişə bilən göstəricilərdir.

Milli gücün qeyd olunan elementləri xarakterə obyektivdir.

Lakin onlarla yanaşı subyektiv amillərin təsiri də böyükdür. Bura ilk növbədə dövlət strategiyasını və siyasi iradəni aid etmək olar. Dövlət strategiyasının milli maraqlara, geosiyasi amilə, beynəlxalq şəraitə və s. uyğunlaşdırılması kadrların hazırlıq səviyyəsindən, problemə yanaşma tərzindən asılıdır. Siyasi iradə və strategiyanı milli gücün həm subyektiv elementləri kimi, həm də milli gücün çəkisini artıran vasitə kimi qəbul etmək olar.

Dövlətin ümumi gücünün müəyyənləşdirilməsində hansı göstəricilərin əsas götürülməsi ilk növbədə dövrün xarakterindən asılıdır. Belə ki, "soyuq müharibə" dövründə dövlətin ümumi gücünün əsas göstəricisi onun hərbi potensialı idisə, sonrakı dönəmdə iqtisadi göstəricilər daha böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Müasir dövrdə dövlətlər iqtisadiyyatın, texnologiyanın inkişafına və əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsinə üstünlük verirlər. Bununla yanaşı, hər hansı elementin əhəmiyyətini müəyyənləşdirərkən mütləq onunla bağlı olan digər elementləri də nəzərə almaq vacibdir.

Milli gücün mahiyyəti və strukturunun müəyyənləşdirilməsinin ardınca onun adekvat qiymətləndirilməsi mərhələsi gəlir. Tədqiqatçılar bu məqsədlə müxtəlif düsturlar təklif etmişlər. Amerika alimi Ray Steyner Klayn dövlətin ümumi gücünü hesablamağın belə bir düsturunu irəli sürmüşdür:

P=(C+E+M)×(S+W) Burada P – dövlətin gücü, C – əhali və ərazinin əmsalları cəmi, E – iqtisadi potensial, M– hərbi potensial, S – strateji məqsəd, W – məqsədə nail olmaq iradəsidir [3, з. 34].

Milli gücün daha təkmil bir qiymətləndirmə metodu tanınmış türk siyasi xadimi Əhməd Davudoğluna məxsusdur. O, milli gücün göstəricilərini üç qrupa ayırır: 1) sabit göstəricilər – SV (tarix – t, coğrafiya – c, mədəniyyət – m); 2)potensial göstəricilər – PV (iqtisadi güc – ek, texnoloji güc – tk, hərbi güc – ak); 3) subyektiv amillər kimi ümumiləşdirə biləcəyimiz göstəricilər (strateji təfəkkür – SZ, strateji planlaşdırma – SP, siyasi iradə – Sİ). Ə. Davudoğlunun həmin göstəricilər əsasında tərtib etdiyi düstur belədir: G=(SV+PV)×(SZ×SP×Sİ) SV=t+c+k; PV=e_(k)+t_k+a_k

Yeri gəlmişkən, birinci düsturda, sadə riyazi qaydaya görə, ikinci mötərizədən əvvəlki və onun içərisindəki göstəricilər arasında hasil nisbəti olduğuna görə sonrakı mötərizə işarəsi yersizdir. Lakin bu texniki qüsura elə bir əhəmiyyət vermədən mahiyyətə keçmək istərdik. Ə. Davudoğlunun fikrincə, bu düsturun ünsürlərinə ayrı-ayrı nəzər salsaq, sabit göstəricilərin qısa və orta müddətdə dövlətin iradəsi ilə dəyişdirilməsinin mümkün olmadığını görərik. Ancaq bu vəziyyət həmin ünsürlərin ölkələrin güc tənliyindəki çəkisinin dəyişməz olduğu mənasını vermir. Əksinə, dəyişən beynəlxalq vəziyyət bu sabit ünsürlərin ölkələrin güc tarazlıqları içindəki spesifik çəkisinin dəyişməsinə gətirib çıxara bilər. Bir ölkənin potensial göstəriciləri isə qısa və orta müddətdə dəyişə bilən və ölkə potensialının istifadə tutumunu əks etdirən ünsürlərdir. İqtisadi qaynaqlar, texnoloji infrastruktur və hərbi qüdrət ölkənin güc tənliyində dəyişən ünsürlər kimi iştirak edir. Onların xarici siyasətə əlaqəli və məhsuldar şəkildə daxil edilməsi beynəlxalq güc tarazlıqları içərisindəki çəkisinin artmasını təmin edir. Ə. Davudoğluna görə, müxtəlif cəmiyyətlərin fərqli strateji dünyagörüşünə malik olmaları, əslində, məkan və zaman ölçülərinə söykənən dünyanı fərqli dərk etmələrinin məhsuludur, burada yolverilən yanlışlıqlar həmin ölkələrin beynəlxalq əlaqələrində çətinliklərə səbəb olur [2, s. 17-29].

Nəzərdən keçirdiyimiz düsturlara ümumi qiymət vermiş olsaq, onların müsbət göstəriciləri ilə yanaşı müəyyən çatışmazlıqlarını

da qeyd etməli olarıq. Burada biz ilk növbədə milli gücün daxili komponentləri sırasında elmi-texniki tərəqqinin ayrıca vacib bir element kimi göstərilməməsini nəzərdə tuturuq. Digər mühüm iradımız həmin düsturlarda xarici geosiyasi amilin təsirinin ümumiyyətlə nəzərə alınmamasıdır. Hesab edirik, belə yanaşma dəyişən xarici şəraiti nəzərə almadığına görə abstraktdır. Xüsusən sürətlə qloballaşan müasir dünyada xarici geosiyasi amillərin milli gücə təsiri getdikcə artır. Odur ki, biz həmin amilləri də nəzərə alaraq milli gücün hesablanmasının daha mükəmməl hesab etdiyimiz belə bir düstur - modelini təklif edirik:

MG=Əh + Ər + (İq + Hg) x ETT + XGA

Burada MG – milli güc, Əh - əhali, Ər - ərazi, İq – iqtisadiyyat, Hg – hərbi güc, ETT – Elmi-texniki tərəqqi və XGA – xarici geosiyasi amildir.

Elmi-texniki tərəqqi, xüsusən onun yetirməsi olan elm tutumlu yüksək texnologiyalar həm iqtisadiyyata, həm də hərbi gücün texniki təchizatına inqilabi təsir göstərir. Milli gücün qiymətləndirilməsində xarici geosiyasi amilin rolu da nəyinki yüksəkdir, hətta müəyyən böhranlı hallarda (iqtisadi, sosial, hərbi və s.) həlledici əhəmiyyət kəsb edir. Müasir çoxsaylı regional münaqişələrin həllində göstərilən geosiyasi amillərin rolu bunu əyani nümayiş etdirir.

Milli maraqların qiymətləndirilməsi, prioritetliyinin müəyyənləşdirilməsi

Müasir siyasi elmin bir sıra nümayəndələri milli güclə yanaşı bütövlükdə milli maraqların qiymətləndirilməsi probleminə də diqqəti yetirirlər. Amma bu məsələnin həllində onların daha çox təmsil etdiyi ölkənin milli maraqlarına üstünlük verdikləri hiss olunur. Məsələn, D.E. Nekterleyn milli maraqların qiymətləndirilməsi düsturunu hazırlayarkən ABŞ-ın uzunmüddətli təməl milli maraqlarını (vətənin müdafiəsi, iqtisadi rifah, əlverişli dünya düzəni, dəyərlərin yayılması) əsas götürərək dörd meyarlı (həyati, həyati vacib, vacib, periferik) ümumi bir matrisada birləşdirmiş, onların intensivlik səviyyəsini ayırd etmək üçün daha dörd əlavə anlayışı (kritik, təhlükəli, ciddi, narahatlıq yaradan) da bu sistemə daxil etmişdir [6, p. 20].

Milli maraqların qiymətləndirilməsi ilə bağlı daha bir düstur Çin tədqiqatçısı Yan Xue Tonq tərəfindən irəli sürülmüşdür. O, əsas diqqəti milli maraqları faydalılıq dərəcəsinə görə fərqləndirməyə yönəldir. Bunun üçün onları əhəmiyyətlilik baxımından birinci və ikinci dərəcəli, kəskinlik baxımından isə indiki və gələcək maraqlara ayırır. Bu əsasda milli maraqları dörd qrupa bölür: 1) indiki birinci dərəcəli maraqlar – A; 2) indiki ikinci dərəcəli maraqlar – B; 3) gələcək birinci dərəcəli maraqlar – C; 4) gələcək ikinci dərəcəli maraqlar – D. Bu sıraya uyğun olaraq onlara A=3, B=2, C=2 və D=1 əmsalını verir. Burada B və C qruplarına daxil olan milli

maraqların əmsalındakı bərabərliyi izah edən müəllif göstərir ki, həmin maraqların faydalılıq əmsalları bərabər və ya yaxın olduğu üçün onlardan birinə üstünlük vermək çətinləşir. Dünya praktikasında əksər hallarda siyasi qərar qəbul edənlər seçim qarşısında qaldıqda indiki ikinci dərəcəli maraqları gələcək birinci dərəcəli maraqlardan üstün tuturlar. Müəllifin izahına görə, iki eyni ölçüyə malik olan obyektlərdən uzaqda olanlar yaxındakılara nisbətən kiçik görünür, nəticədə yaxındakına, yəni Çin müəllifinin təsnifatındakı B qrupuna C-yə nisbətən üstünlük verilir [4, p. 49].

Bununla belə, hesab edirik ki, B və C maraqlarının arasında seçim edərkən bugünün qayğıları ilə yanaşı gələcək perspektiv də hökmən nəzərə alınmalıdır. Məsələn, iqtisadiyyat sahəsində islahatlar bugün üçün maddi ziyan verə bildiyi halda, gələcək güclü inkişafın mənbəyinə çevrildiyindən daha yüksək qiymətləndirilməlidir.

Üzərində dayandığımız və onlara bənzər digər yanaşmalara ümumi qiymət versək, burada milli maraqların əhəmiyyətinə və kəskinliyinə görə fərqləndirildiyini görə bilərik. Onları əhəmiyyətinə görə birinci və ikinci dərəcəli, kəskinliyinə görə isə həyati (kritik), həyati-vacib (təhlükəli), vacib (ciddi) və periferik (narahatlıq doğuran) maraqlara bölürlər. Bu bölgünü, həmçinin D.E. Nekterleynin, Y. Xue-Tonqun və digər tədqiqatçıların qiymətləndirmə qaydalarını nəzərə alaraq, belə bir düsturdan istifadə olunmasını təklif edirik: M_p= Ə_d×K_d Burada Mp maraqların prioritetliyini, Əd maraqların əhəmiyyətlilik dərəcəsini, Kd isə maraqların kəskinlik dərəcəsini ifadə edir.

Milli maraqların, geosiyasi və ya milli gücün siyasi elmdə geniş tədqiq olunmasına, o cümlədən qiymətləndirilməsi ilə bağlı müəyyən konsepsiyaların olmasına baxmayaraq həmin sahədə mübahisəli məsələlər hələ də qalmaqdadır. Bunun əsas səbəblərindən biri tədqiqatçıların milli maraqların qiymətləndirilməsində obyektiv elmi metodlara deyil, subyektiv instinktlərə üstünlük vermələridir. Belə ki, dövlət başçıları öz siyasi səriştələrinə əsaslanaraq ölkənin milli və ya dövlət maraqlarını elmi metodlara söykənmədən də düzgün qiymətləndirə biləcəklərini güman edirlər. Halbuki sivilizasiya tarixində belə subyektiv qiymətləndirmələrə görə milli dövlət maraqlarının ciddi ziyan çəkdiyini göstərən faktlar az deyil.

Hesab edirik, burada əsas diqqət ilk növbədə milli maraq komponentlərinin konkret tarixi dövrdə və mövcud beynəlxalq vəziyyətdə prioritetliyinin düzgün qiymətləndirilməsinə yönəldilməlidir. Fikrimizi bir qədər də dəqiqləşdirsək, milli maraqların ayrı-ayrı elementlərinin müvafiq məkan-zaman müstəvisində əhəmiyyətlilik dərəcəsi və kəskinlik səviyyəsinin subyektiv amillərə deyil, obyektiv meyarlara əsasən dəqiqləşdirilməsi tələb olunur. Lakin bu vəzifənin yerinə yetirilməsi göründüyü qədər də asan deyil. Əvvəla, milli maraqların bir qismi, daha doğrusu, dəyişən elementləri müxtəlif təsirlərə həssasdır. Bu təsiri törədən amillərin qabaqcadan müəyyən edilməsi çətindir, həm vəziyyət dəyişə bilər və həm də qiymətləndirmədə səhvə yol verilə bilər.

Burada çətinlik törədən digər mühüm amil zahirən bütöv sistem təsiri bağışlayan milli maraqların daxilində bəzən ziddiyyət təşkil edən element və ya məqamların da olmasıdır. Daha doğrusu, milli maraqların müəyyən qismi bir sıra başqa maraqların qurban verilməsi hesabına təmin edilə bilər. Məsələn, milli dövlət təhlükəsizliyi müdafiə xərclərinin artırılmasını tələb edir ki, bu da sosial sferaya ayrılan büdcə vəsaitinin azaldılmasına səbəb olur. Milli maraqların qiymətləndirilməsi üçün tələb olunan zəruri informasiyanın əldə edilməsi sahəsində çətinliyi, nəhayət, milli maraqları qiymətləndirən siyasi elitanın öz daxilində fikir ayrılığı və ziddiyyətləri qeyd etməliyik. Deməli, obyektiv reallığın elmi dərki ilə yanaşı onun qiymətləndirilməsində subyektiv amilin, daha doğrusu, idarəçilik səriştəsinin, zəruri elmi biliyin olması da vacibdir.

Nəticə

Apardığımız təhlildən belə qənaətə gəlirik ki, milli maraqlar dövlətin malik olduğu real geosiyasi-milli gücə uyğunlaşdırılmalıdır. Reallığa əsaslanmayan maraqlar təmin oluna bilməz və dövləti inkişafa deyil, tənəzzülə sürükləyər. Buna yol verməmək üçün geosiyasi amillər müəyyənləşdirilməli, onların əsasında formalaşan milli maraqların prioritetliyi dəqiqliklə qiymətləndirilməli, dövlət tərəfindən qəbul olunan strateji sənədlərdə təsbit olunmalıdır.

ƏDƏBİYYAT

1. *Xəlilov C.M. Milli təhlükəsizlik mənlik şüuru kontekstində. Bakı: Vətən, 2006, 220 s.*
2. *Davutoğlu A. Strateji derinlik. Türkiye'nin uluslararası konumu. İstanbul: Kurtiş Matbaacılık, 2010, 584 s.*
3. *Cline R. World Power Assessment 1977: A Calculus of Strategic Drift. Colorado: Westview Press, 1977, 206 p.*
4. *Hue-Tong Y. Analysis of China's National Interests. http://cns.miis.edu/books/pdfs/china_national_interests.pdf*
5. *Morgenthau H. Politics Among Nations: The Struggle for Power and Peace. Seventh edition, New York: Alfred A. Knopf, 1968, 416 p*
6. *Nuechterlein D. America Recommitted: A Superpower Assesses its Role in a Turbulent World. Kentucky: The University Press of Kentucky, 2000, 323 p.*
7. *Гоббс Т. Сочинения в 2-х т. М.: Мысль, 1989-1991, Т. I, 622 с.; Т. II, 736 с.*
8. *Мэхэн А.Т. Роль морских сил в мировой истории / Пер. с англ. Л.А. Игоревского М.: ЗАО Центрполиграф, 2008, 606 с.*
9. *Общая теория национальной безопасности: Учебник / Под общ. ред. А.А. Прохожева. www.twirpx.com/file/108007*
10. *Фукидид. История. Л.: Наука, Лен. отд-е, 1981, 542 с.*

Açar sözlər: *milli maraq, milli güc, təhlükəsizlik, təhdid, geosiyasi amil, qiymətləndirmə*

Ключевые слова: *национальные интересы, национальная сила, безопасность, угроза, геополитический фактор, оценка*

Key words: *national interest, national power, security, threat, factor, evaluation*

SUMMARY

Formation and evaluation of national interests (conceptual approach)

The article is devoted to the problems of formation, structure, evaluation and definition the priority of national interests, in the structure of which the national power stands out; the existing formula is analyzed the definitions of their evaluation, put forward by the author and the improved version.

РЕЗЮМЕ

Формирование и оценка национальных интересов (концептуальный подход)

Статья посвящена проблемам формирования, структуры, оценки и определения приоритетности национальных интересов, в структуре которой особо выделяется национальная сила; анализируются имеющиеся формулы-определения оценки как национальных интересов, так и национальной силы, выдвигается совершенствованные их автором версии.